

Sərraf
ŞİRUYƏ

# Susma, ürək...

**SƏRRAF ŞİRUYƏ**

# SUSMA, ÜRƏK...

**Bakı – 2015**

*Tərtib edəni və redaktoru:*
**Araz YAQUBOĞLU**

*Ön sözün müəllifi:*
**Tofiq YUSİF**

***"Susma, ürək..." şeirlər kitabının çap olunmasında göstərdiyi maddi dəstəyə görə Sərraf Şiruyəsevərlər adından Əliyev Nəsrəddin Məhəmməd oğluna təşəkkür edirik.***

**Sərraf Şiruyə**
Susma, ürək... (şeirlər)
Bakı, "SkyG", 2015, 272 səh.

Minillik xalq şeirimizin görkəmli nümayəndəsi Sərraf Şiruyənin "Susma, ürək..." adlı kitabında milyonların dilinin əzbərinə çevrilən biri-birindən dəyərli şeirləri toplanmışdır.

Ümidvarıq ki, kitab poeziyasevərlər üçün xüsusi bir töhfə olacaqdır.

**ISBN 978-9952-440-08-05**

**© "Sərraf Şiruyə", 2015**

## OVSUN

***Bu fələknən nərd atasan,***
***Şeş-beş verən zərin ola.***
***Ortalığa bəxt qoyasan,***
***Aparmağa sərin ola.***

***Söz yığasan demək üçün,***
***Dost tapasan kömək üçün,***
***Bu dünyanı yemək üçün,***
***Ağlın, huşun dərin ola.***

***Ay Şiruyə, al geyəsən,***
***Yaman gözə gəlməyəsən.***
***Bir deyənə beş deyəsən,***
***Arxada bir nərin ola.***

Elə təkcə bu şeir bəs edərdi ki, Sərraf Şiruyə elin yaddaşına köçsün. Halbuki, belə sığallı, şirin və dərin mənalı, dünya ilə qovğa eyləyən şeirləri yüzlərlədir. Bu şeiri o günü radioda İrandan bir aşıq da oxuyurdu. Azərbaycanın bütün bölgələrində uşaqdan böyüyə qədər kimi dindirsən, yalan olmasın, bu şeiri sənə əzbər deyər. Şiruyə şeiri, Şiruyə qələmi, Şiruyə təbi, Şiruyə ovsunu budur!

Mən burada Sərraf Şiruyənin tərcümeyi-halından danışası deyiləm. Şairin yaradıcılığı, şairin şeirləri elə onun tərcümeyi-halıdır. Yalnız onu deməklə kifayətlənmək istərdim ki, şair Məmmədhüseynin, Aşıq Nəcəfin, Həsən Xəyallının yurdunda dünyaya gələn Şiruyə ayrı Şiruyə ola bilməzdi, elə beləcə, necə var Sərraf Şiruyə olmalı idi.

Nənəsi Başxanım Şəfiqızının ilahi təbindən baş alan, atası Həsən Xəyallının ilham dəryasında Şiruyə adlı bir tə-

latüm yaranmalı idi və yarandı da. Onun doğulduğu şairlər ocağında "Allaha bəndəlik etməyən" Şiruyə ilhamı sözün ilahi məqamına yetməliydi. Belə də oldu. Qərbi Azərbaycanın ulu Göyçə mahalının bir kəndindən boy atıb bütöv Azərbaycana oğul olmaq Sərraf Şiruyə kimi barmaqla sayılası az-az insana nəsibdir.

Deyirlər ki, zirvələr uzaqdan əzəmətli, vüqarlı görünür. Ucalığa yaxınlaşdıqca əvvəlki heyrət azalır. Yaxınlarının gözündə Sərraf Şiruyə bəlkə də elə adi Şiruyə müəllimdir. Bu təbidir. Lakin, onu da bilmək lazımdır ki, Şiruyəni şeirlərilə uzaqdan tanıyanların nəzərində o bir nəhəng istedad zirvəsidir ki, hər ucalıq hələm-hələm belə urvatla sevilməz. Haqdan gəlmə vergili şair ayrı necə ola bilər ki?

Büllur gözlü həzin bir bulağın "Segah"ının ovsunundan kim sehirlənməyib, zirvələrdən sellənən şaqraq bir şəlalənin "Mənsuriyyə" ecazından kim heyrətlənməyib ki, Sərraf Şiruyənin cilvəli şeir çağlayışından da beləcə sehirlənməsin, heyrətlənməsin? Şiruyənin poeziyasını ulu xalqımızın müdrikliyindən qaynaqlanan milli ruh və milli kalorit ballandırır, qaymaqlandırır. Onun söz düzümündən hansı mövzu nəğmələnirsə nəğmələnsin, o mövzunun cövhəri, mayası istəkdən, sevgidən, vurğunluqdan yoğrulur. Həsrətin göynəmindən gizildəyən Şiruyə şeirlərinin nüvəsində də həmin istək, həmin sevgi, həmin vurğunluq uyuyur. Yəni onun öz dərdinə də, həsrətinə də vurğunluğu var. Çünki, dünyanın necə dünya olduğunu bilir, insan ömrünün fəlsəfəsini anlayır.

***Bu dünya insan üçün,***
***Yalanıymış sən demə.***
***Verdiyini hər nə var,***
***Alanıymış sən demə.***

Başqa bir şeirində:

***Dünya oyuncaqdı naşı gözündə,***
***Olur ağılsızın başı gözündə,***
***Şahların quruyub yaşı gözündə,***
***Gözlərində yaş apara bilməyib.***

Mənə Sərraf Şiruyənin iki kitabına ön söz yazmaq şərəfi qismət olub və hiss edirəm ki, hər iki siftəlikdə də onun tufanlı təbinə, çağlar ilhamına layiq söz deyə bilməmişəm (neyləyim ki, olanım budur?), sözümü deməyə də bilmirəm. Çünki, onun sehirli yaradıcılığı məni elə cazibəyə salıb ki, bu qüvvənin çevrəsində cizginməkdən başqa əlacım qalmır və düzünü deyim ki, bu "əlacsızlıq" mənə ləzzət verir.

Bu dəfə basmaqəlib söz tapdağından uzaqlaşıb, fikrimə nə gəlirsə, onu yazmaq istəyirəm və məncə bu, günah sayılmaz.

Şiruyəni tanımamışdan onun sözlərini, nəğmələrini tanımışdım.

Bir dəfə el şairi Alqayıtla bizə gəldilər. Süfrədən sonra "Şeir deyişməsi" başlandı, nə başlandı... Onlar da şeir oxudular, mən də. Ev şeir qasırğasına düşmüşdü. Onda lap yaxından tanıdım ki, Şiruyənin özü də şeirləri qədər çılğın və istidir, səmimi və mehribandır, həm də qəzəbi vulkan kimi yığıb ürəyinə. Vay o günə ki, dediyin haqsız sözün üstündə israrlanasan, təkid edib, səhvini başa düşməyəsən! Onda döz də şeirin hiddət gürşadına! Bir dəfə belə bir iş Tərtər rayonunun Qaradağlı kəndinin mədəniyyət evində Şiruyə ilə birlikdə hansı tədbirdəsə iştirak edəndə başıma gəlib. O vaxtdan tövbəliyəm. Nə isə... Əvvəl demişəm, indi də deyi-

rəm: “Bu adam bütün varlığıyla təpədən-dırnağa şairdir!”. Belə şair olduğundandır ki, yazır:

***Şərəfsiz ölümə məndən xəbərsiz,***
***Axdı gözlərimdən yaş, hayıf oldu.***
***Zirvənin başından bir daş helləndi,***
***Dəydi bir namərdə daş, hayıf oldu.***

***Başı piy bağladı arsız bədənin,***
***Mənliyi şöhrətə satan gədənin.***
***Halal süfrəsindən aqil dədənin,***
***Verildi nankora aş, hayıf oldu.***

***Tamahın, nəfisin ağzı sulandı,***
***Maya haramlaşdı, amal bulandı.***
***Hörüklər kəsildi, gözlər boyandı,***
***Yolunda gündə bir qaş, hayıf oldu.***

***Fikri bilinmədi qara dinməzin,***
***Elin sevincinə üzügülməzin.***
***Çəkdi qayğısını qədirbilməzin-***
***Fikirlər əlində baş, hayıf oldu.***

***Şiruyə, de, danış nə var əyyamda,***
***Mənəmlik baş alan bu dar əyyamda,***
***Haqsız zəmanədə, bekar əyyamda,***
***Ötüşdü ömür-gün, yaş hayıf oldu.***

Sərraf Şiruyə məncə çoxdan bu elin, bu obanın yaddaşına köçüb və orada özünə elə yurd salıb ki, qərinələr keçsə də, zaman-zaman bu iz, bu yer Qobustan qayalarının yazıları kimi silinməyəcək, aşınmayacaq. Sazlı-sözlü Azərbay-

can dünyasının yaddaşında nəsildən-nəslə keçərək, əbədi yaşarlıq tapacaqdır. Çünki, Şiruyənin şeir dili, şeir danışığı öz doğma xalqının dili, xalqının danışığıdır.

Onun Vətən sevgisi, Vətən istəyi pak sevgidir, halal istəkdir. Bir daşı, bir ovuc torpağı, hətta budağı, yarpağı da Vətən bilən şairin yurd sevgisinə heyrət etməmək olmur. Həmin daş da, torpaq da, budaq da bu Vətəndə olduğu üçün Vətəndir!

***Hər nazik bir cığır, adi bir keçid,***
***Hər bələ, hər sızqa bulaq Vətəndir!***

O, Vətənə biganəliyi heç kimə, hətta doğma qardaşına, könül sirdaşına belə bağışlamayan vətəndaş şairidir:

***Şiruyə, yurdunu düşmən oxlasa,***
***Bir ocaq yerini girov saxlasa.***
***Bir yağı tapdasa, yad ayaqlasa,***
***Torpaq qan ağlayar, daş ağrı çəkər.***

Mənim fikrimcə, əsl poeziya nümunəsi odur ki, o şeirdə nəinki hər misranın, hətta hər sözün də pətəyi poetik fikirlə elə dolsun ki, adamı duyğulandırmağı, ehtizaza gətirməyi bacarsın. O şeiri ki, oxuyanda səni məhvərindən oyatmadı, mənəvi dünyanı silkələmədi, səni çalxandırmadı, nəyə lazımdır ki?! Şeir gərək ovqatda dəyişiklik yaratsın. Şiruyə şeiri belə şeirdir.

Onun eşq aləmi də özünəməxsusdur. Bu aləmdə vüsal da var, hicran da, sevinc də var, iztirab da. Nə varsa, hamısı şair üçün əzizdir – vüsalı da, hicranı da, sevinci də, kədəri də.

***Əlacsız dəhşətdir ölüm deyilən,***
***Sevib-sevilməmək ölümdən betər.***

yaxud:

***A dağlar maralı, ellər gözəli,***
***Gəl görüşək, sorağına gəlmişəm.***
***Sən kərəmli ağa, mən günahkar qul,***
***Kərəm umub, ayağına gəlmişəm.***

yaxud:

***Azdıq yollarını biz səadətin,***
***Dözək əzabına indi firqətin.***
***Qönçə ikən solan bu məhəbbətin***
***Xəzan sorağına nə tez gəlmisən?***

yaxud:

***Şiruyəyəm, qəm başımdan çəkilməz,***
***Məhəbbətim yad istəyə bükülməz.***
***Özgə baxış, özgə əlnən tikilməz,***
***Könül evim sökülüdü, sökülü.***

Sərraf Şiruyənin şeirlərində Aşıq Ələsgər şeirinin hikməti, dadı-tamı var, Aşıq Alı şeirinin göynəmi var, Dədə Şəmşirin nəfəsi var və bunlar o demək deyildir ki, təqlid var, eynilik var. O deməkdir ki, duyğuların eyniliyi var, gözəlliyə məftunluq eynidir, Vətənə məhəbbət eynidir, nəhayət, dərdə, məlala, hicrana dözüm eynidir. Dostu Yelmara ünvanladığı şeirdə:

***Hər tərəfdən dərd yeriyib üstümə,***
***Köməyə gəl, bir bərəm ol, bəndim ol.***
***Taleyimdən gələn qismət acıdı,***
***Bircə dəfə şəkərim ol, qəndim ol.***

***Nə rütbəm var, nə vəzifəm, – adsızam,***
***Ona görə ağızlarda dadsızam.***
***Kimsəsizəm, yuvasızam, yurdsuzam,***
***Sən obam ol, ocağım ol, kəndim ol –***

– deyərək, dostluğun təmənnasız dünyasında hansı tələblərin şərtləndiyinin sətiraltı mənasından başqa, həm də dar gündə, dar məqamda dostların nə qədər arzulandığını və gərəkli olduğunu oxuculara çatdırır.

"Həyatın qiymətini biz ölümə borcluyuq" Bəxtiyar Vahabzadə fəlsəfəsi Şiruyə qələmində ayrı məcraya düşür:

***Sevinci qəm, dərmanı dərd,***
***Şirini acı sevdirər.***
***Dostu düşmən, mərdi namərd,***
***Qardaşı bacı sevdirər.***

***Hikmət deyək təzadlara,***
***Al günəşə, yağan qara.***
***Baharı qış, ağı qara,***
***Gündüzü gecə sevdirər.***

Şiruyə Qurani-Kərimin "Nəfsini qoru" tapşırığını, babaların "İnsanın tamahı qılıncdan itidir" və yaxud "Artıq tamah daş yarar, daş qayıdar baş yarar" hikmətini dərk etməyənlərə necə də acı-acı gülür:

***Şöhrət xatirinə, var xatirinə,***
***Bir-birini didənlər var, ay Allah!***
***Beyni mədəsinə yedəkçi olan,***
***Neçə-neçə bədənlər var, ay Allah!***

Xalqın içindən çıxıb onun xaininə çevrilən, yurdu, eli, obanı taxt-taca, tamaha qurban kəsən və ona görə də bu milləti ağlar günə qoyan, Vətəni namərd, nankor ermənilərin tapdağına təhvil verən vicdansız və şərəfsizlərə qarşı Şiruyənin içindən nifrət püskürür.

***Biz gül əkib, gül becərib, gül umduq,***
***Niyə alaq, ot göyərib bu yurdda?***
***Nə tilsimdi, nə cadudu görəsən,***
***Su quruyub, ot göyərib bu yurdda?***

***Mat qalmışam, yoxdu canda hənirti,***
***Heç göyərmir umduğumuz göyərti.***
***İnsan verməliydi axı cücərti,***
***Cin, fərişdə-zad göyərib bu yurdda.***

***Bu dünyanın sirri varmış nə yaman,***
***Qorxmaq gərək bu sehirdən, ay aman!***
***Bu torpaq müsəlman, toxum müsəlman,***
***Bəs niyə bədzad göyərib bu yurdda?***

Şiruyənin mərhum qardaşları Nəbi və İmanın xatirəsinə həsr etdiyi “Qardaşlarım” və “Qalmasın” şeir – ağılarını oxumaq kifayət edir ki, onun içində mürgüləyən həssas və kövrək duyğuları, göz yaşına bələnmiş dərdini-sərini duyasan və hiss edəsən ki, Sərraf Şiruyənin kədəri nə deməkdir.

Zənnimcə, şairləri şair edən səbəblərdən biri də təbiətin və məhəbbətin gözəlliyidir. Şiruyə ömrünün indiki çağında da təbiətdən və məhəbbətdən elə hərisliklə, çılğınlıqla yazır ki, görməyənlər deyər: “Bu şairin bığ yeri təzəcə tərləyir”. (Şiruyə elə beləcə də var).

Abbas Tufarqanlıdan, Aşıq Alıdan, Aşıq Ələsgərdən, Zodlu Abdulladan, Növrəs İmandan sonra yaranmış cinas qəhətliyində yeni söz tapıb, təcnis yazmaq, həqiqətən zor işdir. Amma, Şiruyə üçün bu, elə bil ki, sığallı qoşmalar yazmaq qədər asan bir məsələdir. Onda da qala dodaq-dəyməz cığalı təcnis ola.

***Talanan şəhərin, dağılan kəndin,***
***Qalsa, nişangahtək hasarı qalar.***
***Sərraf, hasarı qalar,***
***Dərddən ha sarı qalar.***
***Dağın qartalı getsə,***
***Yerdə ha sarı qalar.***
***Dindirsən yar deyin Yaxşılar ağlar,***
***İstəkdən yadında ha Sarı qalar.***

Şiruyənin təcnisləri və cinas bayatıları tamamilə ayrıca bir elmi işin mövzusudur.

Yazarlar yaxşı bilirlər ki, əruz sirli-sehirli bir aləmdir. Əruzun bəndi-bərəsi elə müdhiş sıldırımlıdır ki, yazmaq istəyəni vahiməyə salır. Şiruyə isə...

***Gözəlim, istərəm ki, can ilə canan qovuşa,***
***Bu həsrət könlüm ilə istədiyi can qovuşa.***

***O qədər vəslin üçün ahu-nalə eyləmişəm,***
***Qorxuram kipriklərim arasında qan qovuşa.***

***Bizim vüsal gecəmiz həsrəti-hicranı yıxa,***
***Qovuşa bir-birinə, qovuşa, hər yan qovuşa.***

***Necə şair-şüəra vəsf eyləyə bu gecəni,***
***Şiruyə bu aləmə ürəkdən, candan qovuşa.***

Sərraf Şiruyənin yaradıcılığı o qədər çox cəhətli və çoxşaxəlidir ki, həqiqətən adam bilmir harda başlayıb, harda qurtarsın. Bəlkə də, hiss elədiniz, mən ha çalışdım ki, fikrimi yığcam şəkildə sizə çatdırım, amma, etiraf edirəm ki, bunu bacarmadım. Çünki, Sərraf Şiruyənin söz qasırğasını “ipə-sapa yatırmaq” mümkün deyil. Bir şeirindən danışmaq istəyirsən, o biri inciyir, o birindən söz açmaq istəyirsən, bu biri qalır. Heç birindən də keçmək olmur. Maşallah, dostum o qədər məhsuldar işləyib, o qədər gözəl yazıb ki, adam doymaq bilmir. Buna görə də mənim yazım qısa yox, yarımçıq alındı. Güman edirəm ki, bu günahımı Şiruyə müəllim bağışlayar.

Şiruyənin iri həcmli əsərləri, ələlxüsus, poemaları tamamilə geniş bir diskusiyanın obyektidir. Həmçinin qəzəllərinin, divanilərinin, təcnislərinin, gəraylılarının, bayatılarının hər biri ayrı-ayrılıqda sirli-sehirli dünyadır. Ümumiyyətlə, qardaşım hansı mövzudan yapışır-yapışsın, onu çox asanlıqla şirin bir şeirə çevirir. (Yazıqlar olsun bəzilərinin halına ki, bir şeir yazana qədər kipriyilə od götürür!).

Oğul istəyir ki, Şiruyənin şeir dünyasını bir yerə cəmləyib yazı yazsın! Bu, mənim işim deyil. Burada iki-üç söz demək, dəryadan iki-üç damcı su götürmək kimi bir şeydir.

Sərraf Şiruyənin son dövrlərdə yazdığı poemalarının mövzusu əsasən ən ağrılı yaramızdan – Qarabağ Müharibəsindən söz açır. Bu irihəcmli əsərlərdə məkirli, xəyanətkar niyyətlərinə çatmaq üçün öz ana-bacılarının namusundan (bu ifadəmə görə sizdən dönə-dönə üzr istəyirəm) vasitə kimi istifadə edən ermənilərin Azərbaycan xalqının başına zaman-zaman gətirdikləri müsibətlərin, məşəqqətlərin poetik bir dillə, tarixi faktlarla ifadəsi, torpağımız uğrunda ölüm-dirim savaşına qalxan, şəhid olan ərən igidlərimizin sücaətləri, qəhrəmanlıqları öz əksini yetərincə tapmışdır.

Bu əsərləri oxumağa başlayan andan sona qədər şair sanki millətin yaxasından tutub silkələyir, ermənini erməni kimi tanımadığı üçün onu qınayır və daldığı qəflət yuxusundan oyatmaq istəyir, hamını əsil vətəndaş, əsil yurddaş olmağa səsləyir.

Onun “Vətən sənə oğul dedi”, “Od oğlu od içində”, “Cəsurlar”, “Ölümdən sonrakı ömür”, “Ölümdən betər”, “75 yara” və ya “Dəmir Yelmar” kimi irihəcmli poemaları məhz bu qəbildəndir. Sərraf Şiruyənin bu əsərlərinin hər biri erməni separatizminin, erməni vəhşiliyinin Azərbaycan xalqının taleyində yaratdığı göynəmli ağrıların, qanlı izlərin və iyrənc məkrin real faktlarla ifadəsi, həmçinin Vətən, Torpaq uğrunda döyüşən, canlarını qurban verən oğul və qızlarımızın qəhrəmanlıq dastanıdır.

Şiruyənin “Loğman dağı”, “Ana torpaq” və “Göyçə yaman göynədi” poemaları onun nə qədər geniş poetik imkanlara malik olduğunu təsdiqləyən əsərlərdəndir.

Şiruyənin dastanlar müəllifi kimi qazandığı şöhrət şeirlərinin ona gətirdiyi ad-sandan az deyil. Onun “Aşıq Nəcəf və Gülüstan” dastanı Dədə Ələsgərin şəyirdi Göyçənin Daşkənd kəndindən olan çox istedadlı saz-söz ustası Aşıq Nəcəfin sonu faciə ilə bitən həyatının qəmli hekayətidir. Qəddar və qansız ermənilər tərəfindən Aşıq Nəcəfin üç igid oğlunu gözləri qabağında çala qazıb diri-diri basdırmaları, özünün isə kürəyinə qaynar samovarı bağlayıb öldürmələri bu pak məhəbbət dastanının gözüyaşlı səhifələridir.

Yazıqlar olsun ki, möhtəşəm bir söz zirvəsi olan Aşıq Nəcəfin ibrətamiz həyat və yaradıcılığı Azərbaycanda barmaqla sayılası qədər az-az adama bəllidir.

Şiruyə belə nadir şəxsiyyətləri üzə çıxaran, onların həyat yollarını öz qələmiylə örnəyə çevirməyi bacaran sənətkarlarımızdandır.

Onun "Göyçəli Hacı Rəhim" dastanı sanki tarixi bir qəhrəmanlıq səlnaməsidir. Müəllif bu əsərdə Hacı Rəhimin necə qorxmaz, cəsarətli bir igid olmasının təsvirilə yanaşı, Həcc ziyarətinə getməsindən, tədbirli, sanballı, sözü ötkəm, ümumiyyətlə, ləngərli "köhnə kişi"lərdən olmasından çox maraqlı və şirin bir dillə danışır, o dövrün adlı-sanlı, qoçaq kişiləriylə bizi tanış edir. Dastanda ən maraqlı məqamlardan biri Hacı Rəhimin erməni generalı Selikovun başını xəncərlə necə kəsdiyini təsvir edən səhnədir (Həmin xəncəri əziz bir xatirə kimi şair Sərraf Şiruyə bu günə qədər saxlayır).

Biz gərək özümüzə bağışlamayaq ki, belə xalq qəhrəmanlarımızı hələ də millətimizə yaxşı tanıda bilməmişik, onların adlarını əbədiləşdirmək üçün heç nə etməmişik! Heyiflər olsun!

Ümumiyyətlə, təbi coşğun Sərraf Şiruyənin uzun illər boyu bədii düşüncələrinin məhsulu olan "Ağlama, bülbül, ağlama" (1994), "Ölümdən sonrakı ömür" (1997), "Cəsurlar" (2000), "İgid ölər, adı qalar" (2002) və başqa kitabları çağdaş poeziyamızın sanballı nümunələrindəndir.

Yaratdığı belə gözəl əsərlərinə və bənzərsiz şeirlərinə görə Sərraf Şiruyə Azərbaycan Yazıçılar Birliyinə və Azərbaycan Jurnalistlər Birliyinə üzv qəbul olunmuş, "Qızıl Qələm", "Məmməd Araz", "Həsən bəy Zərdabi" mükafatları laureatı diplomlarına layiq görülmüşdür.

Əlbəttə, yaradıcı adamların əməyinin dövlət tərəfindən qiymətləndirilməsi, onlara fəxri adların verilməsi çox yaxşı haldır. 65 yaşını haqlamış Sərraf Şiruyənin də yüksək dövlət qayğısına mənəvi ehtiyacı var. Amma xalqın öz nəzərində "Xalq şairi" olmaq da heç pis deyil.

**Tofiq Yusif**

***"Kredo" qəzeti, 2006-cı il***



***Bürüsə də gülü alaq,***
***Qoxusuyla səs salacaq.***

## GÖRÜM

Aqilsənsə nadanların,
Tənəsindən yanma görüm.
Sərrafsansa gördüyünü,
Duyma görüm, qanma görüm.

Məna duyma hər baxışdan,
Hər kəlmədən, hər alqışdan.
Xəyanətkar dost-tanışdan,
Etibarı danma görüm.

Söyülməyi xoşlamasan,
Döyülməyi xoşlamasan,
Əyilməyi xoşlamasan,
Şiruyətək sınma görüm.

## GƏTİRƏR

Xoş əməlnən dolan eldə,
Xoş əməl alqış gətirər.
Yaman olub lənətlənmə,
Yamanlıq qarğış gətirər.

Kərəmli ol, bəxtin yarsa,
Tale sənə vəfadarsa.
Xarabalıq harda varsa,
Xəbəri bayquş gətirər.

Yağışdan yer ballananda,
Çəmən, çiçək allananda.
Göy qurşağı sallananda,
Yüz cürə naxış gətirər.

Ay Şiruyə, olsan harda,
Gur bir ocaq yandır orda.
Dərd dediyin baharda da,
Ömrə vaxtsız qış gətirər.

## BİLMƏZ

Mənim könül fəlsəfəmi,
Hər kimsənə qana bilməz.
Heç kimsənə mənim kimi,
Vətən, eli ana bilməz.

Harayçıyam haqq səsinə,
"Allah, Əkbər" kəlməsinə.
Yazılmışam sinəsinə,
Tarix məni dana bilməz.

Haqq nur verib diləyimə,
Çatıb hər an gərəyimə.
Şiruyəyəm, ürəyimə,
Allahsızlar qona bilməz.

## DEYİL

Ağıldadı, kamaldadı,
Ağsaqqallıq yaşda deyil.
Amaldadı, əməldədi,
Saflıq, paklıq başda deyil.

Dünyamızı dinlər sökür,
Könlümüzü kinlər sökür,
Ömrümüzü günlər sökür,
Günah düşən daşda deyil.

Şiruyə, nə məzəndədi?
Haqqı yerdən üzən nədi?
Günah sürmə çəkəndədi,
Sürmələnən qaşda deyil.

## QOÇAQLIQDI

Vətən üçün zindanlarda,
Çürümək də qoçaqlıqdı.
Bircə addım ucalığa,
Yerimək də qoçaqlıqdı.

Mərd igid dayaqdır elə,
Namərdləri alma dilə.
Vüsal üçün gilə-gilə,
Ərimək də qoçaqlıqdı.

İsin comərd ocağında,
Yatma yadlar qucağında.
Qanmazların qabağında,
Kirimək də qoçaqlıqdı.

Qaçma yalan söz dalınca,
İnsanlığın gəz dalınca,
Əyriləri düz dalınca,
Sürümək də qoçaqlıqdı.

Ay Şiruyə, qıy canına,
Xilaf çıxma peymanına.
Hər əməli öz donuna,
Bürümək də qoçaqlıqdı.

## DEMƏLİDİ

Zəhər verən zəhərini,
Axır bir gün yeməlidi.
Qaldıran da, endirən də,
İnsanın öz əməlidi.

Arxa, dayaq yüz də olsa,
Arada min söz də olsa,
Gec də olsa, tez də olsa,
Haqq sözünü deməlidi.

Ay Şiruyə, məkirli hal,
Dağıdıbdı çox cah-calal
Düz əməlnən, düzgün amal,
Həqiqətin təməlidi.

***1969-cu il.***

## DOĞRU

Sönür ömür şamı, tükənir taqət,
Günlər bizi çəkir yoxluğa doğru,
Səvab da, günah da bizimlə gedir,
Həmişə azlıqdan çoxluğa doğru.

İgidlər seçilir sədaqətiylə,
Gözəllər sevilir ləyaqətiylə,
Böyüklük odur ki, öz qüdrətiylə,
Apara milləti toxluğa doğru.

Şiruyə, insansan, deyilsən bağa,
Təhlükə görəndə girmə çanağa.
Hünər meydanında yeri qabağa,
Qaçmaynan geriyə, sıxlığa doğru.

## BU DÜNYA

Bəzən sevinc verər, bəzən qəm verər,
Qaldırar, endirər, yıxar bu dünya.
Bəzən balasıtək sevər boyunu,
Bəzən məngənədə sıxar bu dünya.

Bəzən bir dost kimi könlünü alar,
Bəzən ilan olub gözündən çalar.
Gah ata mindirib, gah atdan salar,
Kənardan yağıtək baxar bu dünya.

Qəsdə girsə tutar səni dilindən,
Açar döyüş kəmərini belindən.
Qılınc-qalxanını alıb əlindən,
Qaytarıb başına çaxar bu dünya.

Şiruyə, urvalıq deyilmiş unu,
Bilinməz əvvəli, görünməz sonu.
İstəsə ağ edib qırmızı donu,
Boyuna kəfəntək taxar bu dünya.

## İNSAN

Hamıdan, hər şeydən qoruna bilər,
Özünü-özündən qoruyan insan,
Düşər el gözündən, ölər ölməmiş,
Bədliyi ortaya soruyan insan.

Yaraşıq gəlibdir insan cahana,
Aqil deyək öz-özünü qanana,
Düşməz xəcalətə, düşməz ziyana,
Yaxşını, yamanı arayan insan.

İnsanlar üçündür şöhrət də, ad da,
Şiruyə, nə varsa bu kainatda,
Ölməzlik qazanar, qalar həyatda,
Vətənə, xalqına yarayan insan.

## GÖRMÜŞƏM

Arvad kölgəsinə güvənənlərin,
Elə özünü də arvad görmüşəm.
Ev yıxıb, qan tökən zülmkarların,
Aqibət gününü bərbad görmüşəm.

Şadlığın görmədim yoldan azanın,
Qanun əleyhinə hököm yazanın.
Özgəyə tor qurub, quyu qazanın,
Dilində ah-aman, fəryad görmüşəm.

Ay Sərraf Şiruyə, bəsdir töhmətin,
Keçməz nadanlara gül nəsihətin.
Məcnunu sayılan pak məhəbbətin,
Neçə aşiqləri xoryad görmüşəm.

## ZÜLÜMDÜ

Təsəllili dərdə nə var,
Təsəllisiz dərd zülümdü.
Mərdi mərd yıxa nə var ki,
Toxuna namərd zülümdü.

Keçə yağı əllərinə,
Qədəm basa çöllərinə.
Talan sala ellərinə,
Ağlar qala yurd zülümdü.

Köhlən belində çul ola,
Hakim nadan, güc pul ola,
Qanmaz insana qul ola,
Vallahi, comərd zülümdü.

Qanan susa zillətiylə,
Qanmaz gülə hiddətiylə.
Ana bala həsrətiylə –
Qopara fəryad, zülümdü.

Qanmayıb gülməyə nə var,
Göz yaşı silməyə nə var,
Şərəfli ölməyə nə var,
Şiruyə, pis ad, zülümdü.

***2011-ci il.***

## BİLMƏYİB

Mənəm, mənəm deyib baş aparanlar,
Axıradək baş apara bilməyib.
Xəzinə toplayıb, ləl axtaranlar,
O dünyaya daş apara bilməyib.

Dünya oyuncaqdı naşı gözündə,
Olur ağılsızın başı gözündə,
Şahların quruyub yaşı gözündə,
Gözlərində yaş apara bilməyib.

Ay Şiruyə, xanimanlar yıxanlar,
Ürəklər sındırıb, könül yaxanlar,
Torbasına altun, sərvət yığanlar,
Torbasını boş apara bilməyib.

## VAR

Bu dünya, bu həyat belə qurulub,
Sevinc də var, şadlıq da var, dərd də var,
Hamıya bəd gözlə baxmaq günahdı,
Namərd də var, nadan da var, mərd də var.

Səhər, axşam, gündüz, gecə, ağ, qara,
Təzad, hikmət, fikri çəkir gör hara?
Nəzər salsaq məhəbbətə, ilqara,
Dönəndə var, dönməz də var, sərt də var.

Gəlimlidi, gedimlidi bu dünya,
Ümidlidi, inamlıdı bu dünya,
Vallah minbir oyunludu bu dünya,
Gəl, Şiruyə, şahmat da var, nərd də var.

## GÜLMÜŞƏM

İş başında mənəm-mənəm deyənə,
İşdən düşüb, yıxılanda gülmüşəm.
Hünər oxu hədəfindən yayınıb,
Sağa, sola çaxılanda gülmüşəm.

Gülməmişəm qaralığa, ağlığa,
Xəstəliyə, kasıblığa, darlığa.
Niyə gülüm həqiqətə, varlığa?
Töhmət üzə yaxılanda gülmüşəm.

Kim nə deyir halal zəhmət, bol vara,
Xoş zamandı, hamı geysin zərxara.
Dünənin əməli çıxıb aşkara,
Bu gün başa qaxılanda gülmüşəm.

Gör necədi Şiruyənin kamalı,
Şöhrətidi, saf vicdanı, amalı.
Haramlığın, əyriliyin medalı,
Qəfil döşə taxılanda gülmüşəm.

## OĞLUYUQ

Oddan, közdən törənmişik,
Söngüməyən od oğluyuq.
Tarixlərə həkk olunan,
Min şöhrətli ad oğluyuq.

Bir torpaqdan ələnmişik,
Bir nənnidə bələnmişik.
Tək Adəmdən törənmişik,
Kim deyir ki, yad oğluyuq?

Ay Şiruyə, gəzmə gendən,
Kömək umsa kimsə səndən.
Əlacsıza əzəl gündən,
Əl tutan imdad oğluyuq.

## OLUNCA MƏN

Demirəm yanmışam xalqın oduna,
Od alıb, alışıb kül olunca mən.
Özümü vətənə oğul saymaram,
Ellərin dilində el olunca mən.

Eşqin yollarında olmasa cəfam,
Sınanmaz ilqarım, bilinməz vəfam.
Deməram büllurum, deməram safam,
Zərgər körüyündə ləl olunca mən.

Şiruyə, şeirin ustadaları var:
Nizami, Fizuli verməz ixtiyar.
Nə şair deməram, nə də sənətkar,
Sənətdə Rüstəmi Zal olunca mən.

## BİLMƏZ

Vətəni öz qanı, canı bilməyən,
Vətənin yükünü daşıya bilməz.
Vətən istəyəni kəsərli xəncər,
Mərdin ürəyindən qaşıya bilməz.

Nə gözəl söyləyib görün dədələr:
"Şah olsa gədədi, yenə gədələr".
Sərvətə əyilməz əsilzadələr,
Yaltaq əyilməsə yaşaya bilməz.

Bir insan ağıldan, kamaldan kəmsə,
Qusacaq, dünyanı nə qədər əmsə.
Dostluq duyğusuyla yaşayan kimsə,
Dostun əzabından korşuya bilməz.

Şiruyə, hikmətdi dünyanın işi,
Fələyə batmayıb bir kəsin dişi.
Bedasıl arvada calaşan kişi,
Özü boşanmasa, boşuya bilməz.

## BU DÜNYA

Hər gələn insana bir qonaq evi,
Bir beşikdi, bir nənnidi bu dünya.
Çap atını sağa, sola o ki var,
Çox uzundu, çox ennidi bu dünya.

Çoxlarına qismət etdi qızıl tac,
Rüstəmzalı yerə vurdu, aldı bac,
Çulu cırıq, başı açıq, qarnı ac,
Baxın görün nə günnüdü bu dünya.

İlki, sonu, nəhayəti bilinmir,
Məhəbbəti, sədaqəti bilinmir,
Fikri, sirri, nə hikməti bilinmir,
Açılmayan düyünlüdü bu dünya.

## ALIR

Deyirlər adamdan Allah alanda,
Əvvəlcə ağlını, huşunu alır.
Sonra da bədənin şahı sayılan,
Ağıl, kamal dolu başını alır.

Şöləli şamını qəfil söndürür,
Acı söylətdirir, acı dindirir.
Şahların başına qapaz endirir,
Şahlıq üzüyünün qaşını alır.

Şiruyə, qəm salır yanaqlarına,
Şeytan sözü verir dodaqlarına.
Kar edir, səs qıymır qulaqlarına,
Gözdən gözlərinin yaşını alır.

## NƏ VAR Kİ

Vay o günə namərd ola düşmənin,
Mərd düşmənlə çəkişməyə nə var ki?!
Qanmazdan dad-aman, qanan insanla,
Didişməyə, bərkişməyə nə var ki?!

Dosta pay çıx gözlərinin yaşından,
Pay çıxmaynan torpağından, daşından.
Vay halına qılınc enə başından,
Ox-kamandan ötüşməyə nə var ki?!

Düz ilqarın bağlanması çətindi,
Dost-qohumun yoxlanması çətindi,
Ömür-günün ağlanması çətindi,
Xoşhallıqla gülüşməyə nə var ki?!

Şiruyəyəm, zikrim, fikrim var gündə,
Göz yaşlarım axır, olur car, gündə,
Dostluq odur öpüşəsən dar gündə,
Gen ayaqda öpüşməyə nə var ki?!

## XEYRİ NƏ

Ağlayırsan, ağla məni sağ ikən,
Ölən vaxtı ağlamağın xeyri nə?
Bacarırsan könül düzəlt, könül yap,
Ürək yıxıb, dağlamağın xeyri nə?

Çox çətindi tökülənin dolmağı,
Qabaqdadı açılanın solmağı.
Müşküldürsə gedən şeyin qalmağı,
Yalvarışla saxlamağın xeyri nə?

Ay Şiruyə, halal süfrə, dad qazan,
Vəfalı dost, vəfalı yar, yad qazan.
Cavan vaxtı hünər göstər, ad qazan,
Qoca vaxtı çağlamağın xeyri nə?

# YAZMIRAM

***Niyə Allahdan, arvaddan yazmırsan deyənlərə***

Mənim mövzum hünər, zəhmət, vətəndir,
Nə arvaddan, nə Allahdan yazmıram.
İnciyən incisin, küsən də küssün,
Bilmədiyim gavı-mahdan yazmıram.

Allah yaradıcı, qadın müqəddəs,
Həcvə salım, lağa qoyum necə bəs?
Şeirdi həyatdan eşitdiyim səs,
Ələhəmdən, Bismillahdan yazmıram.

Həqiqətdi Qurandakı yazılar,
Tərsə yozur bic mollalar, qazılar.
Şəriətə lağ etməsin tazılar,
Baş əyirəm, Yədullahdan yazmıram.

Könlümə el, obam, həm anam gözəl,
Əhdi saf, eşqi saf o, sonam gözəl,
Vətənim laləzar, zamanam gözəl,
Amandan yazmıram, ahdan yazmıram.

Düz havadır Şiruyənin çaldığı,
Təmiz addı bu həyatdan aldığı.
Hərdən-hərdən arvad evdə saldığı,
Nə davadan, nə günahdan yazmıram.

## TOXUNAR

Toxunma hər yetən kimsəyə, dostum,
Sənə el toxunar, mahal toxunar.
Aqilin, arifin yerinə dinmə,
Susdurar, xətrinə ahal toxunar.

Şirin bir süfrəyə acılıq salma,
Yersiz sual verib cavab da alma.
Mənəmlik eyləmə, təkəbbür olma,
Əl atar yaxana, cahal, toxunar.

Şiruyə, sabahın düş sorağına,
Bəzək vur vətənin xoş novrağına.
Zaval arzulama özgə bağına,
Sənin də bağına zaval toxunar.

## İNSAN

Cəfakeşdi əzəlindən,
Hər zülümə dözür insan.
Dəmli-qəmli bu dünyada,
Bir qonaqdı, gəzir insan.

Ad-san üçün, dövlət üçün,
Altun üçün, sərvət üçün,
Şərəf üçün, şöhrət üçün,
Bir-birini əzir insan.

Bəzən qəza doğru gəlir,
Sevincinə oğru gəlir,
Başa, cana ağrı gəlir,
Öz ömründən bezir insan.

Ay Şiruyə, susdun niyə?
Tamaşa et yerə, göyə.
“Dünya mənim” deyə-deyə,
Dünyadan əl üzür insan.

## DEYƏRƏM

Məhəbbətlə keçən ömür, günümə,
Sevgi üzüyünün qaşı deyərəm,
Sevdasız ötüşən ömür, günümə,
Həsrət gözlərimin yaşı deyərəm.

Sevib sevgisinə uymayanlara,
Ömürdən nişanə qoymayanlara.
Könlümü anlayıb duymayanlara,
Əlbəttə, naşıdan naşı deyərəm.

Şiruyə, olmasın bağçalar gülsüz,
Boynunu bükməsin güllər bülbülsüz,
Bir ürək döyünsə vətənsiz, elsiz,
Mən ona çöllərin daşı deyərəm.

## VAR

Gərək düşünəsən dərindən dərin,
Zirvəyə qalxmağın enməsi də var.
Yanan bir məşəlin, odun, ocağın,
Axırda kül olub sönməsi də var.

Yüz fitnə feli var xal bildiyinin,
Dəyib ötməsi var kal bildiyinin,
O dilsiz, ağızsız lal bildiyinin,
Üzə qabarması, dinməsi də var.

Az şeydən başlayır işin əsası,
Söz-sözü gətirir, qisas qisası.
Sevincin kədəri, şadlığın yası,
Taleyin tərsinə dönməsi də var.

Axırı puçluqdu hər zərli taxtın,
Ömrünü şöhrətə nahaqdan yaxdın.
Tənəzzül qoynunda inləyən baxtın,
Tərəqqi atına minməsi də var.

Şiruyə, yarıdan keçibdi yaşın,
Bu qədər havalı gəzməsin başın.
Çox da bel bağlama, yarın, yoldaşın,
Əhdindən, eşqindən dönməsi də var.

## HİKMƏTDİ, HİKMƏT

Qanmaz ağlayarsa, fərqinə varma,
Qanan ağlayarsa, dəhşətdi, dəhşət.
Qanmazın gülməyi mənasız heçdi,
Qanan qəh-qəh çəksə hikmətdi, hikmət.

Çiydi çiy danışan, yaxına qoyma.
Aqilə, arifə yox özgə ayma.
Qanmaz baş əysə də hörmətdən sayma,
Qananın salamı hörmətdi, hörmət.

Şiruyə, haqsızı çağır düz yola,
Bəlkə sözlərindən nəsihət ala.
Qanmazın susmağı inanma ola,
Qananın susmağı ismətdi, ismət.

## ATALAR

Cahil mal, ağıllı kamal,
Axtarar – deyib atalar.
Əyilməyən güc, qüvvəti,
Söz ilə əyib atalar.

Kim olsa elin gərəyi,
Ona veriblər ürəyi.
Süfrələrdən duz-çörəyi,
Düz kəsib, yeyib atalar.

Düz yolundan çıxanları,
Haqqa qılınc çaxanları.
Dosta xain baxanları,
Daşlayıb, söyüb atalar.

Dərd tapsa da ətək-ətək,
Olmayıblar yada yedək.
Haqq donunu Şiruyətək,
Aşkara geyib atalar.

## VAR

Gəlhagələ sevinməyək,
Gəlhagəlin gedişi var.
Bu həyatın qovhaqovu,
Çaparı var, ötüşü var.

Dünya meydan, dünya səhnə,
Dünya təzə, dünya köhnə.
Gəl dünyaya gərmə sinə,
Onun sirli atışı var.

Hər axşamın bir səhəri,
Hər müşkülün bir təhəri.
Hər gövhərin öz dəyəri,
Şiruyə, öz satışı var.

# İMİŞ

Bu gün bir sualdı, sabah bir sual,
Dünya bir imtahan səhnəsi imiş.
Neçə dost deyənlər darda yox oldu,
Vəfadar dostların köhnəsi imiş.

Çarəsi tapılar beli əyrinin,
Tapılmaz çarəsi dili əyrinin,
Təknəsi boş qalıb əli əyrinin,
Bərəkət halallar təknəsi imiş.

Eşitmirik amanları, ahları,
Yad etmirik gedənləri, yoxları.
Varlıqdan darlığa düşdü çoxları,
Dünya qəza-qədər nehrəsi imiş.

Qəlbi korlar düz deyənə kor deyir,
Acgözlərə dövran horhahor deyir,
Can deyənə zaman bəzən “çor” deyir,
Bax, bu da zamanın töhvəsi imiş.

Şiruyə, bir yanda qəm qatbaqatdı,
Bir yanda toy-düyün, qurğu-büsatdı.
Mən gülü oxşadım, gözümə batdı,
O da qaratikan pöhrəsi imiş.

## PƏRVANƏSİDİR

Bu uca zirvələr, bu gen dərələr,
Ana təbiətin xəzinəsidir.
Bu ayna bulaqlar, gur şəlalələr,
İncisi, gövhəri, dürdanəsidir.

Qayalar harayçı, qayalar yaraq,
Zirvələr keşikçi, zirvələr bayraq.
Zərrəsin öpdüyüm bu ana torpaq,
Babamız Qorqudun nişanəsidir.

Xallı lalə boyun əyib üzbəri,
Eşqə düşmüş ya Gülgəzdi, ya Pəri.
Çaylar bu dağların gümüş kəməri,
Duman bu dağların pərvanəsidir.

***15 iyul 1976-cı il, Göyçə, Daşkənd kəndi.***

## KƏSİ

Dəryaların suyu söndürə bilməz,
Məhəbbət yanğısı yandıran kəsi.
Günəşin istisi əridə bilməz,
Nadanlıq şaxtası donduran kəsi.

Bir insanın qəlbi, könlü paxılsa,
Şöhrət tapmaz inan, dağa sıxılsa.
Yıxa bilməz şahənşahlar yığılsa,
Taleyi köhlənə mindirən kəsi.

Vicdan ləkəsini göz yaşı silməz,
Vətənçün yaradan yaşayar, ölməz.
Aqillər də elə qandıra bilməz,
Həyatın sınağı qandıran kəsi.

Kəmhünər ad ala mahalda çətin,
Arsızı bu dünya qocalda çətin,
Şiruyə, el-oba ucalda çətin,
Taleyin hökmü endirən kəsi.

## BU DÜNYA

Düşündükcə düşünürsən, dərd bəladı bu dünya.
Zəhər dolu brilyantdan piyalədi bu dünya.
Gah ağladar, gah güldürər, çəkər səni səmtinə,
Ətəyindən əl üzülməz, bir baladı bu dünya.

Ağla – dedi ağlayacan, gülmə – dedi gülməzsən,
Cəfa çəkib, can çürütsən ürəyini bilməzsən.
Cəhd eləmə yazıq canım, yox, bir rəngdə görməzsən,
Ağ, qırmızı, narıncı, göy; çox aladı bu dünya.

Gah qaldırar, gah endirər, toxuyar daşdan-daşa,
Yaratmağı, yaşatmağı bir sirdi başdan-başa.
Bəzən çulu cırıq olur, bəzən girir qumaşa,
Hər kim desə ağ yalandı, kəmaladı bu dünya.

Ay Şiruyə, arifləri çağır baxsın hesaba,
Kəlmələrin həqiqətsə, köçürsünlər kitaba.
Qələminə arxalanma, səni salar girdaba,
Görərsən ki, dərddə, qəmdə çavaladı bu dünya.

## XALIDIR, XALI

Çiçəklər baharın ayaq izləri,
Lalə göy çəmənin xalıdır, xalı.
Dolanıb dağlara çıxan cığırlar,
Qartallı zirvənin yoludur, yolu.

Sərin meh çöllərin təmiz nəfəsi,
Yarpaq pıçıltısı, meşənin səsi.
Duman dərələrin həya pərdəsi
Qayalar dağların oğludur, oğlu.

Göylər bir gözəlin surəti, üzü,
Günəş al səmanın sönməyən közü.
Bulaq təbiətin nəğməli sözü,
Çaylar dənizlərin qoludur, qolu.

Büllur damla sübh payımı çiçəyin?
Öpdü üz-gözündən qızıl ləçəyin.
Coşdu Şiruyənin dedi ürəyi:
Vətən gözəlliklə doludur, dolu.

***1980-ci il, Göyçə, Daşkənd kəndi.***

# ÇIXMALIYDI

Torpaq altda qalan qızıl,
Bir gün üzə çıxmalıydı.
Gec də olsa mis üzünə,
Paxırını yaxmalıydı.

Bürüsə də gülü alaq,
Qoxusuyla səs salacaq.
Göz verib göllənən bulaq,
Axar tapıb axmalıydı.

Qanda cürət varsa əgər,
Tanınacaq ər oğlu, ər!
Qınında gizlənən hünər,
Öz qınını sıxmalıydı.

Şöhrət tapmaz kin-küdurət,
Qazancı nəhlətdi, nəhlət,
Şiruyəyəm, haqq-ədalət,
Haqsızlığı yıxmalıydı.

## İNDİ

Payız erkən gəlib, dağlar dirəkdi,
Duman nənni asıb dərədən indi.
Qayada təklənmiş kəkliklərə bax,
Xoruz ayrı düşüb fərədən indi.

Gecələr uzanıb, gün gödəlibdir,
Göyün yanaqları pərdələnibdir.
Sərçələr evlərə qonaq gəlibdir,
Gərəkdir səpəsən yerə dən indi.

Xamalar çalxanıb yağa dönübdü,
Yarpaqlar saralıb ağa dönübdü.
Dağ kəli dağlarda dağa dönübdü,
Zirvələr diksinir nərədən indi.

Köçür obaları göy yaylaqların,
Qartal, gözətçisi qalır dağların.
Qızıl tarlaların, barlı bağların,
Ayrı tələbi var hərədən indi.

Donur bulaqların gözünün yaşı,
Dönüb xatirəyə hər ocaq daşı.
İnsan təbiətin olub sirdaşı,
Bir canlı çəkinmir bərədən indi.



***Mat qalmışam, yoxdu canda hənirti,***
***Heç göyərmir umduğumuz göyərti.***

## NƏ BİRLİK

Hey deyirik əlbir olaq, bir olaq,
Qanımızda qeyrət yoxsa, nə birlik?
Vətənə məhəbbət, xalqa məhəbbət,
Düşmənlərə nifrət yoxsa, nə birlik?

Nəyə lazım alçaqların birliyi,
Təkcə sözdə qoçaqların birliyi,
Gərək deyil sarsaqların birliyi,
El-obaya hörmət yoxsa, nə birlik?

Çərçiləri ayırmayın işindən,
Tamahını çəkəmməzsiz dişindən.
Uzaq durun yaltaqların leşindən,
Ürəyində millət yoxsa, nə birlik?

Hamı bir-birinə hörmət etməsə,
Hamı bir məqsədə doğru getməsə.
Dar gündə, gen gündə dada yetməsə,
Qətiyyət, cəsarət yoxsa, nə birlik?

Harayla, Şiruyə, yatmışı oyat,
Elinə can söylə, elində boy at.
Düz amal, düz əməl, düz söz, düz həyat,
Ortada həqiqət yoxsa, nə birlik?

## NƏ VECİNƏ

Nə dərd çəkir, nə qəm çəkir,
Dəlilərin nə vecinə.
Havayı insan qanıdı,
Zəlilərin nə vecinə.

Aynabəndli otaq gəzmir,
Arvad gəzmir, uşaq gəzmir,
Paltar gəzmir, papaq gəzmir,
Ölülərin nə vecinə.

Şiruyəyəm kahal olan,
Varlığı da xəyal olan.
Hər nə desən xoşhal olan,
"Bəli"lərin nə vecinə.

***1965-ci il.***

## KİMİ

Yaltaqların artır sayı,
Qurbağanın sayı kimi,
Yalan basır yalan üstdən,
Biçinçinin layı kimi.

Boy dərmanı verib sözə,
Axşam, səhər çıxır üzə,
Az qalır ki, girə gözə,
Çərçilərin xayı kimi.[1]

---

[1] Yəni çərçilərin xırdavat malı kimi.

Bugünkünü sabah danır,
Xam axtarır, özgə anır,
Nə qandırır, nə də qanır,
Ayı oğlu, ayı kimi.

Şiruyəyəm, qınayıram,
Barmaq silkib yanayıram.
Mən yaltağı tanıyıram:
Qurumsağın tayı kimi.

## UZAQDI Kİ, UZAQDI

Yaxşılığı, yamanlığı duymayan,
İraq üzdən, ulaqdı ki, ulaqdı.
Öz yerini, öz sözünü bilməyən,
Vallah, uzunqulaqdı ki, qulaqdı.

Yaxşı yaxşı, pis də pisdi, – bəs necə?
Aydın günə tay olarmı bəs gecə?
Susuzluqdan yananlara gölməçə,
Billur gözlü bulaqdı ki, bulaqdı.

Pirkamaldı insanlıqdan doymayan,
Ad ucaldıb bəd şöhrətə uymayan.
Şiruyəni anlamayan, duymayan,
İnsanlıqdan uzaqdı ki, uzaqdı.

## AXMAQLIQ OLAR

Mənəm deyənləri öz cızığına,
Qaytarıb qoymasan axmaqlıq olar.
Süfrəyə, çörəyə xor baxanları,
Soğantək soymasan axmaqlıq olar.

Tənə sözü nadan salmaz ürəyə,
Ya atar peysərə, ya da kürəyə.
Vaxtsız quduranı çatıb dirəyə,
Nehrətək yaymasan axmaqlıq olar.

Deməyin Şiruyə nə qoçaq çıxıb,
Neyləyim, nəqabil yersiz hayıxıb.
Boksdan döşəyib, qabağa yıxıb,
Üstündə saymasan axmaqlıq olar.

## DEYƏK

Daha bəylər bəy həddini keçibdi,
Gərəkdir onlara padişah deyək.
Ağaların qulluğuna gedəndə,
Titrəyə-titrəyə bismillah deyək.

Bəylər saldı badalağa milləti,
Döndərdilər yapalağa milləti,
Öyrətdilər şapalağa milləti,
Çapan çalıb, indi şahənşah deyək.

Əsir düşüb, alınsa da qalalar,
Milyon olub bəylər tikən villalar.
Gəlin, ey dilənçi, yazıq balalar,
Haqqa ərzə yazaq, ol agah deyək.

Kütbeyin müdirlər öz nəfindədi,
Haqq da haqsızlığın tərəfindədi.
Bizim əlacımız haqq öyündədi,
Sən yetiş köməyə – Ya Allah deyək!

***1993-cü il.***

## BALA

Bu dünya əzəldən qəm dünyasıdı,
Doldur qəlyanını tüstülə, bala.
Haqsızlıq odundan var cəsədinə.
İstilik gəlirsə istilə, bala.

Həqiqət, ədalət, kişilik, qürur,
Elə hesab etmə yerində durur.
Gördün ki, bir qapaz başına vurur.
Əl at fitnə-felə, qəsd elə, bala.

Harda olsan acı dili uzaq tut,
Yaltaqlıqdan, fırıldaqdan soraq tut,
Şiruyəyəm, arxa axtar, dayaq tut,
Tala bu dünyanı dost ilə, bala.

***1974-cü il.***

## BU YURDDA

Biz gül əkib, gül becərib, gül umduq,
Niyə alaq, ot göyərib bu yurdda?
Nə tilsimdi, nə cadudu görəsən,
Su quruyub, od göyərib bu yurdda...

Hamı ümid, gümanını itirib,
Bir-birinə inamını itirib,
Kök, nəsil, soy öz tamını itirib,
Özgə oxşar, dad göyərib bu yurdda.

Mat qalmışam, yoxdu canda hənirti,
Heç göyərmir umduğumuz göyərti.
İnsan verməliydi axı cücərti,
Cin, fəriştə – zad göyərib bu yurdda...

Bu dünyanın sirri varmış nə yaman,
Qorxmaq gərək bu sehirdən, ay aman!
Bu torpaq müsəlman, toxum müsəlman,
Bəs niyə bəzzad göyərib bu yurdda?!

Şiruyə, dönübmüş fələyin çarxı,
Zir-zibil gətirib çayları, arxı.
Biz palıd toxumu əkmişdik axı,
Bəs niyə patpat göyərib bu yurdda?!

## VALLAH

Qoyursan qəbirə torpaq çökəlir,
Qozbeli qəbir də düzəltmir vallah.
Aqili, arifi qocaldır dünya,
Arsızı, qanmazı qocaltmır vallah.

Patpatı əyirsən yenə düzəlir,
Çəkdiyin zəhmətlər qəlbini dəlir.
Çoxları meydana yedəkdə gəlir,
Əməllər alçaldır, ucaltmır vallah.

Ay Şiruyə, qadağa ver sözünə,
İsmətsizlər çox kül atıb gözünə.
Hər nə desən qeyrətsizin üzünə,
Nə əsər eləmir, nə çatmır vallah.

## OLMUR

Yüz boya içində gəzir cavanlar,
Cinsinin növünü anlamaq olmur.
Saçlı oğlanları, şalvarlı qızı,
Yalvarıb-yaxarıb yanlamaq olmur.

İnsanlıq qalmayıb insan qanında,
Səslənmir muğamlar tar, kamanında.
İnam elə itib dostun yanında,
Molla bitiyini donlamaq olmur.

Söyləmək çətindi işin düzünü,
Bərəldir köpəklər sənə gözünü.
İnsan yüz cilidə salıb özünü,
Yaxşıdı, yamandı sınamaq olmur.

Sərraf Şiruyəyəm, kəsib bərələr,
Hər yandan qanını sorur birələr.
Bayatı oxuyur sənə fərələr,
Bir yol qanad çalıb, banlamaq olmur.

## YIXDI MƏNİ

Palıdıydım, qasırğalar yıxammadı,
Öz içimdən yeyən qurdlar yıxdı məni.
Şimşək çaxdı, daşqın gəldi yıxammadı,
Çınqıllardan gələn odlar yıxdı məni.

Yuxularda görüşürəm o çağlarla,
Doğulduğum, böyüdüyüm bucaqlarla.
Dolu süfrə, yanar odlu ocaqlarla,
Yağılara qalan yurdlar yıxdı məni.

Bu torpağa öz övladı zərbə vurdu,
Doğmaları bir-birinə tələ qurdu.
Düşmənimə özümünkü arxa durdu,
Güclənərək zalım yadlar yıxdı məni.

Xəyallardan gəlib keçir nələr, nələr...
Oğul deyin neçə ana qaldı mələr.
Şiruyəyəm, bu millətə biganələr...
Bu Vətənə bəd övladlar yıxdı məni.

## İTİRDİK

Zamanın təkanı bizə nə verdi?
Var-dövlət qazandıq, ülfət itirdik.
Göylərin qatına karvan göndərdik,
Yerdə neçə-neçə nemət itirdik.

Quru şüarlara əl-ayaq olduq,
Özgələr yoluna bir mayaq olduq,
Xətir-hörmət qoyduq, həm dayaq olduq,
Havayı tər tökdük, zəhmət itirdik.

Əslimizi, kökümüzü unutduq,
Parçalandıq, təkimizi unutduq,
Yolda qalan yükümüzü unutduq,
Güc-qüvvə itirdik, vəhdət itirdik.

Bağ əkdik, barını yeyə bilmədik,
Əyirdik, toxuduq geyə bilmədik,
Çəkindik, haqq sözü deyə bilmədik,
Yaltaqlıq öyrəndik, cürət itirdik.

Dünəni, sabahı yada salmadıq,
Səvabı, günahı yada salmadıq,
İmamı, Allahı yada salmadıq,
Şəriət, təriqət, mərifət itirdik.

Yetən üstümüzə kəsildi ağa,
Verdik başımızı özgə qoltuğa,
Uyduq yad adətə, döndük sırtığa,
Abır-həya, ismət, qeyrət itirdik.

## SALIBDI

Sürüdən qabağa gedən təkəni,
Zamanın hökümü dala salıbdı.
Ulağın belinə qoyub yəhəri,
Köhləni palana, çula salıbdı.

Fələk geydirsə də zər-ziba donu,
Axırı puçluqdu hər ömrün sonu.
Bu, qoca dünyadı – tanıyın onu,
Neçə Süleymanlar yola salıbdı.

Dünyadan bac alan İsgəndər hanı?
Boş qalıbdı Rüstəmzalın meydanı.
Sərraf Şiruyətək bu beynəvanı,
Tale çox qovğaya, qala salıbdı.

## HAYIF

Qanmazlar içində puç olub gedir,
Hayıf, qananların ömrünə, hayıf!
Ha baxırsan bir işıltı görünmür,
Haqqa uyanların ömrünə hayıf!

Ziynət ləyaqəti yox eyləyibdi,
Şöhrət sədaqəti yox eyləyibdi.
Sərvət məhəbbəti yox eyləyibdi,
Eşqə yananların ömrünə hayıf!

Hanı daş üstünə indi daş qoyan?
Çoxalıb baş kəsən, dərilər soyan.
Hər kəsi özütək düşünən, duyan,
Zərif sayanların ömrünə hayıf!

Qanunlar itirib öz kəsərini,
Tamahlar artırıb öz qədərini.
Çəkib bu dünyanın dərd-kədərini,
Qəmdən doyanların ömrünə hayıf!

## AY BALA

Zaman düzü boğazından asıbdı,
Yalvarıram, düz danışma, ay bala.
Yalan hakim, əyri vəzir, vəkildi,
Həqiqətdən söz danışma, ay bala.

Şər atını çoxdu minib səyridən,
Bəd dilindi, günah görmə qeyridən.
Bir saz götür, dastan söylə əyridən,
Dərin danış, üz danışma, ay bala.

Şiruyənin qəlbi qəmlə doludu,
Qılınc tutan şər-böhtanın qoludu.
Bu dünyanın yolu şeytan yoludu,
Özgə cığır, iz danışma, ay bala.

## NƏ YAMAN ARTIB

Nə yaman çoxalıb “Keçəl Həmzə”lər,
Xainlər, xəbislər nə yaman artıb?
Nə yaman bulanıb insan amalı,
Şeytanlar, iblislər nə yaman artıb?

Nə yaman unudub kökünü millət,
Oyuncaq yerinə qoyulub ismət.
Altuna satılır ünsiyyət, ülfət,
Nəlayiq nakəslər nə yaman artıb?

Tamah da, nəfis də pula bağlanıb,
Arzu da, həvəs də pula bağlanıb,
Qeyrət də, nəfəs də pula bağlanıb,
Bu iyrənc həvəslər nə yaman artıb?

Pul ata olubdu, qardaş olubdu,
Dərdimənd olubdu, sirdaş olubdu,
El-mahal olubdu, yoldaş olubdu,
Pulsuza qəfəslər nə yaman artıb?

Dinar yoxsa, qaysaxlamır yaralar,
Müşkül dərdə tapılmayır çaralar.
Nə yaman çoxalıb “hacıqara”lar,
Acgözlər, xəsislər nə yaman artıb?

Şiruyə, fanidən kim alıb kamı?
Hansı bir ömürün sönməyib şamı?
Dünyanı dörd əlli tutubdu hamı,
Həris bəhsə-bəhslər nə yaman artıb?

## DOSTU

Dar günümdü, üzün dönüb,
Gen günümün, a var dostu.
Dildə ilqar, iman deyib,
Qəlbdə altun, yatar dostu.

Dünənini bir yada sal,
Hünərini bir yada sal,
Dərin düşün, xəyala dal,
Ay bazarlıq, bazar dostu.

Dünən "bəli", bu gün "yox"san,
Dünən hiylə, bu gün oxsan.
Keçmişinə dönüb baxsan,
A könlümün qübar dostu.

Dəyişdirmə üzlərini,
Vədlərini, sözlərini.
Yana çəkmə gözlərini
A dərd dostu, azar dostu.

Şiruyənin düz çörəyi,
Halal süfrə, duz, çörəyi,
Bir yox, beş yox, yüz çörəyi,
Qənim olub tutar dostu.

## ÇALACAQ

Nə qədər ki, vəzifən var,
Hamı sənə əl çalacaq.
Yaltaq dostlar zümzümədə:
"Hərdən bizə gəl" çalacaq.

Kimi sevəcək səsini,
Kimi salacaq bəhsini.
Qəlbindəki nəfəsini,
Neçə fitnə-fel çalacaq.

İqbal səndən dönən kimi,
Bəxt ulduzun sönən kimi,
Vəzifədən enən kimi,
Hərə bir cür dil çalacaq.

Yaltaq dostlar keçəcək yan,
Qəzəblənib coşacaq qan,
Yaxşı, pisi çarxı zaman,
Neçə-neçə il çalacaq.

Şiruyətək duy dünyanı,
Mənəm deyən şahlar hanı?
Anan çalıb ilk laylanı,
Son laylanı el çalacaq.

## BİLİNMİR

Dünyanın işləri dolaşıq düşüb,
Aqili, arifi, gici bilinmir.
Zəmanə dəyişib, dövran dəyişib,
Yaxşısı, yamanı, bici bilinmir.

Baş açmaq çətindi hiylə, kələkdən,
İblislər bac alır, huri-mələkdən.
Söyüd silkələnir xırda küləkdən,
Palıdın, cökənin gücü bilinmir.

Ay Şiruyə, ağ qaraya qatılıb,
Qeyrət, ismət çöldən-çölə atılıb.
Günahsız yazığın qolu çatılıb,
Günahkar kimsənin suçu bilinmir.

## DÖNÜB İNDİ

Dönüb çarxı-zamana, iti tamahlar üçün,
Dünya yağlı quyruğa, plova dönüb indi.
Caynağı tutanların pulu dağlar oynadır,
Fəqir-füqəra üçün pul ova dönüb indi.

Dilənçilik, dilənmək bayaq quru söz idi,
Bu gün milyonu keçib, dünən əlli, yüz idi,
Kasıb üçün ehtiyac, kül altında köz idi,
Altdan-altdan qorlanıb, alova dönüb indi.

Necə də qatılaşıb bəy, xanların qanları,
Pul toplamaq üçündür, gündə yüz oyunları.
Bu məzlum kütlə üçün, “azadlıq qanunları”,
Ağızdan, dildən tutan tilova dönüb indi.

Dərd əlindən qovrulur, fəqirlər yata bilmir,
Gücünü, qüvvəsini bazarda sata bilmir,
Cəhd etsə də min dəfə, çıxarıb ata bilmir,
Aclıq ağzını cıran, cilova dönüb indi.

***1992-ci il.***

## NƏ QALIB

Bu dünyada qovrulmuşam, yanmışam,
O dünyada yanmağıma nə qalıb?
Sağımdan, solumdan kəsir kəsərlər
Bir dəfəlik sınmağıma nə qalıb?

Qoy şapalaq çalsın ulu zamana,
Yapalaq güc gəlir məhbus tərlana,
Mən ki, baş əyirəm yalan, böhdana,
Kimliyimi danmağıma nə qalıb?

Ay Şiruyə, bu dünyanın yolu pul,
Ürəyi pul, bədəni pul, qolu pul,
Davası pul, qovğası pul, qalı pul,
Həqiqəti qanmağıma nə qalıb?

## KORLADI

Göy titrəsə dağılmazdı bu dünya,
Hökmdarlar bu dünyanı korladı.
Tamahı qılıncdan iti olanlar,
Bu dövranı, bu zamanı korladı.

Haqsız əydi haqq deyənin qəddini,
Görməmiş gədələr aşdı həddini.
Seyid tamahına satdı cəddini,
Axund, molla din-imanı korladı.

Gördükcə yaşılbaş, qırmızı donlu,
Getdi qulluğuna xonçalı, xonlu.
Zinalıq eylədi ətəyi unlu,
Dəyirmançı dəyirmanı korladı.

Çoxu ac qurd kimi gəzdi dumanlıq,
Sevdi yarasatək zülmət-qaranlıq.
Əyyaşlar, dəyyuslar etdi haramlıq,
Namussuzlar təmiz qanı korladı.

Şiruyə pozmadı sədaqətini,
Söylədi hər yanda həqiqətini.
Satdı altunlara ləyaqətini,
Şux gözəllər gözəl canı korladı.

## ALLAH

Yaxın bildiyimin, dost bildiyimin,
Astarı üzündən seçilmir, Allah.
Etibar şərbəti, ilqar şərbəti,
Niyə mənasında içilmir, Allah?!

Cəhd edib açsaq da göy qapısını,
Birə min etmişik bəy qapısını,
Sədd var, qanunsuz da döy qapısını,
Sədd var, qanunla da keçilmir, Allah.

Haqdan, ədalətdən tutub kimisi,
Qasırğada, tufandadı gəmisi.
Sərraf Şiruyəyəm, böhtan zəmisi,
Düzlük orağıynan biçilmir, Allah.

## EYLƏYİB

Ah çəkib, yas tutub ağlamalıdı,
Qorxağı vəzifə qoçaq eyləyib.
Qatıb aralığı yaltaq gədələr,
Qardaşı qardaşa bıçaq eyləyib.

Ey bəxti yatanlar, dərd, qəmi atın,
Siz də təlxək olub murada çatın.
Düzlüyü əyriyə yıxdıran altun,
Hamını haqq işdən qaçaq eyləyib.

Yaratdı hər şeyi öz əllərimiz,
Pozdu təbiəti əməllərimiz.
Həyalı, ismətli gözəllərimiz,
Kəsib hörükləri saçaq eyləyib.

Bu deyil babalar qanıyla quran,
Ədalətli dövran, alqışlı dövran,
Zalımın hökmünə güc verən zaman,
Şiruyə çoxunu naçaq eyləyib.

## HA SULA-SULA

Ya bəzzat yetişər, ya da haramxor,
Axmaq kökü, zatı ha sula-sula.
Ya dalayar səni, ya zəhərləyər,
Pıtırğan, patpatı ha sula-sula.

Yanar şamı ha yaxın tut, kor görməz,
İki qəlbin arasına dost girməz.
Şoran torpaq bəhrə verməz, bar verməz.
Çoxalar duz qatı ha sula-sula.

Şiruyəni el yaxında görəmməz,[1]
Nadanlar mənalı ömür sürəmməz.
Nəsili xarabsa ayqır törəmməz,
Yemlə şilxor atı ha sula-sula.

---

[1] Bənövşənin bitdiyi yerdə ətri bilinməz mənasında.

## DÜŞÜBDÜ

Atam, anam girov düşsə nə var ki...
Haqqım, ədalətim girov düşübdü.
Qardaş, bacım girov düşsə nə var ki...
Qılınc cəsarətim girov düşübdü.

Koroğlu nərəsi deyiləmmiş mən,
Cavanşir nəvəsi deyiləmmiş mən,
Qorqudun nəfəsi deyiləmmiş mən,
Birliyim, vəhdətim girov düşübdü.

Hələ də seçilmir yaxşı-yamanım,
Düşüb tilisimlərə dövrüm, zamanım.
Bəlkə ona görə ümid, gümanım,
Qeyrətim, qüvvətim girov düşübdü.

Yəqin az deyirik bu xəyanətə,
Ona görə gəlməyirik cürətə.
Yenə can atırıq səmimiyyətə,
Düşmənə hiddətim girov düşübdü.

Xainlər torpağı satdı savaşa,
Ad aldı hər biri “ağa”, “bəy”, “paşa”.
Lal olub dillərim dönmüşəm daşa,
Qəzəbim, nifrətim girov düşübdü.

Şiruyəyəm, bir yoğrulmuş kündəyəm,
Açıla bilmirəm bəd düyündəyəm.
Bir-birindən betər gələn gündəyəm,
Tükənməz cürətim girov düşübdü.

## KEÇMİR

Hamı ağız dolu danışır – ancaq,
Meydan olan yerdə, söz işə keçmir.
Maya haramlaşıb, əməl bədləşib,
Əyri qabağında düz işə keçmir.

Bilinmir çoxunun astarı, önü,
Dönmür haqq tərəfə insanın yönü.
Elə qalınlaşıb nadanın gönü,
Sərt kəsər olmasa, biz işə keçmir.

Həyat yolu ağır yollar olubdu,
Susan dil, bağlanan qollar olubdu,
Alış-veriş indi dollar olubdu,
Sərçə bazarında yüz işə keçmir.

Hakim də, hökm də bic tərəfdədi,
Cibi dolu, əqli gic tərəfdədi,
Haqq da, ədalət də güc tərəfdədi,
Açıq-aşkar görmüş göz işə keçmir.

Heyif sizə, heyif, igid babalar,
Dağılıbdı saldığınız obalar.
“Hopustop”, “Marqo”du indi havalar,
Gitara çıxıbdır, saz işə keçmir.

## OLUBDU

Qəm, qüssə əlindən ürəyin yükü,
Gərgədan yükündən ağır olubdu.
O qədər barmağım haqdan yazıbdı,
Qatır beli kimi yağır olubdu.

Satıb altunlara öz qürurunu,
Atalar övlada qıymır nurunu.
Elə bil İsrafil çalıb surunu,
Dünya batıb, əzəl-axır olubdu.

Kiminin gəmisi dəryada batır,
Kimi hököm verir, qolları çatır.
Hər yetən dalımca bir kəsək atır,
Şiruyə nə yaman fağır olubdu.

## OLMUR

Fələk geydirdiyi qəm libasını,
Nə qədər cəhd etsən, çıxarmaq olmur.
Papaqlar, tumanlar yoxa çıxıbdı,
Oğlanı qızlardan ayırmaq olmur.

İllər tamamlanır gün verən sayla,
Yatırmır dünyanı çəkilən layla,
Yüz səxa sahibi verdiyi payla,
Bir acgöz qarnını doyurmaq olmur.

Şiruyə, qurumur gözlərdən nəmlik,
Yer alır yaltaqlıq, ağıldan kəmlik.
O qədər artıbdı mənəm-mənəmlik,
Uşağı buyruğa buyurmaq olmur.



*Çay var, kükrəsə də suyu içilməz,*
*Sısqa var, damlası baldan seçilməz.*

## OLAR

Yarama məlhəmi yarım eyləsin,
Özgənin əlləri sayasız olar.
Qaçağam əzəldən boyadan, rəngdən,
Həqiqi gözəllik boyasız olar.

Səs versin səsimə həyatı qanan,
Məqsədsiz, səbəbsiz olarmı yalan?
Tərbiyə almayan ya qız, ya oğlan,
İsbatsız təklifdir: həyasız olar.

Dost var ki, Şiruyə, qəlbi paslıdır,
Dostun şən günündə könlü yaslıdır.
Dar günün dostları ürək dostudur,
Gen gündə görünən vəfasız olar.

## OLAR

İgidin qorxağı, atın ürkəyi,
Döyüş meydanına yaramaz olar.
Yüz nəğmə oxuyar eşqə biganə,
Həqiqi aşiqdə bir avaz olar.

Şöhrətə, dövlətə əyilən vüqar,
Nə namus tanıyar, nə qeyrət, nə ar.
Kimə qismət olsa vəfalı bir yar,
Onun ömür-günü güllü yaz olar.

Haramxor alçağa qardaş olmasam,
Bedasıl adamla sirdaş olmasam,
Nadanla, qanmazla yoldaş olmasam,
Yüz il də yaşasam yaram az olar.

Durma ətrafında bəd nəfəslərin,
Ayrıdı pərdəsi kobud səslərin.
Ay Sərraf Şiruyə, nadan kəslərin,
Əhdi, etibarı çox dayaz olar.

## ÇƏKİLMİR

Dünya yaranandan haqqın karvanı,
Elə yoxuş qalxır, düzə çəkilmir.
Nahaqq meydan alır kor şeytan kimi,
Ocağa atılmır, közə çəkilmir.

Çay var, kükrəsə də suyu içilməz,
Sısqa var, damlası baldan seçilməz.
Elə günah var ki, ondan keçilməz,
Qan var, bağışlanır, üzə çəkilmir.

Gəl, dünya qəmindən, Şiruyə, əl çək,
Dünya başdan başa hikmətdi, gerçək.
Kömür də qaradı, ancaq sürmətək,
Nə qaşa, nə də ki gözə çəkilmir.

## AXTAR

İgidin başını qovxada, qalda,
Yaltağın başını qoltuqda axtar.
Töhmət şələsini, minnət yükünü,
Utanmazda axtar, sırtıqda axtar.

Doydurmaz acgözü dünyanın varı,
Puldadı xəsisin qeyrəti, arı.
Ləkəli sərvəti, altun-yatarı,
Tamahdan, nəfsdən artıqda axtar.

Elin hörmətini uzaqdan soruş,
Evin nizamını qonaqdan soruş.
Şiruyə, düz sözü uşaqdan soruş,
Yalanı ağızdan yırtıqda axtar.

## GETMƏ

Xəcalət olarsan, peşman gələrsən,
Əldə dinar yoxsa, bazara getmə.
Müşküllərin üçün Allaha sığın,
Fikir dərd, azardı, – azara getmə.

Əl aç ilahiyə yesirtək ağla,
Haqqa ibadət et, yeri qucaqla.
Ümid, gümanını Allaha bağla,
Ümidsiz bir özgə güzara getmə.

Yaxşı-yamanına cavab görəcən,
Hər xoş əməlinə savab görəcən,
Od-atəş içində əzab görəcən,
Halallıq almamış məzara getmə.

Şiruyə, fanidə olduğun çağı,
Düzlüyə öyrət ki, əli-ayağı.
Tanrı qabağına başı aşağı,
Utanıb, qızara-qızara getmə.

## GETSİN

Bəd qohumu, saxta dostu,
Bas kəsəyə, daşa getsin,
Qeyrətsizdən kənar dolan,
Pis arvadı boşa, getsin.

Zirvəsindən tanı dağı,
Dibdən köklə barsız bağı.
Cavanlığın qızıl çağı,
Qoyma vaxtsız qışa getsin.

Ay Şiruyə, bəsdir ünün,
Açılmamış yox düyünün.
Hər nədirsə ömrün-günün.
Xoş amalnan yaşa getsin.

## ƏYİLMƏZ

Şöhrət xatirinə, ay əzizlərim,
Namərdə, nakəsə insan əyilməz.
Zalıma güc verən dövran önündə,
Başım əyilsə də, vicdan əyilməz.

İnsan haqq yolunda döyülə bilər,
Amalı uğrunda söyülə bilər,
Naşı əllərində əyilə bilər,
Ustad əllərində kaman əyilməz.

Şiruyə, bu qədər bəd-güman olma,
Zalımdan mərhəmət, pay uman olma.
Düz sözə, düz işə peşiman olma,
İnsan əyilsə də, zaman əyilməz.

## OLMAZ

Nakəsdən adamlıq, nadandan xoş söz,
Xəsisdən səxavət gözləmək olmaz.
Nakişidən düzlük, namərddən vəfa,
Zalımdan mərhəmət gözləmək olmaz.

Xasiyyət dəyişməz yüz libas dəyiş
Səyin niyyətidir səy fikir, səy iş.
Nə nəsihət söylə, nə vur, nə döyüş,
Naməhrəmdən ismət gözləmək olmaz.

Mükafat qazanmaz hərcayı söhbət,
Nankor kimsələrə çəkməynən zəhmət.
Mərdlərin işidir dözüm, dəyanət,
Qorxaqdan cəsarət gözləmək olmaz.

Sübutdu sözümə bəlkə də mini,
Şahla dost olanın əksilməz ünü.
Şiruyə, zəhmətdə axtar xoş günü,
Zəhmətsiz səadət gözləmək olmaz.

## OLAR

Barmağa taxılar qızıl, gümüşlər,
Qiymətli ləl, gövhər gizlincdə olar.
Mis qalayxanada, yaqut, cəvahir,
Mücrüdə, sandıqda, sərnicdə olar.

Dərin çaylar sakit axar, lal gedər,
Nər dəvələr ağır-ağır yol gedər,
Paxılın qəlbində qeyli-qal gedər,
Pak ürək, pak könül sevincdə olar.

İçi boş nağara uca səsdədi,
Könüllər oxşayan kaman pəsdədi,
Süpürgə həmişə ayaq üstədi:
Ya qapı dalında, ya küncdə olar.

***1966-cı il.***

## OLAR

Gövhər dəyər tapmaz mis bazarında,
Zər naşı yanında qiymətsiz olar.
Adətdi – yarasa sevməz işığı,
Düz əyri önündə hörmətsiz olar.

Xəyalım keçmişi ələdi yenə,
Ağladı dəyərli hər ömrə, günə.
Mənliyi sərvətə satan kimsənə,
İsbatsız təklifdir – qeyrətsiz olar.

Şiruyə mətləbin dilər mərdanə,
Yerində ağlayar, gülər mərdanə,
Şairlər vuruşar, ölər mərdanə,
Qəlbi kinsiz olar, küdrətsiz olar.

## ƏLİNƏ

Gecəli, gündüzlü el zara gələr,
İxtiyar keçməsin yaman əlinə.
Həyat mübarizə, ömür gedərgi,
Ümidi verməyək güman əlinə.

Zili ahənginə mindirə bilməz,
Pəsi pərdəsinə endirə bilməz,
Telləri ustadtək dindirə bilməz,
Naşı götürməsin kaman əlinə.

Yetməsin kamına minbir kələklər,
Dünyanı qorxudan acı küləklər,
Onsuz da təsirə dözmür ürəklər,
Düşməsin qəm, kədər, aman əlinə.

Şiruyə, təbiət boyasız qalar,
Cahan qan ağlayar, övladsız qalar,
Dünyanın özü də dünyasız qalar,
Silahı verməyək zaman əlinə.

## KİMİ

***Qoşa yarpaq qoşma***

Əyildi qamətim, üzüldü canım,
Nainsaf dərdimi bilənə kimi.
Kəsildi hörmətim, töküldü qanım,
Bu fələk insafa gələnə kimi.

Düşdüm çovğunlara, borana, qara,
Qəlbim paça-para, ürəyim yara,
Deyin beilqara, düşmüşəm dara,
Göz yaşı axıtsın gülənə kimi.

Şiruyə xəstə hal, istəyi vüsal,
Gəzdirir yüz mahal, qanadlı xəyal,
Sən eşqə sadiq qal, xoş gəlsin iqbal,
Gözləyim yolunu ölənə kimi.

## NƏ VAR

Yaxşılıq eyləmək igid işidir,
Ortaya yamanlıq atmağa nə var.
Xeyirxahlıq min hörmətdi, min səvab,
Şeytantək aralar qatmağa nə var.

Eşit bir hikmət də söyləyim, lələ:
Tərəqqi vaxtında xor baxma elə.
Bacar dosta yara, yadı dost elə,
Dostu beş qəpiyə satmağa nə var.

Ey Sərraf Şiruyə, möhkəm qur himi,
Tərpətmə, qırılar inləyən simi,
Oxşa könülləri gül-çiçək kimi,
Tikantək ürəyə batmağa nə var.

## İNSANI

Ataların dür sözüdü:
Ağ gün ağardar insanı.
Qara gün çəkər qaraya,
Yəqin qaraldar insanı.

Zülmkardı çarxı fələk,
Yerdə insan, göydə mələk,
Ehtiyac bəd xəstəliktək,
Hər gün saraldar insanı.

Yaxşı insan könül yapar,
Şər deyəni şər də tapar,
Babalardan bir söz də var –
Zəhmət ucaldar insanı.

Ay Şiruyə, çəkmə aman,
Mətləb üstə yaxşı dayan,
Yağlı gəlir, şöhrətlə şan,
Bəzən qudurdar insanı.

## OLMAYA

Bu dünyanın gəlhagəli nə gözəl,
Aman Allah, gethagedi olmaya,
Yüz il ola cavanlığın dövranı,
İnsanın insana bədi olmaya.

Bağlana meydanı yamanın, nəsin,
Silinə qəlbindən kini nakəsin.
Vəfadan, ilqardan dəm vuran kəsin,
Yalan sözü, yalan vədi olmaya.

Bəşər əhli yaxşı duya zamanı,
Ay Şiruyə, itirməyə gümanı.
Sevənlər saxlaya ilqar, imanı,
Eşqin, məhəbbətin səddi olmaya.

## QURBAN

“Paxıldan dost olmaz, nadandan aqil”,
Deyən ataların goruna qurban.
Min evlər yıxıbdı haramxor gözəl,
Halalın karına, koruna qurban.

Əzəldən belədir həyatın üzü:
Əyri-əyri gəzər, düz tapar düzü.
Tülkü toyuq qoymaz, qurd qoyun-quzu,
Ovçu bərəsinə, toruna qurban.

Şiruyənin sözü mənada təkdi,
Biçdi yaxşı-yaman, hər kim nə əkdi.
Qanmaz heyvərənin canı kötəkdi,
Vuran kimsənənin zoruna qurban.

## ÇIXMASIN

Tərlan ov axtarır, Qızılquş şikar,
Xınalı kəkliklər daşa çıxmasın.
Zalım ovçu oxu qoyub kamana,
Marallar, ceyranlar qoşa çıxmasın.

Nə gözəl söyləyib gör müdrik ata:
“Yaraşıq, ziynətdi insan həyata”,
Aqili dərd tapar, igidi xəta,
Nəlayiq yol tapıb, başa çıxmasın.

Vurğun gözəl deyib – “Açılan solur,
Bir yandan boşalır, bir yandan dolur”.
Ümid qırılanda arzu puç olur,
Heç kimin ümidi boşa çıxmasın.

Dünyadan gedənlər qocalsın getsin,
Yaşasın, yaratsın, ucalsın getsin,
Bu ulu təbiət mərhəmət etsin,
Qananlar qanmazla qoşa çıxmasın.

Şiruyə, hikmətdi saxla yadında,
Vətən var, millət var şair adında.
Sən quru bildiyin adi odun da,
Ocağı söndürən yaşa çıxmasın.

## NƏ VAR Kİ

Ya baş daşa, ya daş başa toxunsa,
Yarılan baş olar, daşa nə var ki?
Ayaq gedən yerə, başda gedecək,
Günah ayaqdadı, başa nə var ki?

Əlin qopasıdı tutsan da hardan,
Ömür alammazsan sərvətdən, vardan.
İnsan zillət çəkir borandan, qardan,
Qış öz işindədi, qışa nə var ki?

Şiruyə, həyatda görmürsən məgər,
Əkdiyini biçər, hər kim nə əkər.
Dolu qab, boş qabla toqquşsa əgər,
Dolu töküləcək, boşa nə var ki?

## YENƏ

Qarğa yüz qıy vursun, yüz qırıldasın,
Tərlanın balası, tərlandı yenə.
Qocalan pələngə tülkü gülməsin,
Yerisə meydana aslandı yenə.

Çaqqal öyünməsin tələlər qurub,
Özü öz adını alnına vurub.
Mərd öz mərdliyində mərdanə durub,
Namərd yağlı aşa mehmandı yenə.

Uzaqdan bilinir bütün nəzərlər,
Sifətdən aydındır niyyətlər, sirlər.
Sərraf Şiruyəyəm, keçsə əsrlər,
Canım əhli-hala qurbandı yenə.

## GÖSTƏRƏR

Nadan, namərd, nanəcib ki deyirlər,
Kimliyini bircə anda göstərər.
Zatı qırıx, əsli haram, soyu yox,
Yüz ötsə də, bir nişanda göstərər.

Nəsihət deməklə götürməz qanmaz,
Arsızlar hər oda alışmaz, yanmaz.
Nəslin, kökün nişanası yayınmaz,
Nütvədən halalsa, qanda göstərər.

Zalımlar yadına salmaz Allahı,
Danəndə dağ bilər zərrə günahı.
Xəsisin, acgözün artıq tamahı,
Doqquzu ötsə də, onda göstərər.

Tale tənəzzülə salar kimini,
Tərəqqi qoynuna alar kimini,
Vaxt ki çatdı, zalım əcəl hökmünü,
Min şəkildə, min bir donda göstərər.

Hər mənzilə köhlən sürməz Şiruyə,
Yaxşı işi yaman görməz Şiruyə,
Alçaqlara ağız verməz Şiruyə,
Özünü, sözünü sonda göstərər.

## OLMAZ

Darda, gendə sınanmamış kimsəyə,
Etibar eyləyib sirr vermək olmaz.
Aqillər qınayar, ariflər gülər,
Misgər bazarına dürr vermək olmaz.

Dostam deyənləri sınamaq gərək,
İlqarsız kimsəni qınamaq gərək,
Keçəl həmzələri tanımaq gərək,
Ona Qırat nədir – Dür vermək olmaz.

Şiruyə, zamanın bu bəhsəbəhsi,
Azdırar yolundan şərəfsiz kəsi.
Niyyəti çirkini, qədəmi nəsi,
Çağırıb məclisə yer vermək olmaz.

## VAR

Dünya ağlı, qaralıdı,
Yaxşı da var, yaman da var.
Bir-birindən seçmək gərək,
Qanmaz da var, qanan da var.

Nanəcibdən kömək olmaz,
Qismət var ki, yemək olmaz,
Hamıya bəd demək olmaz,
Yanmaz da var, yanan da var.

İnsan var ki, qəlbi dağlı,
İnsan var ki, yolu bağlı.
Şiruyədən haqsız, haqlı,
Küsən də var, uman da var.

## OLA

Bu fələklə nərd atasan,
Şeş-beş verən zərin ola.
Ortalığa bəxt qoyasan,
Aparmağa sərin ola.

Söz yığasan demək üçün,
Dost tapasan kömək üçün,
Bu dünyanı yemək üçün,
Ağlın, huşun dərin ola.

Ürəyini bənd etməyə,
Ləblərini qənd etməyə,
Zülfünü kəmənd etməyə,
Mələk misal pərin ola.

Ay Şiruyə, al geyəsən,
Yaman gözə gəlməyəsən,
Bir deyənə beş deyəsən,
Arxada bir nərin ola.

## QORUYUN

Gözəlin qənimi gözdü,
Gözəli gözdən qoruyun.
Əzrayılı yaman sözdü,
Qananı sözdən qoruyun.

Qəmi qovun çöhrələrdən,
Gülü üzün pöhrələrdən,
Nalayiqi süfrələrdən,
Çörəkdən, duzdan qoruyun.

Nə dərindi el hikməti,
Kamalda gəz səadəti.
Alovlanan məhəbbəti
Ürəyi buzdan qoruyun.

Şiruyəyəm, binamızı,
Ulu Vətən – anamızı.
Çiçəklənən dünyamızı,
Alovdan, közdən qoruyun.

## VAR

Bu faniyə bel bağlayıb, deməərəm ki minim var,
Mərd kəslərin əsiriyəm, namərdlərə kinim var.
Bədəsilin əməlindən yaxa cırıb, dad çəkən,
Yerə, göyə lərzə salan fəryadım var, ünüm var.

“Əlif”, “bey”dən başlamışam, oxumuşam “Əmmə”ni,
Ustadlar elmim arasın, bilməsinlər kəm məni.
Xudam özü xəlq eləyib yoluna möhkəm məni,
Şəriəti anlamışam, imanım var, dinim var.

Şiruyəyəm, yaxşı-yaman adım dildə qalacaq,
Dost qohumlar hərdən-hərdən məni yada salacaq.
Gödək ömrüm əmanətdi, zalım fələk alacaq,
Gedərgiyəm bu fanidən, bir sayılı günüm var.

## ƏLDƏN GEDƏR

Bedasıla əmək çəkmə, zəhmətin əldən gedər.
Naməhrəmə ağız vermə, hörmətin əldən gedər.
Taleyinə nə yazılıb əzəl, axır görəcən,
Elə bilmə ağ yalandı, qismətin əldən gedər.

Odu pambıqda gizləmə, tüstüsü göz çıxarar,
Yalançının adətidi, özündən söz çıxarar.
Ehtiyac odsuz, alovsuz canından köz çıxarar,
Qəza gəlib tutsa səni, ziynətin əldən gedər.

Pis ağızdan pis söz çıxar, pis fikirdən pis əməl,
Dostla qabaq-qarşı gəlsən sor halını sən əzəl.
İnanma yağlı dillərə, arzun olar bir xəzəl,
Düzəlməsi müşkül olar, niyyətin əldən gedər.

Əsirgəmə, gərəkdirsə ver canını canana,
Əsli, soyu öz yerində, dərd anlayıb qanana.
Söyləmə gövhər sözünü nadan oğlu nadana,
İtirər öz qiymətini, hikmətin əldən gedər.

Ay Şiruyə, namərdlərin körpüsündən keçmə gəl,
Naməhrəmin əllərindən badə alıb içmə gəl,
Hiyləgərdən məsləhətçi, yaltaqdan dost seçmə gəl,
Həyasızdan həya saxla, ismətin əldən gedər.

## VERƏR

Mərd igidlər meydan açar, igidlikdən san verər,
Hatəm əhli süfrə salar halalından nan verər.
Ataların dür sözüdür, mən deyirəm, sən eşit:
Hiylə ilə mətləb uman, töhmət ilə can verər.

Toxuduğun xalı deyil, naxışda boya yoxsa,
Abır yoxdur, ismət yoxdur hər kimdə həya yoxsa,
Loğman olsan nəyə gərək, əlində saya yoxsa?
Toxunmaynan, yaralarım göz-göz olub qan verər.

El oğlunun şad gününə hamı baxıb şad olar,
Vəfalının, səxalının adı təmiz ad olar,
Çörək dostu dar günündə uzaqlaşıb yad olar,
Ürək dostu öz canını dostuna qurban verər.

Əksini qara göstərsə inciməynən güzgüdən,
Yamanlardan betər olar yamanlardan söz güdən.
Ay Şiruyə, dərin düşün, dilək umma özgədən,
Çarə versə müşgülünə ədalət-divan verər.

## ÇATAR

Nəfsini möhkəm saxlayan,
Yəqin təmiz ada çatar.
Səbirsizlər məğlub olar,
Səbirli murada çatar.

Seçməyən yaxın-yadını,
Ləkələyər öz adını.
Namərd kəsər imdadını,
Mərd igid imdada çatar.

Yaşayanlar hörmət ilə,
Əzizlənər izzət ilə,
Cəhd eyləyən zəhmət ilə,
Hər şeyə dünyada çatar.

Ay Şiruyə, de nəsihət,
İtməz eylik, itməz hörmət.
Hər bəd fikir, bəd xasiyyət,
Axırda fəryada çatar.

## YOXDU

Adam var, qeyrətdən, ardan kasaddı,
Ləyaqət çarxının bir pəri yoxdu.
Adam var, qanında qeyrət çağlayır,
Arxada köməyi, sipəri yoxdu.

Adam var, ağzından simu-zər tökür,
Adam var, ismətdən üzü tər tökür,
Adam var, ortaya böhtan, şər tökür,
Adam var, ağzının çəpəri yoxdu.

Şiruyə, düşməndi tamah, ləyaqət,
Təmiz ad, pak namus şöhrətdi, şöhrət.
Lənət o kişiyə – qeyrət, cəsarət,
Ürəyində zərrə təpəri yoxdu.

## GÖRMƏYİB

Yaylığa, papağa niyə and içək?
Bizim ki başımız papaq görməyib.
Axı yapalağa niyə quş deyək?
Onun ki ayağı budaq görməyib.

Yaxşı ki bazarda satılmır qeyrət,
Alıb, yox edərdi biqeyrət əlbət.
Xəsisdə axtarma səxa, səxavət,
Əzəldən süfrəsi qonaq görməyib.

Daşqın qopsa yatağında dayanar,
Günəşin nuruna dünya boyanar.
Şamın şöləsinə pərvanə yanar,
Yarasa ömründə çıraq görməyib.

Şiruyə, məğrurluq deyil hər duruş,
Cəsarət istəyir hər meydan, vuruş.
Zirvə tufanını qartaldan soruş,
Qarğalar dərədə sazaq görməyib.

## DOSTU OLAR

Gədələrin gədə dostu,
Bəyin də bəy dostu olar,
Namərdlərin namərd dostu,
Səyin də səy dostu olar.

Mənəm, mənəm deyənlərin,
Öz-özünü öyənlərin.
Qiybət, giley sevənlərin,
Qiybət, giley dostu olar.

Şiruyə, an keçmiş dostu,
Tərəqqidən düşmüş dostu,
Bişmişlərin bişmiş dostu,
Çiyin də çiy dostu olar.

## HAYIF OLDU

Şərəfsiz ölümə məndən xəbərsiz,
Axdı gözlərimdən yaş, hayıf oldu.
Zirvənin başından bir daş tərpəndi,
Dəydi bir namərdə daş, hayıf oldu.

Başı piy bağladı arsız bədənin,
Mənliyi şöhrətə satan gədənin.
Halal süfrəsindən aqil dədənin,
Verildi nankora aş, hayıf oldu.

Tamahın, nəfisin ağzı sulandı,
Maya haramlaşdı, amal bulandı.
Hörüklər kəsildi, gözlər boyandı,
Yolundu gündə bir qaş, hayıf oldu.

Fikri bilinmədi qara dinməzin,
Elin sevincinə üzügülməzin.
Çəkdi qayğısını qədirbilməzin –
Fikirlər əlində baş hayıf oldu.

Baxmadı aynada özü-özünə,
Nahaq kül üfürdü haqqın gözünə.
Quru ocağına, quru közünə,
Kəsilib atıldı, yaş hayıf oldu.

Şiruyə, de, danış, nə var əyyamda?
Mənəmlik baş alan bu dar əyyamda,
Haqsız zəmanədə, bekar əyyamda,
Ötüşdü ömür-gün, yaş hayıf oldu.

## OLACAQ

Yar yarına tay gəlməsə,
Ömrü, günü dərd olacaq.
Namərd çəkəcək namərdə,
Mərddən olan mərd olacaq.

Gədə minsə el atına,
Əl atar göyün qatına.
Gəl çox varma isbatına –
Qurddan olan, qurd olacaq.

Ay Şiruyə, mərdə söykən,
Yaxşı biçər, yaxşı əkən.
Balam deyib layla çəkən,
Sənə doğma yurd olacaq.

## SAXLA

Ağıllı kamil insan,
Dövləti dağda saxla.
Özünü at belində,
Yayda yaylaqda saxla.

Evində olsun yatar,
Belində olsun qatar.
Gözlə birdən pas atar,
Naqanı yağda saxla.

Tamahına vur kilid,
Bir ağlar yetim kirid.
Bir danış, iki eşit,
Sözü qulaqda saxla.

Şiruyə, sına yadı,
İtirmə təmiz adı.
Atı, iti, arvadı:
Buxovda, bağda saxla.

## GETDİ

İnsan gördüm, bu dünyaya,
Qoçaq gəldi, qoçaq getdi.
İnsan gördüm, dərd əlindən.
Naçaq gəldi, naçaq getdi.

İnsan gördüm, tutdu vardan,
Döndu dostdan, etibardan.
İnsan gördüm, qeyrət-ardan.
Qaçaq gəldi, qaçaq getdi.

İnsan gördüm, gərdi sinə,
Tufanlara dönə-dönə.
Şiruyətək düşməninə,
Bıçaq gəldi, bıçaq getdi.

## EYLƏR

Gədəni şah deyə qaldırsan başa,
Əl çəkməz fikrindən, gədəlik eylər.
Naməhrəm qadınlar məclisdən haşa,
Hər kişi görəndə ədalıq eylər.

Sehirli, sirlidi həyatın işi,
Qəzada çıxarır quymaq da dişi.
Atıb övladını ağılsız kişi,
Gedib özgələrə dədəlik eylər.

Ay Şiruyə, gileyini eylə bəs,
Şan-şöhrətə göstərməynən çox həvəs.
Mərd ata, anadan törənən hər kəs,
Mərd olar, həmişə sadəlik eylər.

## OĞUL

Beş günlük deyilən qoca dünyada,
Yamanlıq eyləyib söyülmə, oğul.
Şöhrət xatirinə namərd önündə,
Mərdlər əyilməyib, əyilmə, oğul.

Ağıldan, kamaldan tutmamış şələ,
Güc vermə çənəyə, güc vermə dilə.
Nə çox acı olma, atalar çölə,
Nə çox şirin olub, yeyilmə, oğul.

Bacar el işində dəyəsən gözə,
Hər kəsin sözünü deyəsən üzə.
Öz idrakın olsun, özünə bənzə,
Sahibsiz paltartək geyilmə, oğul.

Ömür-gün belədir, çox gileylənmə,
Haqqa nahaq demə, yalan söyləmə.
Eşit Şiruyəni, döyüş eyləmə,
Elə ki döyüşdün, döyülmə, oğul.

## GEDƏR

Elə xor baxmaynan nadan, nanəcib,
El atsa bir daşı, uzağa gedər.
Zülmət qaranlığı sevər yarasa,
Pərvanə şöləli çırağa gedər.

Qaldıran, endirən tanrı əlidir,
Ağladır, güldürür, bəzən ləlidir.
Bu el misalıdır, el məsəlidir:
"Uşaq sevildiyi qucağa gedər".

Xoşdur Şiruyəyə elin cəfası,
Elinə bağlıdır zövqü, səfası.
Düşsə də torpağa günəş ziyası,
Zimistan həmişə sazağa gedər.

## ETMƏDİMİ

Mənəmlik eyləyən neçə kəslərin,
Bu dünya yerini dar etmədimi?
Yıxıb köhlənindən nər igidləri,
Ömrünü-gününü zar etmədimi?

Niyə düşünmürsən, ay yazıq bəndə?
Hökm nə səndədi, nə də ki məndə.
Kəmənd atan özü düşdü kəməndə,
Qayıdıb özündən ar etmədimi?

Hansı adı deyim, hansı ünvanı?
Saymaqla hesaba gələrmi sanı?
Oldu altun, sərvət, şöhrət qurbanı,
Vaqifi Xuraman xar etmədimi?

İnsanı oynadıb baxır bu dünya,
Əl-ayaq atmamış yıxır bu dünya.
Fərhadı öldürüb, axır bu dünya
Şirini Xosrova yar etmədimi?

Güvənmə, a qardaş, dövlət, varına,
Dünya düz çıxmayıb etibarına.
Salıb Şiruyəni qəm, qübarına,
Vədəsiz saçını qar etmədimi?

## ÖLDÜRDÜ

Çoxu əməlinin qurbanı oldu,
Bir kimsə demədi, günah öldürdü,
Lənət də yağdırdı çoxları göyə,
Dedilər "yazığı Allah öldürdü".

Duyub düşünmədi adətkar, vallah,
Azdı düz yolunu hər axşam, sabah.
Tənbəl hey söylədi, – Allaha pənah,
Bax, o yazığı da pənah öldürdü.

Çoxu axtarmadı yaxşı-yamanı,
Mənəmlik eyləyib, verdi fərmanı.
Axırda nəfsinin oldu qurbanı
Şiruyə, onu da tamah öldürdü.

## QALARMIŞ

Dünya şöhrətiymiş oğul da, qız da,
İnsana tək bircə canı qalarmış.
Döyünən ürəyi, düşünən beyni,
Bir də mey-məzəli anı qalarmış.

Dövlət-var gözəldi, yeyə biləsən,
Hicranı, həsrəti əyə biləsən,
Məqsəddən uzaşdım, qardaş, deyəsən.
İgidin şöhrəti, şanı qalarmış.

Yola gəlin, bəd əməllər, utanın,
Adı nədi dostu, yarı satanın?
Mənim əzizlərim, bəxti yatanın
Nə ümidi, nə gümanı qalarmış.

Ay Şiruyə, qədrini bil Vətənin,
Ağıldı bəzəyi başın, bədənin.
Ömür-gün yolundan gəlib gedənin,
Bir yaxşısı, bir yamanı qalarmış.

## TƏRİFLƏR

Ataların bir sözü var, əzizim:
Ağıllılar öz atını tərifləər.
Öz-özünə bəzək vurar axmaqlar,
Yarımçıqlar arvadını təriflər.

Səxalılar insaf, mürvət gözləyər,
Təmiz ad, pak namus, hörmət gözləyər,
Qanan insan eldən qiymət gözləyər,
Qanmaz insan hər zadını təriflər.

Şiruyəni əgər dərin duyasız,
İnanmıram söhbətindən doyasız.
Nə utanar, nə çəkinər həyasız,
Adı batmış öz adını təriflər.

## SÖYLƏNƏRMİŞ

Gədə oğlu ucalanda,
Qürrələnib, söylənərmiş.
Qeyrət, namus, ar bilməyən
Günü-gündən piylənərmiş.

Utanarmı iki üzlü,
Var, dövlətə həris gözlü.
Atalardan qalan sözdü:
"Balıq başdan iylənər"miş.

Namərd atar ismətini,
Əskik bilər qismətini.
Kim itirsə hörmətini,
El döşündə teylənərmiş.

Nanəcibə çatsa bəylik,
Xəyalından getməz səylik.
Yaxşılıq, yamanlıq, eylik,
Neçə ki var, söylənərmiş.

Ay Şiruyə, bu dünyada,
Çalış yetiş təmiz ada.
Əylənməyən zər-zibada,
Dar məzarda əylənərmiş.

## QOY DƏYSİN

Könül, inciyirsən qanandan inci,
Qanmazlar xətrinə dəyir, qoy dəysin.
Özünə qiymət ver, sözünü saxla,
Hərcayı üzünə söyür, qoy söysün.

Həyatda yaşayır yaradan, quran,
Vətənin hüsnünə yaraşıq vuran.
Sən sadəlik eylə, sadə gəz, dolan,
Görməmiş özünü öyür, qoy öysün.

Demirəm, Şiruyə, nahaqla barış,
Pak amal, pak əməl yolunda çalış.
Sən həqiqət ara, düz de, düz danış,
Zəmanə başına döyür, qoy döysün.

## YOXDUR

İnsan var, dünyaya arxa, dayaqdı,
İnsan var, qəpiyə dəyəri yoxdur.
İnsan var, əhlidil, qanan, dərdimənd,
İnsan var, belinin yəhəri yoxdur.

İnsan var, nəfəsi tamam yalandı,
İnsan var, şeytandı, şərdi, böhtandı.
İnsan var, iblisdi, şahmar ilandı,
Kim deyir qarnında zəhəri yoxdur.

İnsan var, dünyada şəkildi ancaq,
Namusu oyuncaq, özü oyuncaq.
Tamahdan itidi, ismət, qanacaq,
Ləyaqət yığmağa təhəri yoxdur.

İnsan var, pul üçün dəli, divanə,
Bütün varlığını qoyub gümanə.
İnsan var, hər şeyə ögey, biganə,
Kədəri, qüssəsi, qəhəri yoxdur.

## GÖRMƏDİM

Mənəm deyənləri yüz yol sınadım,
Uymayan altuna, zərə görmədim.
Çoxları özünü atdı meydana,
Kürəyi dəyməyən yerə görmədim.

Kimi bəy olubdu, kimi də ağa,
Bülbül gülə həsrət, qartal da dağa.
Gəzdim bu dünyanı başdan-ayağa,
Tülküsüz, çaqqalsız dərə görmədim.

Şiruyə, hər şeyi gəl salma yada,
Çox istək vüsalsız gedibdi bada.
Hünərdən, ilqardan yüz dəm vursa da,
Xoruza yatmayan fərə görmədim.

## DOSTUNU

Bacar düşmənini dostuna çevir,
Düşmənə çevirmə, oğul, dostunu.
Bütün dostlarından gərəkdir sənə,
Buraxma əlindən ağıl dostunu.

İgidin igidlik tacı dəyişməz,
Yüz calaq vursan da acı dəyişməz,
Çölü dəyişsə də, içi dəyişməz,
Başından tez elə paxıl dostunu.

Demə Şiruyənin gümanı yalan,
Sərvətə uyanın imanı yalan,
Dost sayma ilqarı, peymanı yalan,
Əfsanə dostunu, nağıl dostunu.

## DƏYMƏZ

Vəfalı yar üçün can qurban eylə,
Vəfasız yolunda yanmağa dəyməz.
Nəlayiq qohumu, yalançı dostu,
Xəyala gətirib anmağa dəyməz.

Kimə gərəklidir istisiz ocaq,
Ocağı yaşadan odudur ancaq.
Mahal açmasa da, zaman açacaq:
Eldən günahını danmağa dəyməz.

Kimsəyə əl atıb yetməyən dada,
Yaşadı nə fayda, öldü nə fayda.
Heç kimə qalmayan qoca dünyada,
Şöhrət qabağında sınmağa dəyməz.

Şiruyə, ilqara gəlməyən kəsin,
Eliynən ağlayıb, gülməyən kəsin,
Özünü, sözünü bilməyən kəsin,
Könlünü, fikrini qanmağa dəyməz.

## UMMAQ ƏBƏSDİ

Özünü, sözünü duymayan kəsdən,
Qanacaq, mərifət ummaq əbəsdi.
Nəlayiqdən, naməhrəmdən, nakəsdən,
Abır, həya, ismət ummaq əbəsdi.

Qoltuqda ömür-gün sürən kişidən,
Hər yetənə tərif hörən kişidən,
Arvadı qabağa verən kişidən,
Hünər ummaq, qeyrət ummaq əbəsdi.

Ay Şiruyə, uzaq dolan yaltaqdan,
Qoltuqdadı, başı çıxmaz qoltuqdan.
Qulağı hər səsə verən sırtıqdan,
Təmiz salam, ülfət ummaq əbəsdi.

## DEMƏ

Təsib saxlamayan, qeyrət bilməyən,
Xeyirxah olmayan elə el demə.
Yumruğa dönməyən yeri gələndə,
Zəhmət tanımayan ələ əl demə.

Əssə də başından qasırğa, külək,
Nəqabil kimsədən ummaynan kömək,
El üçün yanmayan ürəyə ürək,
Haqq üçün ötməyən dilə dil demə.

Eli isitmirsə yanar bir ocaq,
Sabahın külü bil sən onu ancaq.
Aşıb neçə dərə, aşıb neçə dağ,
Haray qoparmayan selə sel demə.

Qanmaza nə desən hədərdi hədər,
Dünyanın dərdini qananlar çəkər,
Mənasız, gərəksiz ötürsə əgər,
O aya ay demə, ilə il demə.

Şiruyə, bu dünya həməndir, həmən,
Həminki deyilik nə mən, nə də sən.
Çeşməsiz, çiçəksiz çəmənə çəmən,
Ətirsiz, qoxusuz gülə gül demə.

***1967-ci il.***

## DEYİB

Möhtərəm babalar, ulu ərənlər:
"Kişi tüpürdüyün yalamaz" deyib.
Ömrün, günün sonluğunu düşünən,
Yamanlıq ocağı qalamaz deyib.

Hörmətlə dinməli dinəndə insan,
Ağır enməlidi enəndə insan,
Şahlıq köhləninə minəndə insan,
Əl açıb dörd yanı talamaz deyib.

Nəsihət deyilmi xeyir ilə şər,
Bəs niyə düşünmür, Şiruyə, bəşər?
Özünə boy verib hər ər oğlu, ər,
Özgəsinə meydan sulamaz deyib.

## ÖMÜR VAR Kİ

Ömür var ki, doğan günəş, yanar nur,
Ömür var ki, ölümdən də betərdi.
Bir ömür ki, oldu elə gərəksiz,
Ömür kimi sayılmağı hədərdi.

Ömür var ki, zəhmət dolu get-gəliş,
Həyat yolu gah yoxuşdu, gah eniş.
Ömür var ki, hər anı bir yüksəliş,
Ömür var ki, günü yüz il qədərdi.

Ömür var ki, Vətən üçün al bayraq,
Ömür var ki, nə xəbər tut, nə soraq.
Ömür var ki, millətinə şam, çıraq,
Ömür var ki, xalqa ləkə, xətərdi.

Ömür var ki, ölməmişdən gəl ağla,
Ləyaqətsiz ömürlərə gül, ağla.
Ömür var ki, hər anını alqışla,
Tarixlərə həkk olunan hünərdi.

Ömür var ki, ay Şiruyə, gülüncdü,
Ömür var ki, korşalmayan qılıncdı,
Ömür var ki, özü üçün sevincdi,
Ömür var ki, Vətən üçün kədərdi.

## QOYMAZ

Görməmiş varlansa, nadan ucalsa,
Dağıdar, bir daşı daş üstdə qoymaz.
Zalımın əlində olsa imkanı,
Kəsər, bir bədənin baş üstdə qoymaz.

Mərdlərin zərrəcə qalsa gümanı,
Yenə əldən verməz dini, imanı.
Arif olan seçər yaxşı, yamanı,
Qurunu gətirib yaş üstdə qoymaz.

Şiruyə sənətdə yüz yol sınanıb,
El oduna gah alışıb, gah yanıb.
Ağlı olan yaltaq sözə inanıb,
Əlini göz üstdə, qaş üstdə qoymaz.

## OLA-OLMAYA

Hər keçən gününü xoş keçir, könül,
Ya qismət, həmişə ola-olmaya!
Dosta bel bağlama, əcəl çatanda,
Bir anlıq gözləri dola-dolmaya.

Dünyanın şöhrəti nəyinə gərək,
Bir gün dayanacaq döyünən ürək.
İllərlə oduna yandığın mələk,
Əl atıb saçını yola-yolmaya!

Güvənmə dövlətə, güvənmə vara,
Ömür tükənəndə gəlməyir kara.
Çox da bel bağlama nazlı nigara,
Bir dəfə qadanı ala-almaya.

Gül-çiçək bəsləmə hicran bağında,
Qüssə görünməsin al yanağında.
Yüz dəfə "can" deyən yar dodağında,
Bir zavallı adın qala-qalmaya.

Şiruyə, gərdişdən çox gileylənmə,
Yaranmış belədir, hədyan söyləmə.
Hər fərsiz övlada ümid eyləmə,
Üstündə nişana sala-salmaya.

## OLAR

Atalar, babalar gözəl deyibdi:
Axmağın ağılı gözündə olar.
Qabil insanların, mərd insanların,
Qəlbinin hökmü sözündə olar.

Düz olmaz niyyəti qəlbi pislərin,
Keçmə tərəfinə bəd xəbislərin.
Hatəmlik, səxalıq, comərd kəslərin,
Halal çörəyində, duzunda olar.

Məna axtar Şiruyənin sözündə,
Ürəyinin əksi durur üzündə.
İstilik axtarma söyüd közündə,
İstilik palıdın közündə olar.

## HƏYATDAN

Kimi şərbət dadır, kimi bal əmir,
Kimi ağı, zəhər içir həyatdan.
Kimi dərdə düçar, qəmə giriftar,
Kimi də səadət "biçir" həyatdan.

Kimi bir əhlidil ürək axtarır,
Kimi səhərinə gərək axtarır,
Kimi axşamına çörək axtarır,
Kimi altun, sərvət seçir həyatdan.

İnsan şeytan olub, şeytan lənətdə,
Kimi ehtiyacda, kimi zillətdə.
Kiminin günləri keçir işrətdə,
Kimi baş götürüb qaçır həyatdan.

Zər ərlik eyləyir toyda, büsatda,
Min qulaq kəsilir bir çathaçatda.
Kiminin mənliyi palaztək altda,
Kimi mənlik üçün keçir həyatdan.

Kiminin yolunda qurulub tələ,
Kiminin belində ağır bir şələ.
Bir gün səs düşəcək mahala, elə,
Şiruyə yüklənib köçür həyatdan.

## GƏLƏR

Tənbəllik qadına ləkə gətirməz,
Qadının ləkəsi ismətdən gələr.
Kişiyə alçaqlıq, kişiyə töhmət,
Kəm qeyrətdən gələr, minnətdən gələr.

Acgözün həvəsi vardan, sərvətdən,
Paxılın nəfəsi kindən, küdrətdən,
Yaxşının sorağı hörmət, izzətdən,
Yamanın sorağı lənətdən gələr.

Şiruyə, susmasın hikmətli səsin,
Qanana örnəkdi eşqin, həvəsin.
İnsafı, mürvəti olan hər kəsin
Süfrəsi halalca zəhmətdən gələr.

## OLMAZ

Mərdə qurban olum vurar, qaldırar,
Zalımlıq eyləməz, amansız olmaz.
Yaxşı xatirinə pisə də qurban,
El-oba yaxşısız, yamansız olmaz.

Bağ öz bağlığını barda göstərər,
Əsl dost özünü darda göstərər,
Hünərdə, qeyrətdə, arda göstərər,
Mərd igid ilqarsız, peymansız olmaz.

Şöhrət duyulmayıb hər ucalıqda,
Aqillik axtarma hər qocalıqda,
Qəfəsdə bülbül də, torda balıq da,
Şiruyə, ümidsiz, gümansız olmaz.

## KORLADI

Babalar el saldı, elə baş əydi,
Gədələr xor baxdı, eli korladı.
Əyyar bazarında uduzdu naşı,
Saldı qiymətindən, ləli korladı.

Mükafat aldılar ara qatanlar,
Haqqa, ədalətə kəmənd atanlar.
Abırı, isməti ucuz tutanlar,
Kəsdi hörükləri, teli korladı.

Meydan aldı damğalanmış kərələr,
Xoruzlara yol göstərdi fərələr.
Yüz yerə ayırdı bəndələr, bərələr,
Daşqını korladı, seli korladı.

Vəzir, vəkil oldu qəbir qazanlar,
Zərxara büründü yuxu yozanlar.
Ünsiyyət pozanlar, ülfət pozanlar,
Salamı, kalamı, dili korladı.

Vəzifə hökmünə yaltaqlar yatdı,
Şərəfi, mənliyi, dinara satdı.
Şiruyə, hər yana qol budaq atdı,
Tikanlar, qanqallar gülü korladı.

## QORXMA

Xəlvəti fitnədən, böhtandan qorun,
Aşkara deyilən hədədən qorxma.
İnsan cildində şeytandan qorun,
Şeytan törətdiyi zədədən qorxma.

Nakəsin, yaltağın alqışından qorx,
Elin töhmətindən, qarğışından qorx,
Qeyrətli kəslərin baxışından qorx,
Qeyrət tanımayan gədədən qorxma.

Şiruyə, dediyin sözünü düşün,
Özünü dərk elə, özünü düşün,
Həyatda qalacaq izini düşün,
Tükənən ömürdən, vədədən qorxma.

## BİLMƏZ

Yüz yapalaq hayı, yüz qarğa qıyı,
Qartalı zirvədən qaldıra bilməz.
Yüz tülkü yığılsa ovlanmış ovu,
Pələngin əlindən saldıra bilməz.

Özünə bəy olar çaqqal dərədə,
Ulayar beyvədə, ötər beyvədə.
Qışqırtı, şapalaq, nə də ki hədə,
Bəbiri köpəyə yoldura bilməz.

Şiruyə, atalar deyib yüz kərə:
Xoruza sürtünür banlayan fərə.
Hər açılan meydan, çəkilən nərə,
Qələbə nəğməsi çaldıra bilməz.

## GÜLƏRLƏR

Gülmə, səndən qabaq yıxılan kəsə,
Sən də yıxılarsan, sənə gülərlər.
Tərsə düşər, heç açılmaz müşkülün,
Güzəştə getməzlər, yenə gülərlər.

Ömür ötüb keçər darlıq olsa da,
Ortalıqda nigaranlıq olsa da,
Ölüm hamı üçün varlıq olsa da,
Gülübsən, öldüyün günə gülərlər.

Zəhmətlə gül açıb görürsən hər yan,
Əlini zəhmətdən çəkmə heç zaman.
Şəvə saçlarına aman, əl aman,
Ehtiyac saldığı dənə gülərlər.

Başa qaxma eylədiyin hörməti,
Ucuz eyləyərsən özün qiyməti.
Əgər ki, yazmasam bu nəsihəti,
Duyub, düşünənlər mənə gülərlər.

Şiruyətək təmiz olsun amalın,
Sevsin, balam deyə elin, mahalın.
Olmasa ağılın, dərin kamalın,
Yığdığın milyona, minə gülərlər.

## GÜCLƏNƏR

Eldən aralansa təklənər, itər,
İgid arxalansa elə, güclənər.
Ümman parçalansa, ada deyərlər,
Sızqa qarışarsa selə, güclənər.

Təkliyin hünəri xəyaldı, qardaş,
El, mahal birliyi vüsaldı, qardaş,
"Tək əldən səs çıxmaz" – misaldı, qardaş,
Əl kömək durarsa, ələ, güclənər.

Şiruyə, qalmayıb dünya heç kəsə,
Yaradıb qurmağa insan tələsə.
Sözünü sözə qoş, səsini səsə,
Dil kömək durarsa dilə, güclənər.

## POZULMAZ

İlahi düzəltsə hər diləkləri,
Din itməz, arada iman pozulmaz.
Həmahəng döyünsə dost ürəkləri,
Çuğulun sözüylə peyman pozulmaz.

Söz-sənət yaranmaz, qüdrət olmasa,
Üz üzdən utanmaz, minnət olmasa,
Min qanlar tökdürən sərvət olmasa,
Ədalət tapdanmaz, divan pozulmaz.

Şahda mürvət olsa, ağada kərəm,
Ehtiyac ürəkdə bağlamaz vərəm.
Şiruyəyəm, el sözüdür deyirəm,:
Ağsaqqal düz olsa, cavan pozulmaz.

***10 iyun 1975-ci il.***

## YERDƏN

İgidlik eyləyən, igid sayılan,
Üzməz, ətəkləyib tutduğu yerdən,
Mərdin qaydasıdı: kəsməz basdığın,
Yapışıb qaldırar atdığı yerdən.

Nanəcib deyilən haraya gəlməz,
Namusu olmayan qeyrət, ar bilməz,
İnsanın qanmazı yola düzəlməz,
Uzunqulaq keçməz batdığı yerdən.

Eşit Şiruyəni, gör nə zamandı,
Pak əməl ən böyük haqdı, divandı!
İnsanın tənbəli boğaz heyvandı:
İstəməz ki, qalxsın yatdığı yerdən.

## QOYMASAN

Könül, – harda olsa töhmətlənərsən,
Tamahını daş altına qoymasan.
Nə qədər püfləsən, yanmaz ocağın,
Quru közü yaş altına qoymasan.

Ara-axtar keçmişləri yoxlayıb,
Babalar pak ada könül bağlayıb.
Namus itər, göz önündə saxlayıb,
Gecə-gündüz baş altına qoymasan.

Şiruyə, ləyaqət, ismət, qanacaq,
İnsana ən uca şöhrətdir ancaq.
Nə bilirsən kimə qismət olacaq,
Qazancını diş altında qoymasan.

## MİNNƏTDARIQ, MİNNƏTDAR

Dünya gözəlliyi insan üçündür,
Göyə, yerə minnətdarıq, minnətdar.
Bar verən torpağa, nurlu günəşə,
Neçə kərə minnətdarıq, minnətdar.

Biganə deyilik keçmişimizə,
Babalar igidlik öyrədib bizə.
İgidlər çalışıb ağ günümüzə,
Ərənlərə minnətdarıq, minnətdar.

Füzuli layiqdi hər haqqı-saya,
Nizami hikməti nurdu dünyaya.
Vurğun dühasına, Aşıq Alıya,
Ələsgərə minnətdarıq, minnətdar.

## YOX-YOX

Cahil bazarında, nadan önündə,
Zərə zər qiyməti verilər? Yox-yox!
Sınmış könüllərin uçan tağları,
Naşı əlləriylə hörülər? Yox-yox!

Əgər xata dəysə bir kəsə dostdan,
Ölüncə ürəyi çıxarmı yasdan?
Yetişməmiş meyvə, dəyməmiş bostan,
Zavala düşməsə dərilər? Yox-yox!

Ay Şiruyə, qəflətdəsən, bir oyan,
Sənət yollarında nə dur, nə dayan.
Cavanlıqda ucalmayan, artmayan,
Qoca yaşlarında irilər? Yox-yox!



***Qoşalaşıb həsrətimin düyünü,***
***Biri Qarabağdı, biri də Göyçə.***

## BİLƏYDİM

Beş ildə, on ildə hər nə yaşasam,
Həyata bir cığır sala biləydim.
Dəyərli işimlə, şirin sözümlə,
Ellərin qəlbində qala biləydim.

Demirəm yaşayım ya doxsan, ya yüz,
Gərəksiz min il də ləkədi, sözsüz.
Vətən ürəyimiz, Vətən özümüz,
Vənənçün bir zəfər çala biləydim.

Sərraf Şiruyəyəm, könlümün sazı,
İstəmirəm çala qəmli avazı.
Sərhədsiz görəcəm bir gün Arazı,
Yetişəcəm xoş vüsala, biləydim.

## MƏN GETMƏLİYƏM

***Bilsin ana torpaq, eşitsin Vətən,***
***Müsəlləh əsgərəm mən də bu gündən.***
**Səməd Vurğun**

Ey Vətən, müsəlləh əsgərinəm mən,
Hər ağır səfərə mən getməliyəm!
Məni böyütmüsən bir igid kimi,
Döyüşə, səngərə mən getməliyəm!

Sən mənə cəsarət, qeyrət vermisən,
Babək qollarından qüvvət vermisən,
Koroğlu qanından cürət vermisən,
Hünərə, zəfərə mən getməliyəm!

Düşmən həmləsini sındırmaq üçün,
Yağı yuvasını yandırmaq üçün,
Sənin bayrağını qaldırmaq üçün,
Hər səmtə, hər yerə mən getməliyəm!

Qoy qanım yolunda tökülsün yerə,
Qovuşum müqəddəs o şəhidlərə.
Ey Vətən, səninlə hər müjdələrə,
Hər aydın səhərə mən getməliyəm!

## VƏTƏNDİR

Ölərəm, geriyə çəkilmərəm mən,
Bircə daş, bir ovuc torpaq – Vətəndir!
Bu torpaqda bitən ən sadə kökün,
Göyərtdiyi yarpaq, budaq Vətəndir!

Ya qalib olmalı, ya şəhid gərək,
Ya azadlıq tapsın, ya sussun ürək!
Bu torpaq üstündən əsən hər külək,
Ya bürkü, ya da bir sazaq Vətəndir!

Sinəni səngərə möhkəm sıx, igid!
Vətən sərhəddinə sənsən bir kilid.
Hər nazik bir cığır, adi bir keçid,
Hər bələ, hər sızqa bulaq Vətəndir!

## GÖYÇƏ

Halallıq ver vidalaşaq,
Gözəl Göyçə, göyçək Göyçə.
Ay könlümün ilk sevgisi,
İlk dərdiyim çiçək Göyçə.

Səni dedim hər bir səsdə,
Çağlamırsan bu həvəsdə.
Qismət deyil, – son nəfəsdə,
Sularından içək, Göyçə.

Can təngiyir, susur dilim,
Danış, bir dərdini bilim.
Şiruyəyə – ustad, müəllim,
Ağsaqqal, ağbirçək Göyçə.

## A DAĞLARIN KÜLƏYİ

Vətənin qoxusu üzümə dəyir,
Əsin, əsin, a dağların küləyi.
Biz dağlara sirdaş ola bilmədik,
Küsün, küsün, a dağların küləyi.

Sizsiz ötdü ömrümüzün baharı,
Sizdən ayrı tapdıq dərdi, azarı.
Biganəlik etdik bizdən ilqarı,
Kəsin, kəsin, a dağların küləyi.

Anlamadıq olmuş bir də olacaq,
Yad qalayan alov bizi alacaq.
Ölənəcən, yaddaşımda qalacaq,
Səsin, səsin, a dağların küləyi.

Şiruyəyəm, nə müddətdi vətəndən,
Ayrılmışam, incik qalıb o məndən.
Kəsər olun başımızı bədəndən,
Kəsin, kəsin, a dağların küləyi.

## İTİRMİŞƏM

Ölüncə axtarsam tapa bilmərəm,
Ay ellər, ömr adlı ləl itirmişəm.
Qızıldan qiymətli, dürdən qiymətli,
Saçıma dən salan il itirmişəm.

Axtarın əhdini atan gözəli,
Nə yaman şirinmiş eşqin əzəli?
Məddili, mənalı, kövrək, məzəli,
Könüllər oxşayan dil itirmişəm.

Əzəldən başımdan əksilmir xata,
Həsrətəm işrətli bircə saata.
Göyçə kimi vətən, Həsəntək ata,
Mahal itirmişəm, el itirmişəm.

***23 dekabr 1988-ci il.***

## DOLANSIN

Günəş gülür, fəsil bahar fəslidir,
Bülbül gəlsin, gül başına dolansın.
Təbiət qoynunu açıb ellərə,
Ceyran, cüyür çöl başına dolansın.

Bal çeşməli, xoş havalı dağların,
Həm vəfalı, həm səfalı dağların,
Gül-çiçəkli, şiş qayalı dağların
Qoy kükrəyən sel, başına dolansın.

Açılıb sinəsi xoş nəfəslərin,
Şirin ləhcələrin, incə səslərin,
Aqil kimsələrin, comərd kəslərin,
Neçə belə il başına dolansın.

İsmətindən o allanan yanağın,
Məhəbbətdən xumarlanan yanağın,
Vüsal həsrətilə yanan dodağın,
Ümid verən dil başına dolansın.

Qocasından min bir sual alıbdı,
Xoş nəsihət, şirin xəyal alıbdı,
Ellərindən ağıl, kamal alıbdı,
Qoy Şiruyə el başına dolansın.

***28 iyun 1974-cü il,***
***Göyçə Daşkənd kəndi.***

## NİYƏ DÜŞSÜN

Vətənə keşik çəkib, oyaq olmamısansa,
Düşməni susduracaq yaraq olmamısansa,
El-obaya dar gündə dayaq olmamısansa,
Elin üstünə qayğın, azarın niyə düşsün?

Bir yazığa əl tutub fikir çəkməmisənsə,
Bir çiçək saralanda boyun bükməmisənsə,
Bircə ağac basdırıb, bir gül əkməmisənsə,
O bağa, o bağçaya güzarın niyə düşsün?

Bir qəlbi isitməyə odun, közün yoxdusa,
Quru təsəlli üçün şirin sözün yoxdusa,
O torpaqda zəhmətin, əgər izin yoxdusa,
O torpağın qoynuna məzarın niyə düşsün?

***1993-cü il.***

## GÜNÜDÜ

İgidsənsə qılınc tut, at özünü meydana,
Görürsən ki, vətənin, xalqının dar günüdü!
Göstər cəsarətini, al qisası, al qanı,
Bu gün qarı düşmənin desinlər xar günüdü!

Əsirlikdə qalıbdı sənə süd verən ana,
Oğulsansa meydan al, nicat yolu aç ona!
Vətənin bayrağını tax Şuşaya, Laçına,
Girov torpaqlarımın deyək ki, var günüdü!

Düşmən üstündə zəfər neçə ki, çalmamışıq,
Düşmən qoluna buxov neçə ki, salmamışıq.
Düşməndən bu qisası neçə ki, almamışıq,
Bizlərə töhmət, ləkə, bizlərə ar günüdü!

Sil getsin camalından qəhər Azərbaycanın,
Qalib bayrağı qalxsın səhər Azərbaycanın,
Torpağının zərrəsi gövhər Azərbaycanın,
Görsünlər şöhrətinin dünyaya car günüdü!

## İSTƏYİR KÖNLÜM

Bu necə əlçatmaz arzudu, Allah,
Ata nəvazişi istəyir könlüm.
Bir ana laylası, bacı nəfəsi,
Bir qardaş gülüşü istəyir könlüm.

Arzuya bax, diləyə bax sən məndə,
Qorxunu, təşvişi salıb kəməndə.
Axşamdan təzəcə Ay görünəndə,
Bir sevgi gəlişi istəyir könlüm.

Sərraf Şiruyəyəm, qaynar qanımla,
Görüşəm hər yanda mehribanımla.
Təbrizim, Dərbəndim, İrəvanımla,
Bir vüsal öpüşü istəyir könlüm.

***1996-cı il.***

## MƏNİM

Doğulduğum Göyçə – o el, o oba,
Könlümə doğmadı özümdən mənim,
Qarabağı doğma ana bilirəm,
Göyçə inciməsin sözümdən mənim.

Belə yaranmışam körpəliyimdən,
Əməlim ayrılmaz saf niyyətimdən,
Elə sadəyəm ki, sadəliyimdən,
Ürəyim oxunar üzümdən mənim.

Könlümə doğmadı çöl də, çəmən də
Vəfalı dilbərim, küsməynən sən də,
İncinin qiyməti incidi məndə,
Dür, gövhər yayınmaz gözümdən mənim.

***1968-ci il.***

## SORUŞURSAN MƏKANIMI, YURDUMU

Soruşursan məkanımı, yurdumu,
Mənim yurdum Xan Keytidi, Murovdu.
O yurdların həsrətini çəkməkdən,
Görmürsənmi – saç, saqqalım qırovdu.

Bir üzüm Kəlbəcər, bir üzüm Göyçə,
Onlar bir ananın döşüdü mancə.
O ellərin taleyinə gəlincə,
Yarı qaçqın, yarı əsir – girovdu.

Dövran, zaman yaman saldı qovhaqov,
Yeri-göyü bülənd etdi od-alov.
Qarı düşmən qəfil atdı bir tilov,
Heç bilmədik atılan nə tilovdu.

Göz yaşımın seli çatmaz o yurda,
Ah-naləmin yeli çatmaz o yurda,
Şiruyənin əli çatmaz o yurda,
Nakam ömrü əcəl üçün bir ovdu.

## QALDI

Bir əlim üzüldü ata yurdundan,
O doğma vətəndə bir əlim qaldı.
Bir elim yoluma gül-çiçək səpdi,
Yolumu gözləyən bir elim qaldı.

Açıldı boynumdan sevgimin qolu,
Baxdım camalına gözləri dolu.
Köhlən at, sərt qırmanc, bir də dağ yolu,
Ürəyimdə neçə nisgilim qaldı.

Sərraf Şiruyəyəm, necə keçinim,
Ürək paralansa xoş keçməz günüm.
Bəturə qızımtək ağ göyərçinim,
Üzeyir balamtək bülbülüm qaldı.

***1976-cı il, Göyçə.***

## BİRİ QARABAĞDI, BİRİ DƏ GÖYÇƏ

Qoşalaşıb həsrətimin düyünü,
Biri Qarabağdı, biri də Göyçə.
İki nisgili var qəmli könlümün:
Biri Qarabağdı, biri də Göyçə.

Göyçə nəfəs verib, Qarabağ həyat,
Göyçə həvəs verib, Qarabağ büsat.
Qan sızan yaralı cüt qoşa qanad,
Biri Qarabağdı, biri də Göyçə.

Biri sol qolumdu, biri sağ qolum,
Biri sol yolumdu, biri sağ yolum.
Mənim aran yolum, mənim dağ yolum,
Biri Qarabağdı, biri də Göyçə.

Biri saz götürüb, biri kaman, tar,
Ələsgər–Üzeyir, şair–bəstəkar.
Mənə ustad olan bu iki diyar:
Biri Qarabağdı, biri də Göyçə.

Sərraf Şiruyəyəm, bu bir cüt sözüm,
Bu bir cüt sevimlim, bu bir cüt gözüm.
Bu bir cüt müqəddəs ocağım, közüm,
Biri Qarabağdı, biri də Göyçə.

***1990-cı il, Bərdə.***

## QURBANAM

Baharına vurulduğum dağların,
Payızına, qışına da qurbanam.
Güllərindən pay umduğum çöllərin,
Torpağına, daşına da qurbanam.

İsinmişəm o ellərin közünə,
Can demişəm çəməninə, düzünə.
Nənələrin, babaların sözünə,
Yaddaşına, huşuna da qurbanam.

Saçı sünbül, qoynu süsən gözəlin,
Şiruyədən qəfil küsən gözəlin,
Baxışıyla asıb-kəsən gözəlin,
Gözünə də, qaşına da qurbanam.

***1976-cı il.***

## KƏLBƏCƏR

Hər yanı gül açıb, laləzar olub,
Atıb ürəyindən dərdi Kəlbəcər.
Babam Ələsgərin sevdiyi diyar,
Qurbanın, Şəmşirin yurdu Kəlbəcər.

Gözəllik eşqiylə yaranıb təkcə,
Zirvədə qartalı məğrurdu necə.
Bir yanı Qarabağ, bir yanı Göyçə,
Ömürə ziyadı, nurdu Kəlbəcər.

Yalçın qayaları keşikçi əsgər,
Hüsnünə baxmamaq olarmı məgər.
Cənnət dedikləri düzdürsə əgər,
Cənnətdən səfalı yerdi Kəlbəcər.

İstisuyu bir bəzəkdi özütək,
Müqəddəsdi çörəyitək, duzutək,
Şiruyənin söhbətitək, sözütək,
İncidi, gövhərdi, dürdü Kəlbəcər.

***20 iyul 1976-cı il, İstisu-Kəlbəcər.***

## MƏNƏ OĞUL DEMƏ, MƏNƏ MƏN DEMƏ

Vətən, eyliyini unutsam əgər:
Mənə oğul demə, mənə mən demə.
Adına bir ləkə gətirsəm əgər,
Haqlısan – döşümdən süd əmən demə,
Mənə oğul demə, mənə mən demə.

Əgər oxşamasam ərənlərinə,
Daşını dəyişsəm qürbət zərinə.
Ucalıb qalxsam da alim yerinə,
Kimsəyə gərəkdir bir kəlmən demə,
Mənə oğul demə, mənə mən demə.

Sən mənim atamsan, sən mənim anam,
İlk eşqim, istəyim, vəfalı sonam.
Görsən ülfətindən bir bala yanam,
Min cürə gül açsam, göy çəmən demə,
Mənə oğul demə, mənə mən demə.

***1982-ci il***

# VARMI

Bu köç qayıdarmı görən geriyə,
Gərdişin elə bir zamanı varmı?
Öz eliylə sevinməyə, gülməyə
Göyçənin görəsən gümanı varmı?

Tamahlar nə qədər ac olar, Allah!
Yollarda nə qədər köç olar, Allah!
Belə getsə həyat puç olar, Allah!
Görən bu dünyanın qananı varmı?

Yazığa, məzluma nüsrət verməyə,
Zəlilə, möhtaca qismət verməyə,
Haqqa, ədalətə fürsət verməyə,
Yaradan kimsənin amanı varmı?

Bədbəxtdi könlündə vətən bitməyən,
Xoşbəxtdi dodaqdan, dildən itməyən.
Din görüm, Şiruyə, qəmli ötməyən
Dünyanın elə bir kamanı varmı?

***25 noyabr 1988-ci il.***

## YATMAYIN

Təzə-təzə oyanmışıq qəflətdən,
Bir də bizi huş aparar, yatmayın!
Aralanıb sahillərə düşərik,
Gözümüzü yaş aparar, yatmayın!

Ata yurdlar, baba yurdlar tərk olar,
Yağış yağar, yanar odlar tərk olar.
Haqq nazilib ulu adlar tərk olar,
Düşmən bir də baş aparar, yatmayın!

Keçmir tarix, keçmir işə şahidlər,
“Vətən!” – dedi son sözündə şəhidlər.
Hardasınız ərgən-ərgən igidlər,
Düşmən bizdən baş aparar, yatmayın!

Yad əliynən çox içmişik ağılar,
Dərdimizi dağa versək dağılar.
Ayıq olun, birləşibdi yağılar,
Torpaq alar, daş aparar, yatmayın!

Haram əllər gözümüzə kül atar,
Yağış gələr, yuvamızı sel atar,
Nanikorlar süfrəmizə əl atar,
Qismət kəsər, aş aparar, yatmayın!

## GƏRƏKDİR BİZƏ

Hünər meydanına çağırın eli,
Hər körpə uşağı gərəkdir bizə.
Hiyləgər qurdlardan qorunmaq üçün,
Çobanın çomağı gərəkdir bizə.

Aqil ataların nəsihətləri,
Alimin, şairin, dilavərləri,
İgidlər hünəri, ərlər hünəri
Köhləni, yarağı gərəkdir bizə.

Əqidə birliyi, məslək birliyi,
Həqiqət birliyi, dilək birliyi,
Sədaqət birliyi, ürək birliyi,
Birliyin bayrağı gərəkdir bizə.

Gərəyə gəlmirsə əl bizim deyil,
Birliyi olmayan el bizim deyil,
Heç kim ayrılığa salmasın meyil,
Birliyin qaynağı gərəkdir bizə.

Nə aman yeridi, nə ün yeridi,
Nə qeybət yeridi, nə kin yeridi,
Şiruyə, Vətənin çətin yeridi,
Tərlanlar caynağı gərəkdir bizə.

## ULU GÖYÇƏ

Ulu Göyçə, ulu Vətən, ulu yer,
Var-dövlətlə, naz-nemətlə dolu yer!
Ustadların ay beşiyi, yolu yer:
Qurban olum torpağına, daşına,
Bu nə qaldı, gəldi yenə başına?

Ağlamadım can-ciyarım öləndə,
Qardaş-bacım, vəfadarım öləndə.
Qan ağladım arzularım öləndə,
Göz yaşlarım daşlarında göl oldu,
Yandı cismim həsrətinlə kül oldu.

Ay beşiyim, imək yerim, bəy evim,
Pir bildiyim torpaq evim, göy evim,
Səndən ayrı, ay ocağım, ay evim,
Mən olmuşam qaçqın, köçkün, didərgin,
Heç olarmı bundan artıq betər gün?!

Şiruyəyəm, Bolyaniklər dirildi,
Dövrün hökmü keşişlərə verildi.
Övladların bir də sürgün sürüldü,
Nəcəfə[1] də yaman hiylə qurdular,
Onun kimi bizə də od vurdular.

***1989-cu il***

---

[1] 1919-cu ildə belinə odlu samavar bağlanıb öldürülən Aşıq Nəcəf.

# NƏ GÖZƏLDİ

Bu yaylaqda axar sular,
Çəmən, çiçək nə gözəldi.
Şahə qalxan şəlalələr,
Göy biçənək nə gözəldi.

Gün təzəcə çıxıb hələ,
Gül üstdən süzülür jalə.
Qızları var, – yanaq lalə,
Dodaq ləçək – nə gözəldi.

Göylərə bax, xəyala dal,
Zirvələrin heyrəti lal.
Üzü nurlu o ağsaqqal,
Bu ağbirçək nə gözəldi.

İlham aldım növrağından,
Həm daşından, torpağından,
Lilpar ilə bulağından,
Soraq, içək nə gözəldi.

Mənа dərin, hikmət dərin,
Əgər varsa bir hünərin.
Vəsf elə, yaz, – bu yerlərin
Şəklini çək, nə gözəldi.

Şiruyə, çıxarma yaddan,
Düşəsiyik qol-qanaddan.
Qana-qana bu həyatdan,
Ötək, keçək nə gözəldi.

***2011-ci il.***

## ANAM, A KƏLBƏCƏR, ANAM, A GÖYÇƏ

Göz yaşınız bir-birinə qarışıb,
Anam, a Kəlbəcər, anam, a Göyçə.
Gərəkdir alışıb siz yanan oda,
Yanam, a Kəlbəcər, yanam, a Göyçə,
Anam, a Kəlbəcər, anam, a Göyçə.

Şişdağ Keyti səmtə gözünü dikib,
Keyti ağı deyib, boynunu büküb.
Deyirlər ki, “Alagöl”dən perikib,
Sonam, a Kəlbəcər, sonam, a Göyçə,
Anam, a Kəlbəcər, anam, a Göyçə.

Haqlısız, nə qədər qınasaz bizi,
Ancaq itirməyin mən salan izi.
Ya gərək özümü, ya da ki sizi,
Danam, a Kəlbəcər, danam, a Göyçə,
Anam, a Kəlbəcər, anam, a Göyçə.

İtdi inam, ümid, güman bəd gəldi,
Qismətimdən qismət uman bəd gəldi,
Bizdə günah yoxdur, yaman bəd gəldi,
Zaman, a Kəlbəcər, zaman, a Göyçə,
Anam, a Kəlbəcər, anam, a Göyçə.

***1997-ci il***

## BU DAĞLARIN QOYNUNDA

Aman Allah, aylar, illər xoş gələ,
Bir kam alam bu dağların qoynunda.
Yada salıb ilk istəyi, ilk eşqi,
Fikrə dalam bu dağların qoynunda.

Könlümcə olaydı taleyin payı,
Sevgilim başında ağ kalağayı.
Birgə qarşılayıb baharı, yayı,
Qonaq qalam bu dağların qoynunda.

Güllər aça, xəbər çata bülbülə,
Baxça gülə, bülbül ötə, gül-gülə.
Tərif yazam mən də saçı sünbülə,
Xoşhal olam bu dağların qoynunda.

Sevinc ilə qarşılaya gün-günü,
Silinə qəlbimin amanı-ünü.
Şiruyəyəm, telli sazda "Cəngi"ni,
Bir də çalam bu dağların qoynunda.

***1991-ci il. Şamaxı.***

## GÖYÇƏ

Haqqım yoxdur bir daha sənə ana deməyə,
Bilirəm ki, yanında dilim gödəkdi, Göyçə.
Daha nə cəsarətim, nə də istedadım var,
Çaldığım da yalançı zurna, tütəkdi, Göyçə.

Səndə yadigar qalıb öycüklərim, daşlarım,
Çəmənində, düzündə güllü al qumaşlarım.
İnan bir bu sözümə – sən üçün göz yaşlarım,
Göllənsə ləpələri ətək-ətəkdi, Göyçə.

Şair oğlun həsrətdən xəstə düşüb, can verir,
Minbir dastan bağlayıb, vəsfini hər yan verir,
Dilim "Göyçə" deyəndə, yaralarım qan verir,
Həsrətindən ürəyim pətək-pətəkdi, Göyçə.

Sənin həsrətin ilə dəliyəm, divanəyəm,
Sən yanar bir şamsansa, mən sənə pərvanəyəm,
Düşünmə istəyinə ögeyəm, biganəyəm,
Ürəyimdə surətin solmaz çiçəkdi, Göyçə.

Şiruyəyəm, damarda çağlayan saf qanım var,
Yerdə qanun yoxdursa, göydə haqq-divanım var,
Ömrümün son anında ümidim, gümanım var,
Yanağım yanağına söykənəcəkdi, Göyçə.

***1999-cu il.***

## MƏN AZADLIQ İSTƏYİRƏM

Bir ləkədi ünvanıma köləlikdə doğulduğum,
Əsarətdə süründüyüm, yedəklərdə yıxıldığım.
Yad neştərlə oyulduğum, öz qanımda boğulduğum,
Unutduğum Allahımdan indi nicat diləyirəm,
Yetər daha bu işgəncə, mən azadlıq istəyirəm.

Qoy eşitsin bir çömçəylə minbir qazan qarışdıran,
Məkr ilə, hiylə ilə qardaşları vuruşduran.
Bu vətənsiz gavırları üstümüzə sarışdıran,
Nə zamandan illər sayıb, bu günümü gözləyirəm,
Yetər daha bu işgəncə, mən azadlıq istəyirəm.

Lənətlənib bu günümə çıraq tutan əcdadlarım,
Mənə qeyrət dərsi verən ulu-ulu babalarım.
Viran olub mahallarım, perik düşüb obalarım,
Dərddi mənə bu ölüncə göyüm-göyüm göynəyirəm,
Yetər daha bu işgəncə, mən azadlıq istəyirəm.

Dön geriyə satqın, alçaq qəhrəmanlıq yoluna bax!
Yağılara qan qusduran Koroğluna, Boluna bax!
Vətən üçün qurban gedən başına bax, qoluna bax!
Qəzəbimdən, nifrətimdən dodağımı çiynəyirəm,
Yetər daha bu işgəncə, mən azadlıq istəyirəm.

Öz-özünə hesab versin bilə-bilə haqqı danan,
Bir milləti min bir yerə parçalayan, xırdalayan.
Üstündə od qalanacaq, bu torpaqda od qalayan,
Hələlik haqq ələyindən yaxşı-pisi ələyirəm,
Yetər daha bu işgəncə, mən azadlıq istəyirəm.

***1990-cı il, Bakı.***

## AZƏRBAYCAN

Başın üstdən yaman yellər əsdi yenə, Azərbaycan,
Yollarını yağı düşmən kəsdi yenə, Azərbaycan,
Ərgən-ərgən igidlərin sinəsini sipər etdi.
Qanlarını gözlərindən qusdu yenə, Azərbaycan.
Başın üstdən yaman yellər əsdi yenə, Azərbaycan.

Öz gülləmiz özümüzün köksümüzü al-qan etdi,
Mərd oğulun, mərd qızların canı sənə qurban etdi,
Bu günahsız axan qanı dost bildiyin düşmən etdi,
Aylarımız, illərimiz nəsdi yenə, Azərbaycan,
Başın üstdən yaman yellər əsdi yenə, Azərbaycan.

Şəhidlərin qəbirləri ürəklərdə qazılıbdı,
Amalları, əməlləri hər ömürə yazılıbdı.
Mərd, mübariz övladların elə bilmə azalıbdı,
Hər yan sənə can söyləyən səsdi yenə, Azərbaycan,
Başın üstdən yaman, yellər əsdi yenə, Azərbaycan.

Bu nə Qacar qırğınıydı, nə kor Hitler, nə Teymurləng,
Meydan tanklı, yollar toplu, yerlər alov, göylər fişəng,
Atəşlərin zərbəsindən xoş arzulu, gözəl, qəşəng.
Minlər ilə qız-gəlinin susdu yenə, Azərbaycan,
Başın üstdən yaman yellər əsdi yenə, Azərbaycan.

Şiruyəyəm, düşmənlərə baş endirib, boy vermədik,
Zalımlığa, qəddarlığa müti olub, hay vermədik,
Sərvətindən pay umanlar pay istədi, pay vermədik,
Hiylə qurdu, böhtan atdı, küsdü yenə, Azərbaycan,
Başın üstdən yaman yellər əsdi yenə, Azərbaycan.

***1992-ci il.***

## AZƏRBAYCAN AĞLAYIR

Siz, ey Vətən şəhidləri, kim deyər ki öldünüz,
Günəş kimi şəfəq saçıb, günəş kimi söndünüz.
Millət üçün əbədilik səcdəgaha döndünüz,
Sizin şəhid qanınıza bütün cahan ağlayır,
Dili bağlı, qəlbi para Azərbaycan ağlayır.

Milyon-milyon göz yaşları bir bulaqda sellənir,
Qara yaylıq, qara bayraq hər qapıda yellənir.
Dindirirəm, göz yaşıyla Bakı, Təbriz dillənir.
Kür dayanıb ağı deyir, Araz, Zəncan ağlayır,
Dili bağlı, qəlbi para Azərbaycan ağlayır.

Elin igid Babəkitək qollarınız kəsildi,
Tank yeridi, güllə yağdı, yollarınız kəsildi,
Baş bədəndən ayrı düşdü, dilləriniz kəsildi,
Qanınızla suvarılan neçə meydan ağlayır,
Dili bağlı, qəlbi para Azərbaycan ağlayır.

İtməyibdi, neçə qanlı səhifələr yaddadı,
On səkkizdə deyəmmirəm, nələr-nələr yaddadı,
Üzü qara “otuz yeddi”, ağır günlər yaddadı,
“Qara yanvar” yas günümüz, gözlər al-qan ağlayır,
Dili bağlı, qəlbi para Azərbaycan ağlayır.

Siz, ey Vətən şəhidləri, soyulsa da dəriniz,
Bir əbədi ömür aldız, əbədiyyət yeriniz.
Azad Azərbaycan idi məqsədiniz, siriniz,
Sizin şəhid qanınıza bütün cahan ağlayır,
Dili bağlı, qəlbi para Azərbaycan ağlayır.

Ulu Vətən: – Azərbaycan, ey şəhidlər anası,
Sənə Kəbə, – qiblə oldu bu şəhidlər dünyası.
Eşit, Allah! – qoy yapılsın burda haqqın nidası,
Qitələrdə məskən salan hər müsəlman ağlayır,
Dili bağlı, qəlbi para Azərbaycan ağlayır.

## GÖYÇƏ MƏNİM

Soruşursan – deyim, eşit –
Gör nəyimdi Göyçə mənim.
Əgər gözüm nurdan düşsə,
Eynəyimdi Göyçə mənim.

Öpmüşəm hər qarışını,
Hər dikini, hər qaşını.
Yalamışam hər daşını,
Çiynəyimdi Göyçə mənim.

Kəbə, qiblə, Həcc, ziyarət,
Könlümə təb verən qüdrət.
Qismət olsa son axirət,
Köynəyimdi Göyçə mənim.

Göyçə mənim nurlu günüm,
Göyçə qibləm, Göyçə yönüm.
Şiruyəyəm, ahım, ünüm,
Göynəyimdi Göyçə mənim.

***1996-cı il.***

## DƏLİDAĞIN QOYNUNA BAX, QOYNUNA

Zirvəsində qartalları qıy verir,
Güneyində lalə, nərgiz boy verir,
Quzeyləri qış qarından pay verir,
Dəlidağın qoynuna bax, qoynuna.

Döşdə xoruz mahnı deyir fərəyə,
Ceyran gəlir, ovçu girib bərəyə.
Çoban yatıb, sürü enib dərəyə,
Qoca qurdun oynuna bax, oynuna.

Buynuzunda yer tərpədən kəlidi,
Körpə əlik bu dağların ləlidi.
Təhlükə duyubdu səksəkəlidi,
Maralların boynuna bax, boynuna.

***18 avqust 1975-ci il, İstisu.***

## DAĞLARIN

İsti nəfəsiylə əridər qarı,
Gələndə üstünə yazı dağların.
Yığılar başına ellər, obalar,
Başlanar söhbəti, sazı dağların.

Güneyində gün şığıyar daşına,
Quzey qardan sürmə çəkər qaşına.
Duman, çəndən çalma bağlar başına,
Əksilməz işvəsi, nazı dağların.

Söylənər tərifi ellər içində,
Sevib, əzizlənər dillər içində,
Axşam-səhər ayna göllər içində,
Çalxanar ördəyi, qazı dağların.

Harayladım qayaları ayıldı,
Zirvəsinə el-obalar mayıldı.
Hər nə versə Şiruyəyə – qayıldı,
Dost payıdı çoxu, azı dağların.
***25 iyun 1978-ci il. Göyçə, Daşkənd kəndi.***

## BU YERLƏRDƏ

Hansı aslan ürəklisə,
Yapıb qala bu yerlərdə.
Uca dağlar səpələnib,
Sağa, sola bu yerlərdə.

Hər tərəfi göy meşəlik,
Süsən, sünbül, bənövşəlik.
Könül istər həmişəlik,
Ölə, qala bu yerlərdə.

Məclis qurubdu bulaqlar,
Xoşlanıb gələn qonaqlar.
Şiruyəyəm, dil-dodaqlar,
Dönüb bala bu yerlərdə.
***1978-ci il. Dəvəçi, Çıraqqala.***

## KEÇMİSƏNMİ

Soruşsalar – bu yaylaqdan,
Bahar vaxtı keçmisənmi?
Söylə – sərin sularından,
Ovuclayıb içmisənmi?

Soruşsalar – bu gədikdə,
Köhlən ata minmisənmi?
Söylə – köhlən yedəyində,
Enişini enmisənmi?

Soruşsalar – bu bərədən,
Səhər çağı aşmısanmı?
Söylə – çiskin, dumanına,
Ürəyini açmısanmı?

Soruşsalar – bu dağların,
Güllərindən dərmisənmi?
Söylə – süsən, sünbülündən,
Yara çələng hörmüsənmi?

Soruşsalar – bu dərədə,
Hərdən ocaq çatmısanmı?
Söylə – ocaq qırağında,
Bihuş olub yatmısanmı?

Soruşsalar – çəmənlərin,
Naxışını pozubsanmı?
Söylə – onun dastanını,
Şiruyətək yazıbsanmı?

***15 iyul 1976-cı il. İstisu-Kəlbəcər.***

## QALIBMI

Göyçədə çatdığım ocağın görən,
Közü sönübsə də, külü qalıbmı?
Bilirəm, bağların barı talanıb,
Görən bağçaların gülü qalıbmı?

Varmı "Ala göl"ün ördəyi, qazı?
Bülbülün naləsi, güllərin nazı.
Sınıb Ələsgərin, Alının sazı,
Barı təzənəsi, teli qalıbmı?

Qəmdən ağarıbmı başı dağların?
Axırmı gözünün yaşı dağların?
El üçün çatılıb qaşı dağların,
Görən uzanıqlı əli qalıbmı?

Yoxdur hünərimiz sevinmək üçün,
Döyüş paltarını geyinmək üçün,
Yadlar qabağında öyünmək üçün,
Allah, bu millətin dili qalıbmı?!

## BU DAĞLARDADI

***İstər bahar olsun, istər yay olsun,***
***Elin bir ayağı bu dağlardadı.***
***Firdovsi Xəlilov***

Yüz çiçək açsa da o dağlar, dostum,
Hamının marağı bu dağlardadı.
Tarixlər şahidi anam Qafqazın,
Mili, Qarabağı bu dağlardadı.

Murov ehtiyatlı igidə bənzər,
Qarlı zirvəsinə yayda sal nəzər.
Hamının dilində oxunan əzbər
Araz, Kürqırağı bu dağlardadı.

Gəl çıx Şah dağına, açılsın kefin,
Qoşqarın zirvəsi olsun hədəfin.
Nizaminin, Vidadinin, Vaqifin,
Başının dolağı bu dağlardadı.

Çiçək dər döşündən gəl Savalanın,
Göy-göllü Kəpəzə qaynasın qanın.
Səməd yadigarı körpə ceyranın,
Əzəldən sorağı bu dağlardadı.

Bizdə nə küdurət var, dostum, nə də kin,
İgidlik adından bir azca çəkin,
Koroğlunun, Cavanşirin, Babəkin,
Nəbinin yarağı bu dağlardadı.

Ayrılmaz Şiruyə şeir, qəzəldən,
Alar ilhamını eldən, gözəldən.
Mina boylu pərilərin əzəldən,
Laləli yanağı bu dağlardadı.

***1973-cü il.***

## QALA

Hər kimdən soruşdum bilən olmadı,
Neçədi tarixin, de yaşın, qala?
Başının üstündən tufanlar keçib,
Əyilməyib qəddin, nə başın, qala.

Göylərin qatında zirvələnibsən,
Möhtəşəm bürclərlə cilvələnibsən.
Neçə yol meydanda silkələnibsən,
Düşməyib kərpicin, bir daşın, qala.

İzin ver eyləyim səndən bir sual,
Mənasız deyildir etdiyim xəyal.
Kimə məxsus olub bu cah, bu calal,
Kim olub sultanın, fərraşın, qala?

Yüz yaşlı qocalar deyirlər zaman,
Tökübdü burada neçə nahaqq qan.
Papağın buluddu, yapıncın duman,
Necə füsünkardı göz-qaşın, qala.

Sərraf Şiruyənin qəlbində qürur,
Sənintək sükuta qərq olub durur.
Deyirlər zirvədə dayanıb məğrur,
Dərbənd məkanında sirdaşın, qala.

***1978-ci il, Dəvəçi, Çıraqqala.***

## DÖNDƏRİB

Qoynu tər qoxulu göy yaylaqlarda,
Təbiət insanı lala döndərib.
Toplayıb başına eli, obanı,
Bulaqlar suyunu bala döndərib.

Deyib nəğməsini solub bənövşə,
Lalələr bayraqtək sancılıb döşə.
Süsənli, sünbüllü hər cənnət guşə,
Halımı bir özgə hala döndərib.

Özünə yaraşır hər gülün adı,
Seçmir bir-birindən qohumu, yadı.
Bu qərib torpaqda bir eşqin odu,
Yandırıb cismimi külə döndərib.

Dağlara bax – ətək xalı, zirvə qar,
Təbiəti dilə tutub xoş bahar.
Payız vaxtı köçüb gedən durnalar,
Təzədən köçünü yola döndərib.

***1979-cu il, Gədəbəy-Göyçə yolu.***

## DAĞLAR

Yaylaq yaxasını bağlayıb tamam,
Yaşıl paltarını soyunub dağlar.
Yamanca turşudub sir-sifətini,
Tez gələn payızdan dəyinib dağlar.

Bəd oxdan, kamandan qorunmaq üçün,
Küləkdən, tufandan qorunmaq üçün,
Şaxtadan, borandan qorunmaq üçün,
Dumandan yapıncı geyinib dağlar.

Zirvəsi qalxıbdı ərşi-əlaya,
Şahiddi nə qədər cövrü-cəfaya.
Söykənib baş-başa, arxa-arxaya,
Baxıb bir-birinə öyünüb dağlar.

Soruşma yaşını, qocalığını,
Görüb əsrlərin hər bir çağını.
Qoruyur insandan ucalığını,
Bədnəzər gözlərdən yayınıb dağlar.

***14 dekabr 1972-ci il. Gədəbəy.***

## GƏTİRMİŞƏM MƏN

***General Kərim Vəliyevə***

Böyük Vurğunumun ər nəvəsinə,
Elin vəfasını gətirmişəm mən.
Didərgin düşdüyüm ulu Göyçənin,
İltimas sədasın gətirmişəm mən.

Gözümdə canlanır neçə mənzərə,
Gah Göyəzən dağı, gah Sarı dərə.
Sevimli Vurğunun pir Ələsgərə,
Hörmət nidasını gətirmişəm mən.

Şiruyəyəm, Göyçə deyə, yurd deyə,
Qəlbim şan-şan oldu, döndü pətəyə.
Böyük generala, ər sərkərdəyə,
Dostluq butasını gətirmişəm mən.

***1990-cı il.***

## BU GÜN

Çağırın görüşə dostu, qohumu,
Göyçə torpağında qonağam bu gün.
Minmək istəyirəm qarğı atıma,
Elə bil bir körpə uşağam bu gün.

Aşıq Ələsgərdən, İmandan desin,
Bu gözəl dövrandan, zamandan desin,
Vüsala yetirən gümandan desin,
Bir kökdə bir barlı budağam bu gün.

Doymaram ətrindən bu xoş səfərin,
Ərki var üstümdə hər bir nəfərin,
Vətən hünərimə deyib afərin,
Sanıram hamıdan qoçağam bu gün.

Yetdi Şiruyənin dadına inam,
Saldı qollarını boynuma anam.
Bu vüsal eşqiylə gərəkdir yanam,
Vətəndə çatılan ocağam bu gün.

***1976-cı il, Göyçə, Daşkənd kəndi.***

## DAĞLAR

Qərinələr ötsə qiymətdən düşməz,
Ana təbiətin ləlidi dağlar.
Vurğunu soruşdum – gözləri doldu,
Ağladı, sızladı, ləlidi dağlar.

Yaxın həmdəmidi uca göylərin,
Tarixi çox qədim, hikməti dərin.
Bəlkə də bu doğma, müqəddəs yerin,
Göylərə uzanan əlidi dağlar.

Doğma yurd-yuvamın binası idi,
Könlümün sevimli sonası idi,
Dünən gözlərimin aynası idi,
Bu gün gözlərimin selidi dağlar.

Şiruyə, şahiddi hər haqqı-saya,
Üç ay yaz, üç ay yay minər ədaya.
Ələsgər demişkən – şaha, gədaya,
Varlıya, yoxsula bəlidi dağlar.

***2005-ci il, Göygöl, Hacıkənd.***

## OLAMMAZ

Qazan obasıdı, Beyrək yurdudu,
Bu dağlar yadlara səngər olammaz!
Əyməyib, baş əyməz qarı düşmənə,
Tərpənib yerindən ləngər olammaz!

İndi hər qitəyə yetir sorağım,
Gələcək tarixdi hünər varağım.
Görüb köləliyin dadını xalqım,
Bir də özgələrə mehtər olammaz!

Üz tutub, erməni, deyirəm sənə:
Koroğlu qılıncı işləkdi yenə!
Yurduma göz dikən yağı düşmənə,
Mənim nifrətimtək zəhər olammaz!

Bu xalqın gücünü bilmirsənmi sən?
Atatürk hünəri həməndi, həmən!
Ay yurdsuz, yuvasız, yedəkdə gedən,
Sənin məqsədinə təhər olammaz!

Bilirsən hər sərvət bu torpaqda var,
Zərrəsi yadlara çox çətin çatar.
Əbəsdi dünyaya yaydığın qərar,
Bu məkan sizlərə şəhər olammaz!

***18 noyabr 1991-ci il, Şuşa.***

## BU YERDƏ

Qartal zirvələrdə dayanıb məğrur,
Kəkliklər qonubdu daşa bu yerdə.
Qıy vurur göylərdə tülək tərlanlar,
Ceyranlar dolanır qoşa bu yerdə.

Diskinmiş marallar geriyə baxır,
Əlik qayalıqdan dərəyə baxır,
Xoruz kəkələnib fərəyə baxır,
Təb-ilham lazımdı coşa bu yerdə.

Güney yaydı quzeyində buz donur,
Şəlalələr yatağını hey yonur.
Könüllər bu dağdan o dağa qonur,
Dönübdü elə bil quşa, bu yerdə.

Örtsə də günəşi bulud bir anlıq,
Yoxdu zirvələrdə çiskin, dumanlıq.
Sürgünə düşübdü, burda yamanlıq,
Qərq olub sükuta, huşa bu yerdə.

Burda ovçu yoxdu, burda tor yoxdu,
Burda güllə yoxdu, burda zor yoxdu,
Burda yaman ocaq, yaman qor yoxdu,
Kimdi ki, həddini aşa bu yerdə.

Dostlar bir-birinin pasibanıdı,
Hər şirin kəlmələr can dərmanıdı.
Sevgi sevgisinin mehribanıdı,
Çıxmaz arzu, dilək boşa bu yerdə.

Xoş baxıb bu yurda qadiri-qüdrət,
Bağçada gül-bülbül eyləyir söhbət.
Hər yanda toy-büsat qurub təbiət,
Dağ, dərə səsləyir, yaşa bu yerdə.

Çiçəklər düzülüb yamaca, yala,
Nərgiz yasəmənlə verib qol-qola.
Sərraf Şiruyənin qüdrəti ola,
Ən gözəl şeirini qoşa bu yerdə.

## ALLAH

Ərgünəşdən bir Göyçəyə baxaydım,
Bir anlıq təsəllim olaydı, Allah!
Bu yanmış könlümü kül eyləməyə,
Ədalət bir hava çalaydı, Allah!

Nuhun tufanında seləmi düşdü?
Biganə, nanikor ələmi düşdü?
Tilsiməmi düşdü, feləmi düşdü,
Kəlbəcər alınmaz qalaydı, Allah!

Kimlər satqın oldu, kimlər kərəmsiz?
Göyçə Kəlbəcəri etdi hünərsiz.
Qaldı yurd-yuvasız, Əsli-Kərəmsiz,
Şiruyə dağlara lələydi, Allah!

***1995-ci il, Bərdə.***

## LAÇINDA GÖRDÜM

Vətən torpağını gəzdim, dolandım,
Ən ülvi isməti Laçında gördüm.
Dostlar ürəyinin saf duyğusunu,
Səmimi ülfəti Laçında gördüm.

Müqəddəs varlıqdı bu eldə qonaq,
Çıxdı görüşümə Şəlvə, Dambulaq.
Çalbayır halımdan çox tutdu soraq,
Tükənməz hörməti Laçında gördüm.

Zəmanə nə gözəl veribdi təkan,
Cənnətə, behiştə dönüb bu məkan.
Zirvələr yurd olub, qayalar məkan,
Gül açan zəhməti Laçında gördüm.

Babalar ah çəkdi, ağadan dedi,
Nənələr boylandı ağa dan dedi,
Cavanlar dilləndi Ağadan[1] dedi,
Şeiri, sənəti Laçında gördüm.

Şiruyə, ömründən ötüşən bu an,
Ölüncə yadından silinməz inan.
Düşmənə qəzəbli, dosta mehriban,
Ən zərif xisləti Laçında gördüm.

[1] Şair Ağa Laçınlı.

## DEMƏSİN

***Bərdədən Göyçəyə***

Ana vətən inciməsin de məndən,
Etibara xilaf çıxdı deməsin.
Qucaqladım torpağını, daşını,
Bir ötəri gəldi baxdı deməsin.

Daradım saçını, öpdüm əlini,
Dinlədim sazını, şirin dilini.
Gözümə bağladım dəstə gülünü,
Təkcə sinəsinə taxdı deməsin.

Yadımdadı o mehriban baxışlar,
Səmimi salamlar, dərin alqışlar.
Şeirimi dinləyən dostlar, tanışlar,
Yandırdı könlümü, yaxdı deməsin.

Təmiz istəyimə yoxdur bəhanə,
Hansı səmtə çəksə gərdiş, zəmanə.
Öləndə də öləcəyəm mərdanə,
Şiruyəni namərd yıxdı deməsin.

***1982-ci il.***



***Ömrə, günə bel bağlama, bir ötəri taxtdı bu,***
***İnanmırsan dön geriyə, taxtı Süleymanı gör.***

## ƏLİYƏ

İki dünya xoşbəxtiyəm, çün aşiqəm Əliyə,
Baş endirib, səcdə qıllam mən dəmadəm Əliyə.
Qismət ola məhşər günü başmağını cütlüyəm,
Qulamının qulamıtək olam həmdəm Əliyə.

Odur millət şəfadarı, iki cahan sahibi,
Düldül atlı, Zülfiqarlı, mərdi-meydan sahibi,
Dini İslamın carçısı, o xoş Quran sahibi,
Lənət gəlsin kafərlərə, etdi sitəm Əliyə.

Yerə, göyə lərzə düşdü o, Əntəri böləndə,
Sındırdı neçə tilsimi şəhri Zərə gedəndə.
Şiruyəyəm, canım qurban, şəhadətə yetəndə,
Haqq öyündə məleykələr tutdu matəm Əliyə.

## HÜSEYNİMƏ

Öz-özümü duyan gündən ağlar nohəxanıyam,
Ərşə qalxan naləm ilə ağlaram Hüseynimə.
Gün nədir, ay nədir ki – fanidən axirətə,
Dəmadəm matəm-əza saxlaram Hüseynimə.

Könlümdə əzizlərəm Əkbərimin nəşini,
Boğazından oxlanan Əsğərimin nəşini,
Həzrəti Abbas kimi şakərimin nəşini,
Balamı qurban kimi bağlaram Hüseynimə.

Göydə mələklər ağlar, kafər bu vaya gəlməz,
Kufə əhlilər kimi düz haqqı-saya gəlməz,
Haqq yanında bilirəm günahım saya gəlməz,
Axirət ümidimi bağlaram Hüseynimə.

Şiruyəyəm Haqq bilir, günahımı, cəbrimi,
Taki görüm ağamı bol eyləsin səbrimi,
Gen qazın, dolduracam göz yaşımla qəbrimi,
Mehdi zühurunatək ağlaram Hüseynimə.

## MƏHƏMMƏD

Ya Qəhhar, ya Qüddus, Bismillahir rəhmanir-rəhim,
"Allah Əkbər", la şəriki haqdı dini Məhəmməd.
O, pənci Ali-Əba, hər iki dünya sərvəri,
Millətinə şəfadardı məhşər günü Məhəmməd.

"Kuhi-Bilur"da əl açdı Şiri Həyi Kirdigar,
Cəbrayıla hökm elədi onda ol Pərvərdigar.
Mustafaya söyləginən "İnna-fəta" nə ki var,
Göndərsə açmış olar o düyünü Məhəmməd.

İbrahim Xəlilullah ilkin yapdı Kəbəni,
Peyğəmbərə şəkk edənlər sökdü, çapdı Kəbəni,
Mədinədən qayıdanda gəldi, tapdı Kəbəni,
Bəzədi öz əlləriylə haqq öyünü Məhəmməd.

Gündə beş vaxt səcdəyə get, Şiruyə, eylə vəfa,
Məhşər günü sayə salar, eylər dərdinə dəva,
Yetəndə mehrac evinə Məhəmməd-əl Mustafa
Yeddinci qat göydə qoydu məleykəni Məhəmməd.

## GÖR

Dəli könül aç gözünü, bu qoca dünyanı gör,
Qətrələrə meyil salma, sən bacar ümmanı gör.
Adil kimdi, qadir kimdi, yeri-göyü yaradan,
Məhəmmədə nazil olan müqəddəs Quranı gör.

Qolu bağlı bir nökərsən Şahimərdan Əliyə,
Düldül atlı, zülfüqarlı, sirri pünhan Əliyə,
Məzlumların köməkdarı, canım qurban Əliyə,
Döndəribdi haqq yoluna necə müsəlmanı gör.

Həsən, Hüseyn qulusan, çağır yetsin dadına,
Fəda eylə can-başını həzrət Abbas adına.
Şümrü ləin, ibni Ziyad yandı məhşər oduna,
Bir bax necə qəbul olub, İsmayıl qurbanı gör.

Yüz iyirmi dörd min nəbi gəlib, gedib haxdı bu,
O pənci Ali-Əba heç millətdə yoxdu bu,
Ömrə, günə bel bağlama, bir ötəri taxtdı bu,
İnanmırsan dön geriyə, taxtı Süleymanı gör.

Mehdiyi sahibəlzaman çəkilibdi pünhana,
Biçarə Sərraf Şiruyə könül bağla sən ona.
Həyat özü bir məktəbdi cəmi qanan insana.
Bu beş günlük dar fənada gəl yaxşı, yamanı gör.

## MƏNİ

Bir əlacsız bəndən idim – səndən dilək dilədim,
Xoş vüsala yetirmisən, Qadiri-Qüdrət məni.
Şükür sənin dərgahına, ey aləmlər sərvəri,
Çəkib çıxardı müşgüldən sən verən cürət məni.

Ey Adilim, ey Qadirim, ey mənim Yaradanım,
Sənin o minbir adına qurban olsun bu canım.
Dar ayaqda sənə gəldi ancaq ümid, gümanım,
Hifz etdi qəza-qədərdən verdiyin nüsrət məni.

Ey Zahirim, ey Batilim, sirri-Sübhanım mənim,
Ey axşamım, ey sabahım, ümid, gümanım mənim,
Sənsən dərdimin dəvası, təbib, loğmanım mənim,
Zərrə xoş nəzər eyləsən tapar şəfaət məni.

Sən yaratdın altı gündə küllü-ərzi, ay Allah,
Hökm elədin qələm yazdı – La ilahə illəllah.
Məhəmmədən Rəsulillah, Əliyyən Vəliyullah,
Şükür sənə, bu hikmətə etdin hidayət məni.

Şiruyəyəm, xəbərdaram neçə-neçə ayətdən,
İnamım var, gedən günü bu dünyadan, həyatdan,
Qurtarar məhşər odundan, ötüşdürər siratdan,
Ürəyimdə Hüseynimə olan məhəbbət məni.

## YENƏ SƏNDƏN DİLƏYİM VAR

Qadir Allah, Ulu Tanrı yenə səndən diləyim var,
Bilirsən ki sənə bağlı canım, qanım, ürəyim var.
Ancaq bəzən nankor çıxıb, səcdənə baş qoymamışam,
Agahdır ki, ey Xudavənd, şeytanlara uymamışam.
Möhürə baş qoymasam da, "Allah Əkbər" demişəm mən,
Sən verdiyin yağlı, yavan qismətimi yemişəm mən.
Ulu Tanrı, sən bilirsən aşkarımı, xəlvətimi,
Ulu Tanrım, sən vermisən az-çox olan şöhrətimi.
Ey Xaliqim, bilirəm ki, batil sənsən, zahir sənsən,
Minbir adın sahibisən, adil sənsən, qadir sənsən.
Gecə-gündüz baş əyirəm qüdrətinin önündə mən,
Şükür-sənə eyləyirəm Məhəmmədin dinində mən.
Ey İlahi, mən bəndənəm, sənsən mənim yaradanım,
Səni köməkdar bilirəm, sənədir ümid, gümanım.
Kəraməti, mərhəməti gözləyirəm ancaq səndən,
Zərrə kömək uman deyiləm dar ayaqda özgəsindən.
Eşit mənim diləyimi, xəlq eyləyən kainatı,
Sən vermisən bu qisməti, bu bəxşişi, bu sovqatı.
Məni yolçu eyləmisən bu sənətin yollarına,
Köməyim ol, sinə gərim bu yolun zavallarına.
Mənə dözüm, mənə dil ver, mənə zəka, təfəkkür ver,
Söz mülkündən qismət eylə, – gövhər, inci, mənə dürr ver.
Başlayım çox keçmişlərdən keçib gələn söhbəti mən,
Tanıtdırım oxucuma hünər dolu xilqəti mən.
Aqillərdən, mömünlərdən söhbət açım oxucuma,
Haqqa bağlı ürəklərdən hikmət açım oxucuma.
Şair könlüm, min atını, bir də haqdan nicat dilə,
Bəlkə ağır səfərindən qayıdasan gülə-gülə.

## SIĞINMIŞAM

Yeri-göyü xəlq eləyən qadiri-qəhharım var,
Dar günümdü, kimsəsizəm, mən ona sığınmışam.
Yüz iyirmi dörd min nəbi əzbərimdi dilimdə.
Məhəmmədə nazil olan Qurana sığınmışam.

Şahimərdan-Şiriyəzdan yetər dada, bilirəm,
Bu əlacsız nökərini salar yada, bilirəm,
Zərrə qədər qoymaz yanam, düşsəm oda, bilirəm,
Haqqı deyən, haqqı gəzən, divana sığınmışam.

Şiruyəyəm, quru bəxt ver, ya qadir Allah mənə,
Bəxtim olsa taxt yetirər ol Rəsulillah mənə,
Öləndə qismət eylə "lailəhailallah" mənə,
O dünyamı sən bilirsən, gümana sığınmışam.

## İSTƏRƏM

Bir çətin yol yolçusuyam, haqdan nüsrət istərəm,
Aləmləri xəlq edəndən zərrə qüdrət istərəm.
Bir xaliqim kömək olsun, başa vurum bu yolu,
Məkan, zaman yaradandan mən kəramət istərəm.

Haqqı-Rəsul İslam üçün çəksən də cövrü-cəfa,
Dönmədin Allah yolundan, Xaliqə etdin vəfa.
Yet dadıma ey Nuru-pak, ey Məhəmməd Mustafa,
Gücdən düşmüş bir müstərəm, səndən qüvvət istərəm.

Eşqin ilə odlanıram, Sahibi-Düldül ağa,
Xidmətində gecə-gündüz, mənəm kəmtər-qul ağa,
İzin versən söyləyərəm vəsfini dil-dil ağa,
Hər kəlməmə, hər sətrimə səndən ziynət istərəm.

Hüseyninə Nohəxanam, gözlərim yaşdı, Ağa,
Yolunda qurban getməyim dünyamdan başdı, Ağa,
Can verəm Hüseyn üçün, könlümə xoşdu, Ağa,
O arzuma qovuşmağa səndən qismət istərəm.

Gündə beş vaxt səcdədəyəm, ya Məhəmməd Mustafa,
Xoş nəzər qıl qibləgahım, əhdimə edim vəfa.
Qismət olub, İslam üçün zərrəcə çəksəm cəfa,
Məhşər günü o zərrəmə səndən qiymət istərəm.

## ƏLİDİR

Dərya qədər günahım var, dərya qədər qəmim var,
Köməkdarım qadir Allah, ol Məhəmməd, Əlidir.
Gecə-gündüz üz sürtürəm onun xaki-payına,
Çağırıram o şəxsi ki, sirri qüdrət Əlidir.

Ürəyimdə əzbərimdi Əfsəl, Mürsəl peyğəmbər,
Həm-pənci Ali-Əba, mən onlara qul-kəmtər.
Millətinin dar günüdü, çək Düldülü, ey Qəmbər,
Həm kəramət, həm cəsarət, həm də qeyrət Əlidir.

Yerin, göyün, ərşin-gürşün sahibidi bir Allah,
Hər kəlmənin, hər bir işin əvvəlidi Bismillah.
Mən sənə bel bağlamışam, Əliyyən Vəliyullah,
Şiruyəyəm, yəqin billəm verən nüsrət Əlidir.

## ALLAHDAN MƏRHƏMƏT UMUR, UTANMIR

Bir addım atmayan Allah yolunda,
Allahdan nur, nemət umur, utanmır.
Bir qoldan tutmayan Allah yolunda,
Allahdan pay, sərvət umur, utanmır.

Bilməyən kəlmeyi-şəhadətini
Anlamır İslama xəyanətini.
İtirən Allaha sədaqətini,
Allahdan şan-şöhrət umur, utanmır.

Firudin, Sulidin bilməyən nədir,
Allahdan gözləyir mərhəmət, xətir.
Şeytan çağrışına olan müntəzir,
Allahdan var, dövlət umur, utanmır.

İmanını tamahına satanlar,
Axirəti günahına satanlar,
Haqqı nahaq mətahına satanlar,
Allahdan fəzilət umur, utanmır.

Bu dünya eşqiylə girən həvəsə,
Fələklə başlayan hər bəhsə-bəsə,
Sərraf Şiruyətək günahkar kimsə,
Allahdan mərhəmət umur, utanmır.

## BAĞIŞLA

Bəlkə şər olmuşam, xata olmuşam,
Bağışla, ey Ali-Əba, bağışla!
Günahım dəryadı, səvabım zərrə,
Yüz günahı bir səvaba bağışla.

Hüsnünü, ey Ağa, yuxumda gördüm,
Əl sinədə hüzuruna yetirdim.
Sual vedin, cavabını bitirdim,
O suala, o cavaba bağışla.

Sərraf Şiruyəyəm, ey şahı çıraq,
Xidmətindən məni eyləmə uzaq.
İncil, Zəbur, Torət, Quran haqdı, haqq,
Kərəm əhli dörd kitaba bağışla.

## ALLAH

Demirəm var, dövlət, altun, yatar ver,
Məni Sultan eylə, varlandır, Allah.
Deyirəm sağlıq ver, paklıq ver mənə,
Nurlandır könlümü, nurlandır, Allah.

Bu fani dünyaya qonaqdı hamı,
Mənə qismət eylə axirət kamı.
Gül-çiçəklə bəzə qəbir bağçamı,
İşıqlandır Allah, barlandır, Allah.

Sənə üz tutmuşam mərhəmət eylə,
Bəndəyəm, kərəm qıl, inayət eylə.
Düz yola, haqq yola hidayət eylə,
Qeyrət ver, ismət ver, arlandır, Allah.

Qadir Allah, peşmanıyam səhvimin,
Sahibiyəm bədliyimin, nəfimin.
Sənət məbədimin, könül evimin
Közərt ocağını, qorlandır, Allah.

## DÜŞ

Könül, dar günündür, çağır Ağanı,
O şahlar şahının ayağına düş.
Fəratda qolları düşən Abbasın,
Həsənin, Hüseynin sorağına düş.

Zikr eylə dilində oniki imamı.
Məhəmməd nuruna gələn kalamı.
İsadan, Musadan kəsmə inamı,
Pərvanəsən, haqqın çırağına düş.

Sərraf Şiruyətək hər an ahəstə,
Bir olan Allahdan mətləbin istə.
Min meyvə gətirən bir budaq üstə,
Möcüzlü ocağın budağına düş.

# EŞQİDİR

Nə Məcnun eşqidi, nə də ki Kərəm,
Mənim eşqim sirli qüdrət eşqidir!
Mənim eşqim yanar, yanar səngiməz,
Küllü aləmlərin heyrət eşqidir!

Mənim eşqim hər vaxt əsər bir külək,
O qeyb olmuş bax bir ruhdu, bir mələk.
Mənim eşqim sevənlərə bir örnək,
Sevgi, məhəbbətə ziynət eşqidir!

Mənim eşqim bu fənaya sığışmaz,
Küllü ərzə, bu səmaya sığışmaz,
Mənim eşqim bir dünyaya sığışmaz,
İki cahan, həsrət, firqət eşqidir!

Bu eşqi hər yetən duyanmaz heyhat,
Qanan beş öncədən[1] verər hesabat.
Mənim eşqim Mustafaya salavat,
Hüseyni görəcək möhnət eşqidir!

[1] Beş öncə – Məhəmməd, Əli, Həsən, Hüseyn, Fatimə.

## NƏ GÖZƏL

İlahi xəlq edib öz qüdrətindən,
Təbiət nə gözəl, insan nə gözəl.
Hər kəlməsi şəriətə bağlanan,
İncil, Zəbur, Tövrat, Quran nə gözəl.

Oxumuşam şəriətdən min ayə,
Anlamışam bir bəndini min aya.
İbrahim oğlunu gətdi Minaya,
Tanrıdan qoç gəldi, qurban nə gözəl.

Kilsələr dağılıb, bütlər talanıb,
Kimi haqqa, kim nahaqqa calanıb,
İki mələk çiyinlərdə dolanıb,
Yazır xeyri, şəri pünhan nə gözəl.

Şiruyə, xaliqin bax dünyasına,
Həqiqət suyu ol, ax dünyasına,
Nahaqq dünyasından, haqq dünyasına,
Çəkir qəfləsini sarban nə gözəl.



***Bizi bu töhmətlə ellər ağlamaz,***
***Mən səni ağlayım, sən məni ağla.***

## OLSUN

Bir mən olum, bir də mehri mələyim,
Laləli çəmənlər yatağım olsun.
İstəmirəm bu məclisə şam, çıraq
Ay doğsun, üstümdə çırağım olsun.

Tamaşa eyləyək yala, yamaca,
Bir bulaq başına enək astaca,
Nə köhlən istərəm, nə uçan xalça,
Zirvələrə qalxan ayağım olsun.

Yarın dil-dodağı mey olsun mənə,
Şəlalənin səsi ney olsun mənə.
Sevgilim kamalda tay olsun mənə,
Həyat yollarında dayağım olsun.

***1984-cü il. Göyçə, Daşkənd kəndi.***

## EYLƏDİM

Kimi var-dövlətə, kimi sərvətə,
Mən də gözəllərə tamah eylədim.
O bundan xətadı, bu ondan xəta,
İlahi, nə qədər günah eylədim?!

Nə var ucalığa gözəli yazdım,
Odur gözəlliyin əzəli yazdım,
Tərifinə neçə qəzəli yazdım,
Yuxusuz gecəmi sabah eylədim.

Dastan yazdım, gözəlliyi car etdim,
Gözəllikdən ötrü ahu-zar etdim,
Gözəlləri hökmü-ixtiyar etdim,
Bir xaqan eylədim, bir şah eylədim.

Şiruyəyəm, gözəl könlüm yıxanda,
Divanə sözünü başa qaxanda.
Əhdinə, andına dönük çıxanda,
Bir aman qopardım, bir ah eylədim.

## O GÖZLƏR ALA

***Təcnis***

Hansını istəyim, sevim bilmirəm,
Bu gözlər qaradı, o gözlər ala.
Nə bir rəng yaxılıb, nə boyası var,
Qüdrətdən yaranıb o gözlər ala.

Uçub xanimanım, qalaçam, qalam,
Mən harda yaşayam, mən harda qalam?
Qorxuram aldada – bəd günə qalam,
Məni yaman çəkir, o gözlər ala.

Gördüm cəmalını, yar Aya dönüb,
Bir günüm çevrilib, yar, aya dönüb!...
Şiruyə, dərmansız yaraya dönüb,
Az qalır canımı o gözlər ala.

***5 dekabr 2009-cu il.***

## DODAQLAR

Ax necə dəyişdi zaman əlində,
İlk öpüş görəndə əsən dodaqlar.
Ax necə unutdu, məni görəsən?
Görməyəndə asıb, kəsən dodaqlar.

Unutdu əhdini biilqar oldu,
Sevəni alçaltdı, özü xar oldu,
Kimləri sevirdi, kimə yar oldu,
O nərgiz dodaqlar, süsən dodaqlar.

Şiruyə, yamanı zaman axtarmaz,
Əhli-hal soruşmaz, qanan axtarmaz,
Bir də görüşməyə güman axtarmaz,
Nifrətlə inciyən, küsən dodaqlar.

## MƏNİMKİDİ

Qatdı dodağımız balı qaymağa,
Qaymaq səninkidi, bal mənimkidi.
Yanaqlar xallandı şux öpüşlərdən,
Yanaq səninkidi, xal mənimkidi.

Gecə uzun, gəl uzadaq söhbəti,
Nəyə qadir deyil eşqin qüdrəti?
Saçlara baxmaynan, gözəl, xəlvəti,
Şəvə səninkidi, çal mənimkidi.

Bir nalədi harayımız, hayımız,
Ötüb keçir baharımız, yayımız.
Bax, bu gərdənimiz, bu da boyumuz,
Əlif səninkidi, dal mənimkidi.

Axtar Şiruyəni könlün coşanda,
Nakam istəyinə nəğmə qoşanda.
Üz-üzə gələndə, qarşılaşanda,
Hörmət səninkidi, yol mənimkidi.

## VAR

Sən yoxsan, günəşim, havam, suyum yox,
Sən varsan, dünyam var, kainatım var.
Sən yoxsan, havarım, demək hayım yox,
Sən varsan, köməyim, qol-qanadım var.

Sən yoxsan, sevincim, şadlıq dəmim yox,
Qohumum, sirdaşım, bir həmdəmim yox,
Sən varsan, qüssəm yox, kədər, qəmim yox,
Sən varsan, çağlayan xoş həyatım var.

Gözəlim, gözəllik çoxdu həyatda,
Ən böyük gözəllik bəxtdi həyatda,
Sən yoxsan, Şiruyə yoxdu həyatda,
Sən varsan, sevincim, səadətim var.

## QALIR

İlk eşqin həsrəti, ilk eşqin dağı,
Sevən ürəklərdə xal kimi qalır.
Dönür xatirəyə ilk görüş günü.
İlk öpüş dodaqda bal kimi qalır.

Bəlkə də bu eşqi duymur hər könül,
Tez incisə, tez barışar kür könül,
Eşqin gücünə bax, dəli bir könül,
İstək qarşısında lal kimi qalır.

Ay keçir, il keçir, ovunmur ürək,
Könlündə yaşayır sevdiyin mələk.
Şiruyə, həqiqi məhəbbət, istək,
Dönür dastanlara, ləl kimi qalır.

## TAPMIŞAM

Mənim balım, qaymağımdı dodağın,
Lalə gəzsəm yanağındı, tapmışam.
Qaşların yoluma nur saçan aydı,
Ayna gəzsəm buxağındı, tapmışam.

İnciyərəm, “qara” demə özünə,
Qurban olum şölələnən gözünə.
Günəş deyim camalına, üzünə,
Gözəl gəzsəm sorağındı, tapmışam.

Sinəndədi, əlvan gəzsəm, ağ gəzsəm,
Qoynundadı aran gəzsəm, dağ gəzsəm.
Tər qoxulu bağça gəzsəm, bağ gəzsəm,
Şamamalı qucağındı, tapmışam.

Əhdinə, eşqinə könül bağladım,
Xoş arzu, diləklə coşdum, çağladım,
Sərraf Şiruyəni hey soraqladım,
Öyrəndim ki, qonağındı, tapmışam.

## NƏ TEZ GƏLMİSƏN

Vüsal vədəsinə gecikən gözəl,
Ayrılıq çağına nə tez gəlmisən?!
Əbədi yadlığa, sonsuz həsrətə,
Hicran qucağına nə tez gəlmisən?!

Azdıq yollarını biz səadətin,
Dözək əzabına indi firqətin.
Qönçə ikən solan kəm məhəbbətin,
Xəzan sorağına nə tez gəlmisən?!

Ay kor olan gözüm, sınan qanadım,
Nə tez ürəyindən silindi adım?
Dünənki istəyim, bugünkü yadım,
Bu qəm ocağına nə tez gəlmisən?!

## ALANDIMI

Bu qara qaş, bu qara göz,
Məni məndən alandımı?
Həsrətini, möhnətini,
Ürəyimə salandımı?

Çox ürkəkdi, səksəkədi,
Dodaqları bir tikədi.
Deyirlər ki, məleykədi,
Doğrudumu, yalandımı?

Yanaqları dağ lalası,
Ağzı saqi piyalası,
Görən bu göllər sonası,
Heç qeydimə qalandımı?

Dedim: – nazlı yar görürəm,
Dedi: – saçda qar görürəm.
Dedim: – ümid var görürəm,
Dedi: – heç gör olandımı?

Şiruyəni qəmi üzdü,
Eşqin həsrət dəmi üzdü.
Busə umdum, ağız büzdü,
Dedi: – zalım, talandımı?

## BƏXTİNƏ

Əğyar ilə qürrə atdıq – xar oldum,
Gülüş düşdü bəxtəvərin bəxtinə.
Vəslinə yetmədim el gözəlinin,
Öpüş düşdü bəxtəvərin bəxtinə.

Qismət buymuş, nə danışdım, nə dindim,
Öz bəxtimdən, iqbalımdan deyindim.
Hökm olundu, ucalıqdan mən endim,
Yeriş düşdü bəxtəvərin bəxtinə.

Şiruyəyəm, dodağımda ün getdim,
Yollarımı tutdu duman, çən, getdim,
Könüllərdən mən silindim, mən getdim,
Gəliş düşdü bəxtəvərin bəxtinə.

## ƏRİMƏZ

Həsrətindən ürəyimdə, a dilbər,
Yağ əriyər, məhəbbətim əriməz.
İllər ötər, əsər tufan, qasırğa,
Dağ əriyər, məhəbbətim əriməz.

Qəlbim olar günü-gündən oxlanan,
Eşqin olar əzizlənib saxlanan.
Ürəyimdə düyün-düyün bağlanan,
Dağ əriyər, məhəbbətim əriməz.

Yay adlayar, payız gələr, qış düşər,
Ömrün gənclik sarayından daş düşər.
Düşgünlükdən yanağıma yaş düşər,
Çağ əriyər, məhəbbətim əriməz.

Yorğun düşər ayağım da, əlim də,
Qabarlanar dodağım da, dilim də.
Şiruyəyəm, yenə deyim, könlümdə
Yağ əriyər, məhəbbətim əriməz.

## AY YARIDIMI

***Təcnis***

Ayın yarısına yar vədə verib,
Hesablayın görün ay yarıdımı?
Buludlu gecələr qoymur görünə,
Bilinmir Ay bütöv, Ay yarıdımı.

Bu qəmdə yanağı sarı olacam,
Gülün bülbülü yox, sarı olacam.[1]
Yar Yaxşı, mən Aşıq Sarı olacam,
Onlar bir kam alıb, ay yarıdımı?

Bir nazənin gəlir ay sinə-sinə,[2]
Elə bil qonubdu ay sinəsinə.
Töküb hörükləri ay sinəsinə,
Gələn Şiruyənin ay yarıdımı?

---

[1] Sar – gülün xoşlamadığı quş.
[2] Ay sinə-sinə – ürkə-ürkə, sürünə-sürünə.

## QAYIT, GÜLÜM, QAYIT ON BEŞ YAŞINA

Düşünməzdin nə rütbə var, nə sərvət,
İstəməzdin yersiz şərəf, nə şöhrət.
Hey deyərdin – yaşa ilqar, sədaqət,
Bu hərislik hardan gəldi başına?
Qayıt, gülüm, qayıt on beş yaşına.

Şan-şöhrətdi həya, ismət – deyərdin,
Xəzinədi yaxşı hörmət – deyərdin.
Ucalıqdı namus, qeyrət – deyərdin,
Dövran, zaman nə gətirdi başına?
Qayıt, gülüm, qayıt on beş yaşına.

Sən vermisən, saçımdakı dəni, sən,
Başımdakı dumanı sən, çəni sən,
Bircə günü görməsəydin məni sən,
Güc verərdin gözlərinin yaşına,
Qayıt, gülüm, qayıt on beş yaşına.

Hər ötən gün kamalını aldımı?
Şöhrət səni girdabına saldımı?
O vəfadan bir nişanə qaldımı?
Tale niyə zəhər qatdı aşına?
Qayıt, gülüm, qayıt on beş yaşına.

O ismətli yanaqların bəs hanı?
O titrəyən dodaqların bəs hanı?
İstək dolu o çağların bəs hanı?
Ləkə sürtdün kirpiyinə, qaşına,
Qayıt, gülüm, qayıt on beş yaşına.

Şiruyəyəm, dərdim, qəmim dağ oldu,
Xəlvət-yalan aşkarada ağ oldu,
İlin, günün, çağın özgə çağ oldu,
Zəhər yağdı torpağına, daşına,
Qayıt, gülüm, qayıt on beş yaşına.

## GÖZƏLDİ

Yanaqda xal gözəldi,
Dodaqda bal gözəldi,
Üzdə sevinc duyğusu,
Gözdə xəyal gözəldi.

Gərdəndə tel gözəldi,
Dağıda yel gözəldi,
Eşqi təmiz, əhdi saf,
Hər incə bel gözəldi.

Əllər ola sayalı,
Baxış ola həyalı.
Qaş özündən boyalı,
Şəkərli dil gözəldi.

Zəhmətə bağlı ürək,
Pak əməl, ülvi dilək.
İlk məhəbbət, ilk istək,
Sonda vüsal gözəldi.

## AY ALLAH

Qoru bədnəzərdən, qoru bəd gözdən,
O camala yel dəyməsin, ay Allah.
Gərdənə tökülən bulud tellərə,
Bir biganə tel dəyməsin, ay Allah.

Başında bir qovğa-qal dolanmasın,
Boynuna uğursuz şal dolanmasın,
Qoluna vəfasız qol dolanmasın,
Əlinə yad əl dəyməsin, ay Allah.

Salma Şiruyəni ondan uzağa,
Bir xoş baxışına ollam sadağa.
Qoru bədnəzərdən, o bal dodağa,
Özgə, qeyri dil dəyməsin, ay Allah.

## DEMİŞDİM

Leyli olmalıydın, axı mən səni,
Sevəndən, a zalım, Leyli demişdim.
Gözəlllər gözəli bilmişdim səni,
Dodağı məzəli, meyli demişdim.

Qəlbim parça-parça yarıldı getdi,
Eşqimin telləri qırıldı getdi,
Gör bir neylədin ki, ayrıldı getdi,
Ayrılmaz könlümün meyli demişdim.

Susma, gülüm, bircə ağız dinsənə,
Nə gətirdi ötən ömür, gün sənə?
Dünya hikmətindən axı mən sənə,
Xeyli danışmışdım, xeyli demişdim.

Sorma Şiruyəni o yan, bu yandan,
Daha silinibsən ürəkdən, candan.
Könlümə hakimdi əzəl binadan,
Ancaq saf məhəbbət əhli demişdim.

## CINAYƏTDİ

"Sevirəm" deyən kimsəyə,
Sevmə demək cinayətdi.
Sevən kəsə biganəlik,
Xəyanətdi, xəyanətdi.

Əfsanədir ötən anın,
Yoxdursa bir mehribanın.
Bu dünyanın, o dünyanın,
Yaraşığı məhəbbətdi.

Ay Şiruyə, ha yat, ha yat,
O yatmaqlar deyil həyat.
Məhəbbətsiz bu kainat,
Cəhalətdi, cəhalətdi.

## OLMAZ

Atalar, babalar gözəl deyibdi:
İstək olan yerdə, xəyanət olmaz.
Hər ürəkdə vəfa, könüldə saflıq,
Hər canda cəfaya dəyanət olmaz.

Məhəbbət ürəkdə, qəlbdə bitməsə,
Xoşbəxtlik, səadət verməz heç kəsə.
İlqar tapdanmasa, inam itməsə,
Sevgidə heç zaman cinayət olmaz.

Daha Şiruyədə qalmayıb dözüm,
Bəsdir nazı-qəmzən, ay canım-gözüm.
Yandırdı cismimi alovum, közüm.
Bu qədər zalımlıq, Məlahət, olmaz.

## DEDİLƏR

Yaşadar məhəbbəti düz əhdi-peyman – dedilər,
Yaşayan məhəbbətə yüz cürə qurban – dedilər.

Gözəlliyə səcdə qılıb, eşq üçün can verənə,
Aqillər qiymət verib, ən böyük insan – dedilər.

Eşq ilə dolu könül çıraqlı bir xanimandı,
Eşqsiz bir ürəyə susuz dəyirman – dedilər.

Eşqli bir ürəyin od-atəşi sönməz olar,
Bəxş edib o atəşi sevdiyi canan – dedilər.

Vətən eşqi də gərək hər eşqdən olsun uca,
Vətəni sevməyən kəs olacaq peşman – dedilər.

Eşqilə uydu Şiruyə təcnisə, həm qəzələ,
Ona təcnis ustadı, naşı qəzəlxan – dedilər.

## MƏHƏBBƏTİM QOCALMIR Kİ, QOCALMIR

Saç ağarır, diş tökülür, yaş ötür,
Məhəbbətim qocalmır ki, qocalmır.
Nurdan düşür, gözlərimi yaş örtür,
Məhəbbətim qocalmır ki, qocalmır.

Tər çiçəkdən çələng hörrəm yenə mən,
Könlüm üçün təzdən qurram binə mən,
Namaz qılıb, baş endirrəm dinə mən,
Məhəbbətim qocalmır ki, qocalmır.

Büzüşürəm yoluxlanmış qaz kimi,
Dınqıldannam sınıq-salxaq saz kimi,
Sümüklərim şaqqıldayır qoz kimi,
Məhəbbətim qocalmır ki, qocalmır.

## GÜMANA BAX, GÜMANA

Hər baxışı od qoyubdu sinəmə,
Sən bir qaşı kamana bax, kamana,
Əldən alıb qərarımı, səbrimi,
Başımdakı dumana bax, dumana.

İstəyirəm canı oda qalayam,
Qollarımı gərdəninə dolayam,
Bal bələnmiş dodağını yalayam,
Könlümdəki gümana bax, gümana.

Şiruyəyəm, bizi sayə salmayır,
Salam verrəm, salamımı almayır.
Can deyirəm, cana qail olmayır,
Məndən şeir umana bax, umana.

## BALDI

Baxışlar birləşdi bir axşam çağı,
Mən dedim – sevincdi, sən dedin – qaldı.
Məhəbbət bağladı dili, dodağı,
Mən dedim – sevdadı, sən dedin – aldı.

Mən dedim – düz olsun əhdin, ilqarın,
Sən dedin – get axtar, özgədi yarın.
Mərmər sinən üstə cüt qoşa narın,
Mən dedim – dəymişdi, sən dedin – kaldı.

Mən dedim – büsə ver lalə yanaqdan,
Sən dedin – yağılar baxır uzaqdan.
Əmib, məst olduqca dildən, dodaqdan,
Mən dedim – şəkərdi, sən dedin – baldı.

Mən dedim – Şiruyə çəkər həsrəti,
Sən dedin – salmaynan belə söhbəti.
Dən düşən saçıma baxdın xəlvəti,
Mən dedim – gümüşdü, sən dedin – çaldı.

## QIZ

Xallar nədən səpələnib,
Buxağının sağına, qız?
Bircəciyi kaş düşəydi,
Yanağının ağına, qız.

İnsafa gəl, kərəm eylə,
Könlü-könlə həmdəm eylə,
O xalları məlhəm eylə,
Gözlərimin ağına, qız.

Sevinc olaq, oyun olaq,
Bəxşiş, sovqat boyun olaq,
Yaxın gəl, qol-boyun olaq,
Çıxaq Vətən dağına, qız.

## YUXUMA GİRMƏ

Mən daha yatmıram o arzularla,
Ey canan dediyim, yuxuma girmə.
O dünyam, bu dünyam bəxtim, iqbalım,
Din-iman dediyim, yuxuma girmə.

Ey bahar ətirli çiçək bildiyim,
Tər-qönçə bildiyim, ləçək bildiyim,
Qəlbimə, könlümə göyçək bildiyim,
Pir-loğman dediyim, yuxuma girmə.

Yadların əlinə verdin qılıncı,
Məni də özüntək etdin zarıncı.
Yuxulayıb dəyişdirmə balıncı,
Canda can dediyim, yuxuma girmə.

Gözündə kiçildi günəş varlığı,
Sevdin yarasatək hey qaranlığı.
İtirdin istəyi, mehribanlığı,
Ey güman dediyim, yuxuma girmə.

Şiruyəyəm, qasırğa var, tufan var,
Bizim aramızda bir okean var,
Elə sanma görüşməyə güman var,
Şah-Xaqan dediyim, yuxuma girmə.

# BƏS DEMƏ

Sözü şəkər,
Özü şəkər,
Can alansan,
Desəm əgər –
***bəs deme.***

Buxağı ağ,
Dili qaymaq,
Dastan yazım,
Varaq-varaq –
***bəs demə.***

Dişi mərcan,
Döşü fincan,
Sənə qurban,
Olsun bu can –
***bəs demə.***

Günəş üzlü,
Ceyran gözlü,
Qonaq gəlim,
Sizə sözlü –
***bəs demə.***

Şümşad əlli,
İncə belli.
Yolun olum,
Siyah telli –
***bəs demə.***

Nazik bədən,
Hərdən-hərdən,
Tərifini,
İstə məndən –
***bəs demə.***

Baxışı nur,
Duruşu nur.
Desələr ki,
Gözəl budur –
***bəs demə.***

Lalə yanaq,
Sinən yaylaq.
Qulun olum,
Ay ayqabaq –
***bəs demə.***

Şiruyəyəm,
Görüş alım,
Dodağından
Gülüş alım,
Qol dolayım
Gərdəninə,
Yanağından,
Öpüş alım –
***bəs demə,***
***bəs demə.***

## MƏN SƏNİ AĞLAYIM,
## SƏN MƏNİ AĞLA

Mən səndən betərəm, sən məndən betər,
Mən səni ağlayım, sən məni ağla.
Dərdi-dərdə qataq, ay üzü dönmüş,
Mən səni ağlayım, sən məni ağla.

Mən qeyrət dəlisi, sən altun, sərvət,
Mən ismət dəlisi, sən bəzək, ziynət.
Mən eşq dəlisiyəm, sən rütbə, şöhrət,
Mən səni ağlayım, sən məni ağla.

Daha dözüm yoxdu mən divanədə,
Əksini görürəm hər bir xanədə.
Mən haqqın evində, sən meyxanədə,
Mən səni ağlayım, sən məni ağla.

Puç oldu arzular daha çağlamaz,
Nə dosta, nə yada ümid bağlamaz.
Bizi bu töhmətlə ellər ağlamaz,
Mən səni ağlayım, sən məni ağla.

Sərraf Şiruyəyəm, saçlarım ağda,
Danışsam dərdimi əriyər dağ da.
Tökək göz yaşını yad-yad bucaqda,
Mən səni ağlayım, sən məni ağla.

## NƏ YAZIM

Dedin "şeir yaz mənə",
Nə yazım, bəxti qara?
Görəsən fələk sənə,
Bəs niyə baxdı qara?

Gül idin, şehli idin,
Gün idin, mehli idin,
Nə günah əhli idin?
Üzünə yaxdı qara.

Əhvalın sorulmadı,
Hədəfin vurulmadı.
Hey axdı, durulmadı,
Suyun da axdı qara.

Nə bəd gəldi əzəlin,
Haqqa baxsın göz, əlin.
Tanrı, belə gözəlin,
Olarmı taxtı qara?

Mənim kimi sənin də,
Yoxmuş can deyənin də.
Gəlib Şiruyənin də,
Zamanı, vaxtı qara.

## BİLMƏZ

Sən böhtan aşiqi, mənsə həqiqət,
Bizim ulduzumuz birləşə bilməz.
Amalı, əməli gəc olanların,
Qəlbində dünyalar yerləşə bilməz.

Heç gör xoşlayarmı yarasa işıq,
Bayquş abad ölkə, gözəl yaraşıq.
Məndə fikir aydın, səndə dolaşıq,
Kəcyollu istəklər görüşə bilməz.

Əridi Şiruyə həsrət çəkəli,
Alçaldı qarşında boyun bükəli.
Məndə istək təmiz, səndə ləkəli,
Bizim sevincimiz öpüşə bilməz.

## BU GƏLƏN

Qaşlar qara, ağız muncuq, göz ala,
Başdan-başa can alandı bu gələn.
İltimas eylədim, – ayaq saxladı,
Nə mehriban, nə qanandı bu gələn.

Utancaqlıq varlığına ləkədi,
Dodaqları paralanmış tikədi,
Könlüm üçün Mədinədi, Məkkədi,
Məsləkimə din-imandı bu gələn.

Vəsfi halı götürübdü dünyanı,
Gəzir bədnəzərdən ürkək, pünhanı.
Göllər sonasıdı, çöllər ceyranı,
Şax vüqarlı bir tərlandı bu gələn.

Yalvarım aşiqtək sanasın məni,
Çəksin imtahana, sınasın məni,
Qınayır el-oba, qınasın məni,
Şiruyəyə şux canandı bu gələn.

## ÇİRKİNİ

Verməərəm vəfasız yüz gözəllərə,
Bir əhli hal, bir vəfalı çirkini.
Şam bilib başına dolanar könül,
Əhdi, eşqi bir səfalı çirkini.

İstəmirəm sürməli göz, qələm qaş,
Qorxuram məni də eyləyə çaş-baş.
Müqəddəs bilirəm eşqimə, qardaş –
Namusu pak, o həyalı çirkini.

Şiruyə istəməz işvəli tellər,
Ədalı baxışlar, çirkin əməllər.
Öləndə üstümə gətirin, ellər –
Ayaqları xoş səyalı çirkini.

## BAXIM

Gözəli qoynuna alan təbiət,
Gözəlmi baxım, sənəmi baxım?
Gözəllər döşünə taxılan lalə,
Gözəlmi baxım, sənəmi baxım?

Dayan, ey gül üstə oxuyan bülbül,
Nəfəsi qızılgül qoxuyan bülbül,
Məhəbbətdən çələng toxuyan bülbül,
Gözəlmi baxım, sənəmi baxım?

Eşit Şiruyəni, ey uca dağlar,
Ey ulu gədiklər, ey qoca dağlar.
Gözəllər nazlanır gör necə, dağlar...
Gözəlmi baxım, sənəmi baxım?

***1976-cı il, Göyçə-İstisu-Kəlbəcər.***

## GƏL

Yaman darıxmışam səndən ötəri,
Əsmər yanağına qurban olum, gəl.
Bir kəlmə sözündə min ümidim var,
Şəkər dodağına qurban olum, gəl.

Alıbsan əlimdən səbri, dözümü,
Üzdən təbəssümü, dildən sözümü.
Görmək istəyirəm səndə özümü,
Billur buxağına qurban olum, gəl.

Dözmək olmur belə cövrü-cəfaya,
Biganəlik, ar deyilmi vəfaya?
Ögeylik adını atma ortaya,
Doğma qucağına qurban olum, gəl.

Sənsən Şiruyənin xəyalı hər an,
Ömür başa çatır, pozulmaz peyman.
Könlümə yaxından yaxınsan inan,
Uzaq sorağına qurban olum, gəl.

## O NARA

***Təcnis***

Ələsgər lazımdı yaza vəsfini,
Qiymət qoya sinən üstə o, nara.
Yüz bağban tər töküb bəslədiyi nar,
Bənzər olmaz sən bəsləyən o nara.

Hüsnünün tərifi sığmaz bir bəndə,
Yüz ilgəyin düyünlənib bir bəndə.
Sən xanım ol, – mən xidmətkar bir bəndə,
Açım ilgəkləri qalsın on ara.

Şiruyəyəm, daşıb səbir qazanım,
Ay zalımım, mənə qəbir qazanım,
Bir busə ver, mən də xeyir qazanım,
Məni atma bu atəşə, o nara.[1]

[1] Od mənasında.

## ƏRİDİR

Bir ala gözlünün vüsal həsrəti,
Cismidə canımı yaman əridir.
Gün keçir, ay keçir vədə yetişmir,
Məni bir qaşları kaman əridir.

Aldı əllərimdən vüsal camımı,
Qoymadı doyunca alam kamımı.
Polad iradəmi, dağ inamımı,
Sitəm ocağında zaman əridir.

Sərraf Şiruyənin artdı firqəti,
Beləymiş taleyin yəqin qisməti.
Gecə də, gündüz də eşqin həsrəti,
Əridir könlümü, pünhan əridir.

## GƏL DEDİ

Bir gədikdən aşdıq nazlı yar ilə,
Dərələr baş əydi, bələ gəl dedi.
Qoynuna çağırdı zirvələr bizi,
Tut canan qolundan belə gəl dedi.

Yar küsdü gözündən mən ayrılanda,
Bir istək ikiyə tən ayrılanda,
Duman ötüşəndə, çən ayrılanda,
Çöl-çəmən əl etdi, lalə gəl dedi.

Tutuşdu quzeylər naz etdi bizə,
Güneylər hər yanı yaz etdi bizə,
Şiruyə, kəkotu göz etdi bizə,
Nərgizin üstündə jalə gəl dedi.

## DEYİL

Səsin qulağımdan, əksin gözümdən,
Ölən günə qədər gedəsi deyil.
Sənin həsrətindi oxlayan məni,
Nə qılınc, nə tüfəng zədəsi deyil.

Vüsalın açılmır, bağlanıb bəndi,
Surətin gözümdən getmir, nədəndi?
Qəlbimdəki sənsən, sənin hədəndi,
Özgə bir kimsənin hədəsi deyil.

Sərraf Şiruyəyəm, halım pərişan,
Hər saçım həsrətdən verir bir nişan.
Gözlərim ağlardı, ürəyim şan-şan,
Ömrümün sən görən vədəsi deyil!

## GƏL, GƏL

İlk görüş şirindi, ilk istək kimi,
Ürəyim çağırır: görüşə gəl, gəl.
Ümidim tikilib sən gedən yola,
Gözlərim axtarır həmişə gəl, gəl.

Yelkənsiz qalıbdı dəryada gəmim,
Qəlbimdən qəm getməz, gözümdən nəmim.
Bəlkə taleyimə, eşqimə mənim,
Bitibsən yeganə bənövşə, gəl, gəl.

Şiruyə nə danar, nə gizlər səni,
Gecə də, gündüz də hey izlər səni.
Nə qədər ömrüm var əzizlər səni,
Könlümün evində hər guşə, gəl, gəl.

## GƏLƏRƏM

Günəş olub nur çilərəm yoluna,
Ümid olub gümanına gələrəm.
Baş qoyaram bu ilqara, bu əhdə,
İlqarına, peymanına gələrəm.

Ürəyimdən çıxmayıbsan hələ sən,
Kirpiklərim arasında giləsən.
Min yol mələyərəm, bir yol mələsən,
Quzu olub qurbanına gələrəm.

Şiruyəyəm, həsrətim sən, ahım sən,
Müqəddəs and yerim, səcdəgahım sən,
Tacidarım, qibləgahım, şahım sən,
Fərman versən, fərmanına gələrəm.

## GƏLMİŞƏM

A dağlar maralı, ellər gözəli,
Gəl görüşək, sorağına gəlmişəm.
Sən kərəmli ağa, mən günahkar qul,
Kərəm umub ayağına gəlmişəm.

Həsrətim müdamdı, qəmim müdamdı,
Bilməm nə istəkdi, bilməm nə kamdı?
Hüsnünün şöləsi yanar bir şamdı,
Pərvanəyəm, çırağına gəlmişəm.

Korğun yannam, bir ətəklə alovla,
Yanan deyləm hər ötəri alovla,
Şiruyəyəm, caynağına al ovla,
Tərlan sənsən, oylağına gəlmişəm.



***Bir dərdə təsəlli tapılmayanda,***
***İnsan özü ömür-gündən bezərmiş.***

## HƏLƏ MƏN

Fələk asıb bir tənəzzül nənnisi,
Sağa-sola yellənəcəm hələ mən.
Daş tökülüb axarımın yoluna,
Bir çuxurda sellənəcəm hələ mən.

Say deyirsən, mən yoxluqdan nə sayım?
Dada yetmir nə havarım, nə hayım.
Kömək üçün nə əmim var, nə dayım,
Öz-özümə küllənəcəm hələ mən.

Elə sanma şairlikdə bir dağam,
Təzə-təzə qönçələnən budağam.
Kələ-kötür, çayır tutan torpağam,
Baş-ayağa bellənəcəm hələ mən.

Baxma şeirim gəzir dildə, dodaqda,
Beş-üç kəlmə yazar körpə uşaq da.
Yüz sorğu var, yüz sınaq var qabaqda,
Yoxlanacam, əllənəcəm hələ mən.

Şiruyəni salma yersiz sorağa,
Pərvanələr qonar yanan çırağa.
Tələsimə, çoxdu məndən qabağa,
Lap axırda dillənəcəm hələ mən.

## QORXURAM

Hündür yerə sürünərəm, çıxaram,
Üz aşağı hellənməkdən qorxuram.
Hörümçəktək tordan qalıb asılı,
Yellənçəktək yellənməkdən qorxuram.

Nanəcibə necə verim əlimi?
Dost da yoxdu, mən bağlayam belimi.
Danışmağa öyrədərəm dilimi,
Yerli-yersiz dillənməkdən qorxuram.

Könlüm toxdu, var dalınca baxmıram,
Məqam düşür, bəd deyəni yıxmıram.
Gur axarım olsa da gur axmıram,
Sızqalaşıb, sellənməkdən qorxuram.

Niyə dönsün bir əngələ öz işim?
Söz söhbətdi payız işim, yaz işim,
Mənə bəsdir az qazancım, az işim,
Aralarda küllənməkdən qorxuram.

Şiruyəyəm, hamı bilir kökümü,
Ağırsa da çəkməliyəm yükümü.
Beş-üç kilo artıraram çəkimi,
Ayaq-başa piylənməkdən qorxuram.

## UDUZDUM

İstədim ki, bu fələkdən bəxt udam,
Tale verən bəxtimi də uduzdum.
Tac istədim, qappaz vurdu başıma,
Nimdaş, quru taxtımı da uduzdum.

Haqq yolundan haqsız kimi saxlandım,
Tənə yedim, ürəyimdən dağlandım.
Bir gözəlin istəyinə bağlandım,
Ömrü, günü vaxtımı da uduzdum.

Ay Şiruyə, nə bir kükrə, nə bir coş,
Qələm götür bu qazanca şeir qoş,
Aldım, satdım, üzüm qara, əlim boş,
Halal maya, haqqımı da uduzdum.

## AĞLADAR MƏNİ

Hər sitəm, hər təsir ağlada bilməz,
Puç olan həqiqət ağladar məni.
Ehtiyac, işgəncə ağlada bilməz,
Tapdanan ləyaqət ağladar məni.

Bəd niyyət paklığa vurmasın ləkə,
Yaşarda könlümü intizar bəlkə,
Azadlıq tapmayan bir mahal, ölkə,
Qul olan bir xilqət ağladar məni.

İstiyə, soyuğa tablayar dözüm,
Səngiməz qəlbimdə alovum, közüm.
Əcəl qarşısında yaşarmaz gözüm,
Vüsalsız məhəbbət ağladar məni.

Sərraf Şiruyəyəm, bölmərəm qəti,
Bir olan istəyi, xalqı, milləti.
El, oba kədəri, vətən həsrəti,
Bir də ki, xəyanət ağladar məni.

***15 avqust 1992-ci il.***

## DOSTUYAM

Bir günlük, beş günlük deyil ülfətim,
Mən ömür dostuyam, mən il dostuyam.
Peymanım təmizdi, ilqarım möhkəm,
Həm ürək dostuyam, həm dil dostuyam.

Zaman da sınasın, il də sınasın,
Vətən də sınasın, el də sınasın,
Eşqimə baş əyən gül də sınasın,
Əsil dostlarımın əsil dostuyam.

Eşit bu hikməti Şiruyə, sən də,
Dostluq bir ürəkdi iki bədəndə,
Belə tapşırıbdı atam gedəndə,
Mən nəvə, nəticə, nəsil dostuyam.

## YETİRİN MƏNİ

Qürbətin baharı nəyimə gərək,
Vətənin qışına yetirin məni.
Ovutmaz könlümü yad elin gülü,
Obamın daşına yetirin məni.

Cənnət olsa əgər qoynu dünyanın
Əsiriyəm öz yurdumun, binamın.
Yolumu gözləyən qoca anamın,
Gözünün yaşına yetirin məni.

Deyiləm vurğunu yad məhəbbətin,
Salmayın yanımda özgə söhbətin.
Könlümün gözəli – nazlı afətin,
Aypara qaşına yetirin məni.

***1975-ci il***

## BACIDI

Ana can-ciyardı, ata arxadı,
Qardaş üçün bir pərvanə bacıdı.
Xoş günündə əlvan geyib sallanan,
Vay günündə qıyan cana bacıdı.

Dizə döyən baş yastığa düşəndə,
Yaman sözün dil-dodağa düşəndə
Cəsədin bükülüb ağa düşəndə,
Zülfün yolub, qıyan cana bacıdı.

Toy günündə xəbər verən ellərə,
Xonça tutub, həna yaxan əllərə.
Dən düşəndə o ədalı tellərə,
Yenə düşən tez gümana bacıdı.

Şiruyə, qəmində qəmxar görünən,
Şadlığında şad donuna bürünən.
Qardaş deyib gölgəsinə sürünən,
Dözən yaxşı, hər yamana bacıdı.

## QADASIN ALIM

Gözümün nurudu, ruhun qidası,
Vəfalı dostların qadasın alım.
Əhdimə, eşqimə min bəzək vuran,
Pak namusun, arın qadasın alım.

Qeyrətli düşməndən gözləmə kələk,
Mərd evində halal olur duz-çörək.
Qürbət cənnət olsa nəyimə gərək,
Bu ana diyarın qadasın alım.

Sərraf Şiruyəyəm, xoş niyyətim var,
Dostluğa uyuşan xasiyyətim var.
Axmaq sənətkara min töhmətim var,
Yaxşı sənətkarın qadasın alım.

## ÇƏTİNDİR

Elə gül deyirsən, gülə bilmirəm,
Ağlaya-ağlaya gülmək çətindir.
Axan göz yaşını silməyə nə var,
Ürək ləkəsini silmək çətindir.

Zaman dəbdəbəli zaman olsa da,
Müşgülün açılmır, güman olsa da,
Dünyaya gəlişin asan olsa da,
Mənalı yaşamaq, ölmək çətindir.

Həyacan təblidir hər gün, hər saat,
Məhv olur bir anda qurduğun büsat.
Vallah möcüzədir, Şiruyə, həyat,
Fikrini, sirrini bilmək çətindir.

## HAYIFIM GƏLİR

Nadanlardan danışmaram, deməərəm,
Dodağa, ağıza hayıfım gəlir.
Nakişidən yazmamışam, yazmaram,
Qələmə, kağıza hayıfım gəlir.

Qədir bilməz nə anlayar hörməti,
Heçə sayar hər çəkilən zəhməti.
Nankora verməərəm bircə qisməti,
Çörəyə, həm duza hayıfım gəlir.

Həqiqətdi Şiruyənin gördüyü,
Nəsihətdi söylədiyi, dediyi.
Naşının amansız döyəclədiyi,
O sədəfli saza hayıfım gəlir.

## TOFİQ YUSİFƏ

***Təcnis***

Tofiq, bir nekroloq yazarsan mənə:
"Köçdü taleyindən yarımaz şair".
Dərd-ələm, qəm-qüssə aman vermədi,
Yazdı qüdrətindən yarım az şair.

Tale qurban verdi elə, məni də,[1]
Axirət qucacaq el əməni də.[2]
Neçə səda gəldi – elə məni də,
Sənintək ağladı yarım, az, şair.[3]

Şiruyənin ahı yara yetişib,
Qəm dağını yara-yara yetişib,
Naşı təbib dedi: – yara yetişib,
Gətir neştər vurum, yarım, az, şair.[4]

---

[1] Tale məni el-obaya qurban verdi.
[2] Xeyirxah insanı da əcəl aparacaq.
[3] Məni də sənintək yarım az ağladı.
[4] Gətir yaranı azcaca yarım.

## DƏRD OLAR, DƏRD OLAR

Ürkütmə körpə ceyranı,
Çölə dərd olar, dərd olar.
Təhlükə qovar sonanı,
Gölə dərd olar, dərd olar.

Şanəni teldən ayırma,
Telləri beldən ayırma,
Bülbülü güldən ayırma,
Gülə dərd olar, dərd olar.

Sussa Şiruyənin səsi,
Kəsilsə candan nəfəsi.
Yadigar qalan kəlməsi,
Elə dərd olar, dərd olar.

## KÜSÜM

Dost demişəm hər vəfasız gədəyə,
Günahkar özüməm, özümdən küsüm.
Yağlı tərifimdən, şirin dilimdən,
Könüllər oxşayan sözümdən küsüm.

Süfrə qədrin bilməz, süfrə salmayan,
Salamsız qalacaq salam almayan.
Nanəcib dostlara qənim olmayan,
Halal çörəyimdən, duzumdan küsüm.

Ovunub, ovunub yola gəlməyən,
Könül yandırmayan, ürək dəlməyən.
Yaxşını yamandan seçə bilməyən,
Naşı təbiətli gözümdən küsüm.

Tez gözə gəlməyən qısa boyumdan,
Behsanə ötüşən həftə, ayımdan.
Sadə sovqatımdan, kasıb payımdan,
Nimdaş paltarımdan, bezimdən küsüm.

## UMMUŞAM

Bu da bir naşılıq, bu da bir səhvlik,
Xətirsiz dostlardan xətir ummuşam.
Susuz səhralardan, şoran çöllərdən,
Təravət ummuşam, ətir ummuşam.

Eybi yox, inciyən incisin məndən,
Həqiqət inləsə keçmərəm gendən.
Çiçəksiz çəməndən, gülsüz çəməndən,
Çələng istəmişəm, çətir ummuşam.

Sərraf Şiruyəyəm, gəzirəm həkim,
Quruyub budağım, çürüyüb köküm
Nadanlıq qəlbimə kəsilib hakim,
Urvasız kəpəkdən fətir ummuşam.

## ALA BİLMƏZSƏN

Bu payı haqq veribdi,
Bəndə, ala bilməzsən.
Ölsəm də qalmalıdı,
Məndə, ala bilməzsən.

Yüz cür tələ qursan da,
Səngər, bələ qursan da,
Kələk, hiylə qursan da,
Gündə, ala bilməzsən.

Əl çək beynimdən mənim,
Çıxmaz əynimdən mənim,
Bilik təhnəmdən mənim,
Kündə ala bilməzsən.

And içib, əhd etsən də,
Cismini şəhd etsən də,
Yüz nədir, cəhd etsən də,
Min də ala bilməzsən.

Min el ala bilməyib,
Min əl ala bilməyib,
Min ləl ala bilməyib,
Sən də ala bilməzsən.

## GETDİ

Ömrüm, günüm əzəlindən,
Qara gəldi, qara getdi.
Duyan qəlbim, duyan könlüm,
Yara gəldi, yara getdi.

Açılmadı qaranlığım,
Çəkilmədi dumanlığım.
Heç bilmirəm cavanlığım,
Hara gəldi, hara getdi.

Sayılmadı hörmətim də,
Zəhmətim də, zillətim də.
Şiruyəyəm, qismətim də,
Para gəldi, para getdi.

## QURBANIN OLUM

Gen günündə kölgən ilə sürünən,
Ehtiyac dostudu, qurbanın olum.
Sən xoşbəxt bildiyin neçə ürəklər,
Yaralı, yaslıdı, qurbanın olum.

Bərqərar olandan dünyanın himi,
Didib parçalayır bir bax kim kimi?
Həqiqət pərdəsi, ədalət simi,
Hələ də paslıdı, qurbanın olum.

Əgər can verilsə torpağa, daşa,
Onlar da var üçün girər savaşa.
Xəyanət edirsə qardaş-qardaşa,
Şan-şöhrət qəsdidi, qurbanın olum.

Eşit Şiruyədən gəl yaxşı-yaman:
Çox dosta, sirdaşa bağlama güman.
Qoca zəmanənin çaldığı kaman,
Zildədi, pəsdədi, qurbanın olum.

## GEDİRƏM

Kürəyimə şəllədiyim dostları,
Üzaşağı tökə-tökə gedirəm.
Fil çəkə bilməyən günahlarımı,
Öz-özümə çəkə-çəkə gedirəm.

Ümid umdum, dost hənirti vermədi,
Ha suladım, heç göyərti vermədi,
Yaxşılığım bir cücərti vermədi,
Yamanlığı əkə-əkə gedirəm.

Şiruyəyəm, dağlar aşdım şələmlə,
Yaşadım ömrümü dərdlə, ələmlə.
Daş qaldırıb, hörgü hörüb qələmlə,
Söz mülkünü tikə-tikə gedirəm.

## QİSMƏT, YA QİSMƏT

Taleyin hökmünü elə görmüşəm,
Beş arşın ağa da qismət, ya qismət!
Nəsib olacaqmı, olmayacaqmı?
Qara torpağa da qismət, ya qismət!

Çox sönüb alışan ocaqlar, odlar,
Silinib yaddaşdan ünvanlar, adlar.
Dura başım üstə doğmalar, yadlar –
Yaxın, uzağa da qismət, ya qismət!

Tapa biləcəkmi bir pənahını?
Şiruyə görəndə öz günahını.
Deyə biləcəkmi bismillahını?
Dilə-dodağa da qismət, ya qismət!

## BU DÜNYAYA MƏN

Bilirəm ki, dünya qonaq evidi,
Yığışa bilmirəm bu dünyaya mən.
Şirə tamahına öyrənməmişəm,
Sarışa bilmirəm bu dünyaya mən.

Anlamıram atəşəmmi, odammı?
Qəmdəyəmmi, yasdayammı, şadammı?
Doğmayammı, yaxınammı, yadammı?
Qarışa bilmirəm bu dünyaya mən.

Yad ayaqda tapdalanan yurdum var,
Əsir olan neçə-neçə mərdim var,
Şiruyəyəm, dünya boyda dərdim var,
Sığışa bilmirəm bu dünyaya mən.

## BOYANA

***Təcnis***

Bahar gələ, dağlarda qar əriyə,
Çəmən, çiçək nur selinə boyana,
Dan sökülüb, günəş yarıb zülməti,
Belə vaxtı yatarammı boy, ana!

Süsən, sünbül baş qaldıra dərədə,
Nişanlı qız incə-incə dərə də.
Deyə sevdiyinə – sən də dər, ədə,[1]
Görmürsənmi ətir saçır boyana.[2]

Xəstə canım yataqdan baş qaldıra,
Əlin aça, Tanrıya baş qaldıra.
Bəxt ulduzum eşidə baş qaldıra,
Şiruyə yağıya verə boy, ana.[3]

***2010-cu il.***

[1] Yəni ay oğlan, sevdiyi oğlana müraciətlə.
[2] Boyana bitkisinə işarə.
[3] Yağının, yadın qabağında şax durmaq mənasında.

## DÜNYADI BU

Mərd ayaqda, namərd başda,
Yaman karsız dünyadı bu!
Nadan dəmdə, aqil qəmdə,
Etibarsız dünyadı bu!

Tərlandan şikar saldırır,
Qarğaya laçın aldırır.
Vay dalınca toy çaldırır,
Necə arsız dünyadı bu!

Kimsə ondan bir bac almır,
Nə alçalmır, nə ucalmır.
Nə qarımır, nə qocalmır,
Saçı qarsız dünyadı bu!

Şəriki yox, böləni yox,
Hikmətini biləni yox,
Sevəni çox, qalanı yox,
Dostsuz, yarsız dünyadı bu!

Şiruyəyəm, dərd, qəmim dağ,
Gedən gəlməz, gələn qonaq.
Payı məzar, beş arşın ağ,
Nə ilqarsız dünyadı bu?!

## OLMUR

Haqqın, ədalətin arxası yoxdu,
Deməmək də olmur, demək də olmur,
Acıdı, şirindi dünyanın dadı,
Yeməmək də olmur, yemək də olmur.

Tale qul eləyib yamana bizi,
Gətirmir ilqara, imana bizi,
Kəndirbaz eləyib zamana bizi,
Gülməmək də olmur, gülmək də olmur.

Şiruyə, fikirdən yoruldu başın,
Uydu şöhrətlərə dostun, sirdaşın,
Haqsız tənələrdən axır göz yaşın,
Silməmək də olmur, silmək də olmur.

## BİR DƏ

Geri dönə dəli gənclik,
Sevəm bir də, seçəm bir də.
O, gözaltı cığırlardan,
Ürkə-ürkə keçəm bir də.

Çəkəm min bir həsrətini,
Hicranını, möhnətini.
Eşqin vüsal şərbətini,
Yar əliynən içəm bir də.

Ay Şiruyə, ömür para,
Bu yaş hara, arzu hara?
Bürünəydi alqışlara,
Günüm bir də, gecəm bir də.

## AY DÖYƏ-DÖYƏ

***Təcnis***

Nə gözəl deyibdi bizim atalar:
"Pay payı çıxarar, ay döyə-döyə".[1]
Bir sərin, sevdalı nur, işıq saçar,
Qara buludları Ay döyə-döyə.[2]

Nə tez yoxa çıxdız ağzımdan, a tam?[3]
Qayıda şikarım təzdən ox atam.
Ustadlıq eləyə yenə də atam,
"Əlif", "bey" öyrədə ay döyə-döyə.

Gələcək, gedəcək insan elədi,[4]
Yaxşı, pis nə varsa insan elədi.[5]
Şiruyəni yondu insan elədi,[6]
Həyat, – zindanında ay döyə-döyə.

---

[1] Atalar sözü "Pay payı döyə-döyə çıxarar" yəni kiməsə pay verərsən ondan sənə pay gələr.
[2] Ay buludları yara-yara işıq saçar.
[3] Ay cavanlığın, gəncliyin dadı ağzımdan nə tez getdin, istəyirəm birdə səni qaytaram.
[4] İnsan dünyaya gəlib, gedən qonaqdı.
[5] Dünyada yaxşı-pis nə varsa hamısını insan elədi.
[6] Həyat sınaqları Şiruyəni kamil insan elədi.

## YAVAŞ-YAVAŞ

Fələk mənlə bəd başlayıb, sitəmini artırıb,
Sinəm üstə çalın-çarpaz dağ çəkir yavaş-yavaş.
Hicran qəmi pərvanədi, cəsədimdi yanar şam,
Mən yanıram, o qovrulur, yağ çəkir yavaş-yavaş.

Ellər gəlsin nəzər salsın mənim solğun büstümə,
Qəza məndən uzaqlaşmır, yaman girib qəsdimə.
Qəm qüssələr hücum çəkir dəstə-dəstə üstümə,
Sığallayır saçlarımı, ağ çəkir yavaş-yavaş.

Qohum-qardaş yola gedər, aman arvad əlindən,
Yaşamağa yoxdu zərrə güman arvad əlindən,
Vəfasız dost, paxıl qonşu, yaman arvad əlindən,
Biçarə Sərraf Şiruyə ah çəkir yavaş-yavaş.

## DEYİLƏM

Dayazlara baş vurmaram, qəvvasıyam dərinin.
Əşrəfiyəm bu dünyanın, altunun, zərinin.
Mən Leylinin Məcnunuyam, Fərhadıyam Şirinin.
Hər gözəlin mübtəlası, divanəsi deyiləm.

Billur kimi çeşmə axır ürəyimin gözündən,
Kimin qəlbi kinlidirsə qorxsun özü-özündən.
İlqarından, peymanından, haqq bildiyi sözündən,
Kim dönürsə dönsün nə qəm, mən dönəsi deyiləm.

Qanun kimi həkk etmişəm ürəyimə hər vədi,
Göz önünə gətirmərəm hər alçağı, hər bədi.
El hörməti mənim üçün bir alınmaz zirvədi,
O zirvədə yurd salmışam, mən enəsi deyiləm.

Vətəndaşam, Vətənimin səhərindən doymaram,
Qarşısına yad ayağı keçə, dəyə qoymaram.
Hər təsadüf işıltını şöləli şam saymaram,
Hər ocağın, hər çırağın pərvanəsi deyiləm.

Həsrətlərin kədəridi sinəmdəki qəm, kədər.
Zülmkara, qan tökənə nifrətim var en qədər.
Şiruyəyəm, saf əməlim əbədiyyət bəxş edər,
Göydə günəş sönsə belə, mən sönəsi deyiləm.

## OLDU

Bu dünyanın bəd sifəti,
Ay insanlar, bizdən oldu,
Gözlər töküb kor eyləyən,
Axır özü gözdən oldu.

Özünü şah bildirənlər,
Başa qappaz endirənlər,
Od-ocaqlar söndürənlər,
Oddan oldu, közdən oldu.

Ürəklərə qəm əkdirən,
Zülm eyləyib, ev sökdürən.
Şiruyəyə diz çökdürən,
Diz qatladı, dizdən oldu.

## GƏTİR

***Dostum Köçəriyə***

Yenə duman, çiskin alıb qəlbimi,
Tez gəl gümanıma bir işıq gətir.
O şirin sözünlə, xoş təsəllinlə,
Bu sınıq könlümə yaraşıq gətir.

Bəxtim ətək vermir, dolanır gendən,
Müşkülüm açılmır bağlı düyündən.
Xətrinə dəymişəm, yar küsüb məndən,
Dur, gəl ortalığa barışıq gətir.

Şux gözəllər daha baxmır üzümə,
Fani dünya kül üfürür gözümə.
Ağlamaq istərəm özüm-özümə,
Pəsdən nalə çəkən bir aşıq gətir.

Hal-əhval tut Şiruyətək qaçqından,
Xəyalı pərişan, fikri çaşqından.
Ustad Azaflıdan, Vurğun, Daşqından,
Məclisə bir gözəl danışıq gətir.

## DİLQƏMİ

“Kərəmi”dən betər nalə çəkirsən,
Yaman inləyirsən, inlə, “Dilqəmi”.[1]
Yəhya bəyin qara gələn bəxtinə,
Ağlayaq gəl qoşa sənlə, “Dilqəmi”,
Yaman inləyirsən, inlə, “Dilqəmi”.

Çağır “Tərsə” dağa eli-elatı,
Qaytar bir anlığa geri həyatı,
Yəhya bəy çəkdikcə həzin bayatı,
Gedək harayına mənlə, “Dilqəmi”,
Yaman inləyirsən, inlə, “Dilqəmi”.

İnlə həzin-həzin, öt həzin-həzin,
Tellini qasidlə axtarın, gəzin.
Peşman-peşman namə yazsın nazənin,
Göndərsin hüzura sənlə, “Dilqəmi”,
Yaman inləyirsən, inlə, “Dilqəmi”.

İnlə hər səsində bir gümanım var,
Həsrətin çəkdiyim şux cananım var,
Mənim də sənintək bəd zamanım var:
Dinlə ürəyimi, dinlə, “Dilqəmi”,
Yaman inləyirsən, inlə, “Dilqəmi”.

İnlə, səsin qoy bürüsün hər yanı,
Bağır bəyin qara gəlsin fərmanı.
Ötüb, keçsin Şiruyənin karvanı,
O, ötən dumanla, çənlə, “Dilqəmi”,
Yaman inləyirsən, inlə, “Dilqəmi”.

[1] Dilqəmi – sazda el havası, Yəhya bəy və Telli xanım dastanında.

## DÜŞÜB

Dünən şeş-beş verən zərim,
Bu gün yekə, düyə düşüb.
Dünən sədr, müdir idi,
Bu gün işim bəyə düşüb.

Müşgülüm düşüb dərinə,
Bir dərdim həsrət, biri nə?
Ər babamın yurd yerinə,
Deyirlər yad dəyə düşüb.

Bir kimsəsiz itənəm mən,
Qərib-qərib ötənəm mən,
Əsir düşmüş vətənəm mən,
Ahım yerə-göyə düşüb.

***1990-cı il.***

## ŞAİR

***Alqayıtın ölümünə***

Sənə yas saxlayır yaralı qartal,
Yaralı qartalı yoxlayan şair.
Qarabağ nisgili, Göyçə eşqiylə,
Ürəyi qəmlərdə çağlayan şair.

Ay eldə axtaran hər gərəyini,
De, indi danışım, deyim nəyini?
Bölüb, parçalayıb bir ürəyini,
Milyon ürəklərə bağlayan şair.

Düyünə döndərdi dərd həsrətini,
Çəkdi neçə-neçə mərd həsrətini,
Vətən həsrətini, yurd həsrətini,
Əbədi qəlbində saxlayan şair.

Bir ürək min dərdə dözə bilməzdi,
Dünyanı kənardan süzə bilməzdi,
Şiruyə, vətənsiz gəzə bilməzdi,
Vətən, vətən deyib, ağlayan şair.

## MƏN

Sağam – bulanniğam, içənim azdı,
Öləndə saflaşıb, durulacam mən.
Nəfəsim ötüncə yamanam, pisəm,
Öləndə yaxşıtək sorulacam mən.

Sağamsa qiymətim azalacaqdı,
Haqqım da nahaqqtək yozulacaqdı.
Öləndə tərifim çoxalacaqdı,
Sağam – döyüləcəm, vurulacam mən.

Şiruyə, adətmi görən həyatda,
İnsan dəyər tapmır sağ olan vaxtda?
Bir lələ dönəcəm ölən saatda,
Sağam – baltalanıb, yarılacam mən.

## SUSMA ÜRƏK, SUSMA, ÜRƏK

Bu dunyadan nə tez doydun?
Nə yaratdın, nə iz qoydun?
Nə söylədin, nəyi duydun?
Oldun ötəri bir kələk,
Susma ürək, susma, ürək!

Nə qalıbdı elə məndən,
Üzü dönmüş gülə məndən,
Dastan umur hələ məndən,
Neçə igid, neçə mələk,
Susma ürək, susma, ürək!

Bəlkə ötdu bu işgəncə,
Bəlkə yetdik bir sevincə,
Arzularım hələ qönçə,
Diləklərim hələ ləçək,
Susma ürək, susma, ürək!

Şərə qılınc çalmaq üçün,
Həyata iz salmaq üçün,
Yaddaşlarda qalmaq üçün,
Neçə dağlar aşaq gərək,
Susma ürək, susma, ürək!

Yaranandan, qəm görmüşük,
Gözümüzü nəm görmüşük,
Bəxtimizi kəm görmüşük,
Ümidim var, xoş gün görək,
Susma ürək, susma, ürək!

***16 may 1996-cı il.***

## SƏPƏLƏNMƏ

Dağ bilmişəm, arxalı dağ,
Məni görüb təpələnmə.
Gözlərimdə bir ümmansan,
Dayazlaşıb ləpələnmə.

Bağlısan elə bilirəm,
Bir şirin dilə, bilirəm.
Hədəfə güllə bilirəm,
Qırma kimi səpələnmə.

Şiruyəyəm, gül istərəm,
Vəfa, ilqar, bil, istərəm.
Mədən bilib ləl istərəm,
Xırdalanıb küpələnmə.

## ÜZƏRMİŞ

Gülləsiz, yarasız, ay aman Allah,
Fikir, xəyal, dərd adamı üzərmiş.
Bu istək deyilən nə bəla imiş,
Ölənəcən ürəyində gəzərmiş.

Ürəyin istəyi yapılmayanda,
Həsrət zərrə-zərrə çapılmayanda.
Bir dərdə təsəlli tapılmayanda,
İnsan özü ömür-gündən bezərmiş.

Yadda qalan Şiruyənin adıymış,
Qəlb isidən hikmətinin dadıymış.
Yaman əməl gor evinin oduymuş,
Yaxşı əməl axirəti bəzərmiş.

***1968-ci il.***

## AY YARIM QALIB

***Təcnis***

Deyin dost-qohuma, gəlsin görüşək,
Daha son günümə ay yarım qalıb.[1]
Tamam əldən düşüb tabi-taqətim,
Yarı canım gedib, ay yarım qalıb.[2]

Huş dağılıb, gedib yaddaşım, yadım,
Axirət doğmadı, bu dünya yadım.[3]
Bezib, uzaqlaşıb qohumum, yadım,
Bircə pənahdarım ay yarım qalıb.[4]

Şiruyəyəm, ömür ay başa çatıb,
Ayaqdan gedən can, ay başa çatıb,[5]
Otuz gün ötüşüb, ay başa çatıb,[6]
Onçun paralanıb, Ay, yarım qalıb.[7]

---

[1] Öləcəyim günə ay yarım qalıb.
[2] Canımın yarısı gedib, yarısı qalıb.
[3] Axirət əbədi yerimdi, bu dünya isə müvəqqəti.
[4] Bircə köməkçim, dərdiməndim sevgilim qalıb.
[5] İnsan öləndə, – ölüm halı ayaqdan başlayıb başa doğru gedir – məndə də belədir.
[6] Gün, həftə keçib, bir ay tamamlanıb.
[7] Dini ayinlərdə vardır ki, ay otuz gün olanda göydə ay para olar, ay on beş günə çatanda ay göydə bütöv olar.

## ALANIYMIŞ

Həqiqətdən yazdıqlarım,
Başdan-başa yalanıymış.
Qafil olub bilməmişəm,
Haqqın evi talanıymış.

Canda ürək bildiklərim,
Arzu, dilək bildiklərim,
Huri-mələk bildiklərim,
İki başlı ilanıymış.

Kimə atsa qəza qarmaq,
Çətin olar qarşı durmaq.
Bu gün zildə gəzən barmaq,
Sabah pəsdə çalanıymış.

Bəzən çəkir taca dünya,
Bəzən qoyur puça dünya,
Nə veribsə qoca dünya,
Bircə, bircə alanıymış!

Ay Şiruyə, çatdı vədən,
Sağalmazdı ağrın, zədən.
Bəşər əhli gəlib, gedən,
Təkcə dünya qalanıymış.

# ƏYİLƏNƏM

Kim deyir ki, əyilməzəm,
Həqiqətə əyilənəm.
Gözəlliyə, ülviyyətə,
Sədaqətə əyilənəm.
Əyilməzəm – hər şöhrətə,
Əyilməzəm – güc-qüvvətə,
Əyilməzəm altunlara,
Rütbəyə, ada sınan qanunlara,
Əyilməzəm – eşqi dayaz,
Fikri dayaz,
    Qanı soyuq,
        Qəlbi ayaz.
Qabırğadan bir az qalın,
Mətləbdəndə bir şey qanmaz
Nadanlara, nakəslərə.
Vətən üçün, millət üçün,
Bir daş üstdə,
Bir daş qoymaz kimsələrə.
Həyatımdı,
    Şöhrətimdi,
        Qüdrətimdi,
Kərəm yanan,
      Əsli yanan,
Məhəbbətə əyilənəm.
Əyilməzəm –
Əyriliyə, haramlığa,
Əyilməzəm –
Zülmətlərə, qaranlığa,
Bəşər oğlu son qoyubdu,
İnadıyla, cürətiylə fironluğa,
O inada,
O cürətə əyilənəm.

Əyilməzəm –
İlqarsıza, vəfasıza,
İsmətini yerə atan
Üzdəniraq həyasıza.
Boğazını güdənlərə,
Qarnı üçün dostu satıb,
Bir-birini didənlərə.
Millətini,
    hörmətini,
        Vətənini,
            ismətini.
Dünyalardan əziz tutan,
Hər xilqətə əyilənəm,
Əyilməzəm –
Sənəti də adı kimi ləkələnmiş,
Vicdanı da məqsəd üçün
Minbir yerə tikələnmiş,
Üzdə susub, arxalarda,
Hikkələnmiş sənətkara,
Öz ömrünü, öz gününü,
Sənətində elə verən,
Əkin əkən, bağ becərən,
Yollar çəkən, divar hörən,
Fəhlənin də,
    kəndlinin də,
        çobanın da,
            alimin də.
Sənətinə baş əyənəm,
Zəhmətinə əyilənəm.
Ataların ülfətinə,
Anaların ismətinə,
Əyilənəm,
    əyilənəm,
        əyilənəm...

## QARDAŞLARIM
***Mərhum qardaşlarım***
***Nəbi və İmanın məzarları önündə***

Dərdinizi çəkənmirəm,
Dərdi daşan qardaşlarım.
Qızılquştək qanad çalıb,
Dağlar aşan qardaşlarım.

Tez solan bostan oldunuz,
Qohumdan, dostdan oldunuz.
Dilimdə dastan oldunuz,
Dastan qoşan qardaşlarım.

Boğdu məni bu qəm, qəhər,
Suyum zəhər, havam zəhər.
Cazibəmdə axşam, səhər,
Hey dolaşan qardaşlarım.

Gözlərimdə yaşa dönüb,
Nə tez getdiz quşa dönüb,
Bir cüt dilsiz daşa dönüb,
Qoşalaşan qardaşlarım.

İzi qalan bu daşlarda,
Sözü qalan sirdaşlarda.
Ürəklərdə, yaddaşlarda,
Qayalaşan qardaşlarım.

Ömrü cahil, fikri ahıl,
Dili şirin, dolğun ağıl.
Sədaları dastan, nağıl,
Təbi coşan qardaşlarım.

Hey baxdıqca baş daşına,
Dönürəm qəm sirdaşına.
Şiruyənin göz yaşına,
Ay yaraşan qardaşlarım.

***1997-ci il.***

## DEYƏ-DEYƏ

Eldən dərs alasan, gərək el üçün,
Yaşayıb öləsən el deyə-deyə.
Gülə sərf eyləyər bülbül ömrünü,
Köçər bu dünyadan gül deyə-deyə.

Cəsarət odur ki, zirvələr aşa,
Sel kimi kükrəyə, daşqıntək daşa.
Elin hörmətiylə çəkilə başa,
Xainə, xəbisə öl deyə-deyə.

Tarix yaddaşında saxlaya onu,
Hər könül könlünə bağlaya onu,
Əzizi ölmüştək ağlaya onu,
Hər oba, hər mahal dil deyə-deyə.

El dərdinə yandı, közü ağladı,
Şiruyənin qəlbi, gözü ağladı,
Qələmi ağladı, sözü ağladı,
Bütün insanlara gül deyə-deyə.

## AĞLADAR SƏNİ

***Həyat yoldaşım Cəmilə xanıma***

Az qalıb, ay gülüm, son gedişimə,
Qurulan matəmim ağladar səni.
Yarımçıq sətirlər haray çəkəndə,
Sahibsiz qələmim ağladar səni.

Torpaq olar son axirət beşiyim,
Anam məzar – çəkər qayğı-keşiyim.
Sükuta qərq olan evim, eşiyim,
Kəsilən get-gəlim ağladar səni.

Şəkilim üstündə olan başdaşım,
Sənə məlul-məlul baxan göz-qaşım.
Yaxınım, uzağım, dostum, sirdaşım,
Hər könül həmdəmim ağladar səni.

Gələr xatirinə eh, nələr, nələr...
Yanağına onda gözün qəm ələr.
Yadına düşdükcə dərdli gecələr,
Əzablı sitəmim ağladar səni.

Solar yanağının gül rəngi itər,
Harayın bir yana çətin ki yetər.
Sərraf Şiruyəyəm, hər şeydən betər,
Çəkdiyim hər qəmim ağladar səni.

## QOY YAZSIN COCUQ

“A”, “L”, “H” hərfi öyrədin əvvəl,
İlkin “Allah” sözü qoy yazsın cocuq.
Allahı tanısın anadan qabaq,
Səvab, günah sözü qoy yazsın cocuq.

Sonra yazsın ata, ana, vətəni,
O vətən ucaldır məni, həm səni.
Cocuğa dərs verib, təlim deyəni
Şah bilib, şah sözü qoy yazsın cocuq.

Nur verin cocuğun əqidəsinə
Gərəkli böyüsün öz ölkəsinə.
Elmin hər bəndinə, hər kəlməsinə,
Nurlu sabah sözü qoy yazsın cocuq.

## AY ALLAH

Dərd alovdu – könlümə
Sərinlik ver, ay Allah.
Hər acının dalınca,
Şirinlik ver, ay Allah.

Dönüb çarxı zamana,
Hamı düşüb gümana.
Özün əhdə, peymana –
Dərinlik ver, ay Allah.

Şükürlər qüdrətinə,
Kərəm qıl xilqətinə.
Bədlərin niyyətinə –
Düyünlük ver, ay Allah.

## ANALAR

Şirin yuxu tapsın deyə körpəsi,
Layla çəkib, yüz dil tökər analar.
Səhərəcən beşiyinin başında,
Əsgər kimi keşik çəkər analar.

Hey qəmlənər övlad qəmli baxanda,
Ürəyini həsrət, hicran sıxanda.
Oğlu nankor, qızı bədsoy çıxanda,
Peşman-peşman boynun bükər analar.

İstiyər ki, ayrılmasın yanından,
Ayrı düşsə, çıxmaz həsrət donundan.
Lazım gəlsə pay da çıxar canından,
Cehiz verər, ev də tikər analar.

***1970-ci il.***

# SƏNƏ NƏ FAYDA

Könül, quzeydəsən, şöləsi düşmür,
Günəşin nurundan sənə nə fayda?
Tərlanlar şığımır, qartallar qonmur,
Zirvə qürurundan sənə nə fayda?

Başından çən gəlir, duman ötüşür,
Ümid işıq vermir, güman ötüşür,
Qarın əriməmiş qışın yetişir,
Fəslin baharından sənə nə fayda?

Olsan da cəvahir, olsan da ləl də,
Qiymətə minməzsən sən naşı əldə.
İtir duru suyun bulanlıq seldə
Daşqın harayından sənə nə fayda?

Ahlı, amanlıdı, Şiruyə, səsin,
Çarmıxa çəkilib eşqin, həvəsin.
Taleh dustağısan kərəmli kəsin,
Hökmü, qərarından sənə nə fayda?

## BİLSƏM

Qoruna bilərəm yad kimsələrdən,
Özümü-özümdən qoruya bilsəm.
Aqil sayılaram eldə, obada,
Başımı sözümdən qoruya bilsəm.

İsmətdən salıbdı zaman üzləri,
Yola gətirəydi güman, üzləri,
Qoçağam, bedasıl, yaman üzləri,
Tanıyıb, üzümdən qoruya bilsəm.

Sərraf Şiruyəyəm, ömür-gün yarı,
Heyif ki, uzaqdı arzu yolları.
Belə ah çəkməzdim, nanikorları,
Odumdan, közümdən qoruya bilsəm.

## KÜSƏRMİ

O dağların güllərindən pay uman,
Çiskinindən, dumanından küsərmi?
Nur saçırsa yaxşıları yoluna,
Qarşı çıxan yamanından küsərmi?

Naz-qəmzə dediyin bəzək, yaraşıq,
Məzə məclisində yar olar aşıq.
Ötəri söz üçün həqiqi aşiq,
Can dediyi cananından küsərmi?

Yaxşı, pisi ələməzmi Şiruyə,
Şirin dilək diləməzmi Şiruyə.
Hər nə desə eləməzmi Şiruyə,
O qaşları kamanından küsərmi?

## NEYLƏYƏ BİLLƏM

Yaxşılıq əkirəm, yamanlıq bitir,
Qismətim belədi, neyləyə billəm.
Pislik edənə də edirəm xətir,
Xislətim belədi, neyləyə billəm.

Özüm də bezaram öz günahımdan,
Mərhəmət umuram bir Allahımdan.
Seçə bilməyirəm yadı qohumdan,
Niyyətim belədi, neyləyə billəm.

Şiruyəyəm, həyat, ömür bir anlıq,
Bu gün bu yanlığam, sabah o yanlıq.
Nə bədlik bilirəm, nə də yamanlıq,
Adətim belədi, neyləyə billəm.

## ATILDI

Uşaq oldum körpə, totuq
Atmacalı dil atıldı.
Cavan oldum gözəl, göyçək,
Başım üstdən gül atıldı.

Qoşalaşdım, getdi dinclik,
Tapdı məni hər inciklik.
Əl eylədi, ötdü gənclik,
Gözlərimə kül atıldı.

Qaysağ gəldi dodağıma,
Qırış endi buxağıma.
Düşgünlükdən yanağıma,
Gözlərimdən sel atıldı.

Şiruyəyəm, mənzil bitdi,
Olub keçən gözdən itdi.
Əcəl gəldi, ömür getdi,
Qəbrim üstdə el atıldı.

## MƏN

***Ustad Aşıq Alının məzarı önündə***

Əyirəm başımı köksümə dəyir,
Ölməz sənətinin qabağında mən.
Sevilə-sevilə səslənən gördüm,
Qoşmanı gözəllər dodağında mən.

Babamı dindirdim səndən söylədi,
Obamı dindirdim səndən söylədi,
Gəraylın yolumdan elə eylədi,
Daş oldum ömrümün bu çağında mən.

Üz tutdum bağçaya – güllər gəl dedi,
Təbiət çağırdı, çöllər gəl dedi,
Mahallar gəl dedi, ellər gəl dedi,
İtdim təcnisinin sorağında mən.

Könlümün evində sazın güllәndi,
Ürəyimin tellərində tellәndi.
"Alı" adı çəkdim, babam dillәndi,
Qaldım bağlamanın caynağında mən.

Oxudum kəlməni inci, zər gördüm,
Mənada həm kəsər, həm hünər gördüm,
Sərraf Şiruyəyəm, Ələsgər gördüm,
Alı zirvəsinin qucağında mən.

***1982-ci il. Göyçə, Qızılvəng kəndi.***

## GETDİ

Baharı ötüşdü, yayı ötüşdü,
Ömrümün payızı, qışı da getdi.
Hicran yedəyində, qəmlər əlində,
Axdı gözlərimin yaşı da getdi.

Arzum vaxtsız soldu, ümidim puçdu,
Eşqim, məhəbbətim yuvasız quşdu.
Könlümün sarayı himindən uçdu.
Torpağı daşındı, daşı da getdi.

Şiruyəyəm, bu dünyanın qalında,
Dost deyənin fitnəsində, alında.
Can çürütdüm vəfasızın yolunda,
Sevda üzüyümün qaşı da getdi.

## MƏN

Sədaqət ummuşam hər bir kimsədən,
Nə altun, nə sərvət ummamışam mən.
Günahkar olanda hakimdən ümid,
Zərrəcə mərhəmət ummamışam mən.

Kəssə də yolumu hər baxış, hər göz,
Cismimi yandıra bilməyib hər köz.
Qeyrətsizdən qeyrət, yaltaqdan düz söz,
Qorxaqdan cəsarət ummamışam mən.

Hakimim olubdu müqəddəs Quran,
Səcdəgah bilmişəm mən onu hər an.
Qanımda xəyanət olmadığından,
Özgədən xəyanət ummamışam mən.

Sərraf Şiruyəyəm, kin, küdrət, xətər,
Uzaqdı qəlbimdən dünyalar qədər.
Sevmişəm sevgimi Məcnundan betər,
Ötəri məhəbbət ummamışam mən.

## ATA

Səsləyirəm, səs vermirsən,
Dar günümə dayaq ata.
Sən olmusan əzəl gündən,
Həyatıma mayaq, ata.

Dünya zülmət mən fağıra,
Günəş gündüzü çağıra...
Üz tutduğum hər cığıra,
Oldun nurlu çıraq, ata.

Gül qalmayıb gülzarında,
Xiridar yox bazarında.
Şirurəyəm, məzarın da –
Düşüb məndən uzaq, ata.

## DƏRDİ VAR

Dərdsiz insan tapammazsan,
Hər insanın öz dərdi var.
Əyrilərin əyri dərdi,
Düzlərin də düz dərdi var.

Dolansa da harın-harın,
Dərdi çoxdur varlıların.
Məzlumların, kasıbların,
Odun, ocaq, köz dərdi var.

Yada qaldı isti soba,
Geniş yaylaq, təmiz hava.
Vətən, torpaq, mahal, oba,
Şiruyənin yüz dərdi var.

## BİR SƏN OLDUN

Yön çevirən uca dağlar qoynuna,
Bir sən oldun, bir mən oldum, bir də dost.
Yol uzunu şirin söhbət içində,
Bir sən oldun, bir mən oldum, bir də dost.

Qanad aldıq arzu, istək, diləkdən,
Uzağıydıq onda hiylə, kələkdən.
Məclis qurub, sağlıq deyən ürəkdən,
Bir sən oldun, bir mən oldum, bir də dost.

Nədən intizara çevrildi bu an?
Döndü bir nisgilə edilən güman.
Üzdə sevinc, qəlbdə qəmlə ayrılan,
Bir sən oldun, bir mən oldum, bir də dost.

Daha Şiruyədə tükənib səbir,
Bir bəhrə vermədi tökülən tədbir.
O günləri xatırlayan birbəbir,
Bir sən oldun, bir mən oldum, bir də dost.

***1980-ci il.***

## İNSAN

Ət, sümüyün görünsə də,
Yarın qandır, sudur, insan.
Göy baxacaq, yer udacaq,
Aqibətin budur, insan.

Dünya malı bal olanda,
Daş, torpağı ləl olanda,
Tamahına qul olanda,
Zəhəri də udur insan.

Düşünmürük bəs nədəndir,
Qönçə ömür sabah dəndir.
Son payı ki, bir kəfəndir,
Niyə şöhrət güdür insan?

## GƏRƏK

Dərdim cavan, ömrüm qoca,
Halıma ağlayan gərək.
Yağılar qan əkən torpaq,
Yaramdı, – bağlayan gərək.

Həmdəm ola ünüm ilə,
Ötən ömrüm, günüm ilə,
Göyçə deyin mənim ilə,
Dəmadəm çağlayan gərək.

Şiruyə el bağçasıdı,
Şiruyə ləl bağçasıdı,
Şiruyə gül bağçasıdı,
Dərib, qoxulayan gərək.

## MƏNİ

Mən elə əzəldən kor taleliyəm,
Gah sitəm döyübdü, gah təhqir məni.
Xəlq edən ilahi haqsıza qənim,
Düzlüyə yaradıb möhtəkir məni.

Kimsədə günah yox, qismət belədi,
Fələk verən şələm ağır şələdi.
Hayana üz tutsam görrəm tələdi,
Bəxtim eyləyibdi müqəssir məni.

Kimsəyə can deyib, çor eşitmişəm,
Çoxuna xan deyib, zor eşitmişəm.
Gözlü bildiyimi kor eşitmişəm,
Alçaldıb bu eylik, bu xətir məni.

Soruşan yox, ay Şiruyə, nə yükdü?
Çəkdiyin yük, bu dünyadan böyükdü.
Vallah taleyimin üzü dönükdü,
Ömür hədələyir vurhəşir məni.

## DÜYÜNƏ DÜŞÜR

Bəxtim elə yatıb ki,
Qollarımı çatıb ki,
Qəmi-qəmə qatıb ki,
İlməm düyünə düşür.

Ürəyimdə buz donur,
Sönür alov, köz donur.
Dodağımda söz donur,
Kəlməm düyünə düşür.

Dərddən tutdum şələni,
Keçəmmirəm bələni.
Kim qurub bu tələni,
Bilməm, düyünə düşür.

## QAYTAR, İLLƏR, MƏNİ GERİYƏ QAYTAR

Bilirəm, mümkünsüz bir arzudu bu:
Qaytar, illər, məni geriyə qaytar.
Heç nəyə yetişməz təsəllidi bu,
Qaytar, illər, məni geriyə qaytar.

Nənəm təzdən büksün bələyə məni,
Tutsun hər arzuya, diləyə məni,
Tapşırsın yer-göyə, fələyə məni,
Qaytar, illər, məni geriyə qaytar.

Qaytar uşaq olum, dil açım, dinim,
Yüyürüb yıxılım, qalxıb sevinim.
O qarğı atıma təzədən minim,
Qaytar, illər, məni geriyə qaytar.

Məni şagird eylə, tələbə eylə,
Mənə tarix danış, fəlsəfə söylə.
Qocalıq köçünü, sən Allah əylə,
Qaytar, illər, məni geriyə qaytar.

Yadıma düşdükcə ürəyim sızlar,
Arxamca su səpib, can deyən qızlar.
Şiruyəyəm, qoyma ötə o nazlar,
Qaytar, illər, məni geriyə qaytar.

## AYRILIR

Yaman dillər, yaman gözlər sevinsin,
Ayrılmaz deyilən əllər ayrılır.
Soyuq baxışlarla qabaq-qarşıyıq,
Öpülüb, oxşanan tellər ayrılır.

Müxənnəs əliynən qalanan ocaq,
Bizi özümüzdən eylədi qaçaq.
Keçmişləri nə danışaq, nə açaq,
Bir bağça talanır, güllər ayrılır.

Pul, şöhrət bir eşqi eylədi hədər,
Tapdı yaxamızı qüssə, qəm, kədər.
Beş il yox, on il yox, bir ömür qədər,
Həftələr ayrılır, illər ayrılır.

Mən sola baxıram, o sağa baxır,
Tufandan qırılan budağa baxır,
Ata-ana, – deyən uşağa baxır.
Qanı bir, canı bir dillər ayrılır.

Dildən kəlmə gəlmir, ürəkdən nida,
Doğmalar bir anda çevrilir yada.
Nə sağ ol deyilir, nə də əlvida,
Sarışıb sarmaşan qollar ayrılır.

Baxışlar çevrilib uzağa gedir,
Hər biri bir soyuq bucağa gedir,
Mən sola gedirəm, o sağa gedir,
İzlər haçalanır, yollar ayrılır.

Sərraf Şiruyəyəm, peşmanam indi,
Can-ciyar doğmama düşmənəm indi,
Könlüm paralanıb, şan-şanam indi,
Gözlərdən tökülən sellər ayrılır.

## QALANDI

Bir gün gedəsiyəm mən bu dünyadan,
Qalsa könül səsim, sözüm qalandı.
Yaxşımı, yamanmı, bir insan kimi,
Həyata saldığım izim qalandı.

Gedərgiyəm, yaşa günəş, yaşa dan,
Yaşayammaz vətənimə daş atan.
Bu dünyada məni mənsiz yaşadan,
Vətən adlı oğlum, qızım qalandı.

Şiruyə, nə lazım hicranlı söhbət?
Bu yola yolçudu yaranmış xilqət.
Sən gedirsən, vurulduğun təbiət,
Uca dağlar düzüm-düzüm qalandı.

## GÖRÜŞ VAR Kİ

Görüş var ki, – ayrılıqdan betərdi,
Ayrılıq var vüsal qədər şirindi.
Görüş var ki, – töhməti dağ qədərdi,
Ayrılıq var sevinci göy-yerindi.

Bir öyrənin, kimdi gələn görüşə?
Üzü varmı görüşməyə bu xalqla?
Bu xalqa ki, yağı olub həmişə,
Bəs görüşə görən gəlir nə haqla?

Bəs o kimdir, tez-tez baxır saata?
Hansı qıza görən görüş veribdi.
Övladını atıb gedən o ata,
Bu görüşə altun-quruş veribdi.

Atılmış anayla oğul görüşür,
Dönür bir buzlağa görüş otağı.
Ananın gözündən qanlı yaş düşür,
Oğul dayanıbdı “igid” sayağı.

Kimə gərək, nəyə gərək bu görüş?
Belə görüş yaraları qanadar.
Ayrılıq var o verdiyi bir öpüş,
Neçə-neçə ümidləri oyadar.

## ALLAH

Nənəm yırğalıya, beşiyim aşa,
Bir də üzü üstə yıxılam, Allah!
Göynəyib ağlayam, anam can – deyə,
Bələkdə köksünə sıxılam, Allah!

Yetişə vaxt, vədə məktəbə gedəm,
"Əlif", "bey" öyrədə evdə də dədəm.
On il gəlib keçə kamala yetəm,
Yetim tələbətək baxılam, Allah!

Ötəm gül eşqiylə bir bülbül kimi,
Odlanam, sovrulam yanar kül kimi,
Gözəllər qəlbinə qızılgül kimi,
İstəklə, sevgiylə taxılam, Allah!

Ağlaya-ağlaya gələ bir mələk,
Mənim atmacamdan gileynəyərək...
Eşqin dəlisitək, divanəsitək,
Anamın başına qaxılam, Allah!

Qoymayam üzünə teli toxuna,
Dağların o xəfif yeli toxuna,
Doğma anasının əli toxuna,
Mən necə qısqancam, paxılam, Allah!

Günlər belə ötə, illər dolana,
Könlüm dönə bir inləyən kamana.
Əhdə xilaf çıxam, qız nişanlana,
Yanam öz-özümə yaxılam, Allah!

Yox-yox, get ey xəyal, uzaqlaş məndən,
Uzağam, uzağam mən sən deyəndən.
Bir ildırım gücü istərəm səndən,
Yağının başına çaxılam, Allah!

***2 dekabr 2007-ci il.***

## GET ÖP

Mənim başdaşımı öpməyə gəlmə,
Həyatda saldığım izimdən get öp.
Mənim qəbrim üstə gül-çiçək səpmə,
Könüllər isidən közümdən get öp.

Qəbrimə daş qoyub, naxış düzəldən,
Qədrimi biləydin gərək əzəldən.
Dolu süfrəm qalıb şeir, qəzəldən,
Dadından, tamından, duzundan get öp.

Behsanə axıtma gözündən yaşı,
Sağikən axtarar sirdaş-sirdaşı.
Oxşayıb öpməynən cansız bir daşı,
Hər bir sətirimdən, sözümdən, get öp.

## GƏTİR

***Türk İsmayıla***

Bizim bu ellərə yolun düşəndə,
Bizə istək dolu bir könül gətir.
Sərvət, var dediyin gəldi-gedərdi,
Təmiz ülfət gətir, şirin dil gətir.

Ölüm ilə dayanmışam üzbəüz,
Qoçaqsansa, bu xətadan əlim üz.
Xəbərin yox, dərdim mindi, yaram yüz,
Loğmanım ol, dərmanımı bil gətir.

Bir dost kimi al dəstimi dəstinə,
Alqışçıyam qamətinə, şəstinə.
Tükənəcək bu ömrümün üstünə,
Bir müjdəli, bir sevincli il gətir.

Ümidim yox, vüsalına yetməyə,
Torpağını yalamağa, öpməyə.
Ölən vaxtı gözlərimə səpməyə,
Ocağımdan bircə ovuc kül gətir.

Şiruyəyəm, yaman düşdük bəd hala,
Həsrət qaldıq neçə yurda, mahala.
İstəyirsən yaralarım sağala,
Get, Göyçədən bircə dəstə gül gətir!

## KİŞİ KİMİ

Nə şöhrətə, nə sərvətə əyildim,
Yaşadım sadəcə mən kişi kimi.
Mənalı ağladım, mənalı güldüm,
Ötüşdü ömrümdən gün kişi kimi.

Qul olan kimsəyə olmadım ağa,
Canımı qanana verdim sadağa.
Əsdi başım üstdən tufan-qasırğa,
Düşdü saçlarıma dən kişi kimi.

Hər sözü anladım, baxışı duydum,
Haqqa baş endirdim, qeyrətə uydum.
Vəfalı dostlara canımı qıydım,
Bəslədim düşmənə kin kişi kimi.

El yaşadı ürəyimdə, qanımda,
Həqiqət dil açdı hər gümanımda.
Aqil məclisində, sərraf yanında,
Dedilər sözün var din kişi kimi.

Şiruyə, çox kəsdin bərəni, bəndi,
Min elə tanıtdın adi bir kəndi.
Vədə başa çatdı, ömür tükəndi,
Əcəl köhləninə min kişi kimi.

## KÖNLÜM SƏNİ İSTƏYİR

***Maşallah Xudubəyliyə***

Göyçə deyin uşaq kimi kövrəlib,
Ağlamağa könlüm səni istəyir.
Hərdən-hərdən bu pərişan halımı,
Yoxlamağa könlüm səni istəyir.

Düşündükcə yurd-yuvamı, binəmi,
Ağlamışam, ağlar qalım yenəmi?
Həzin layla çəkib dərdli sinəmi,
Dağlamağa könlüm səni istəyir.

Bir gəl danış igidindən, nərindən,
Məbədindən, ocağından, pirindən.
Söz açıb Göyçənin ərənlərindən,
Çağlamağa könlüm səni istəyir.

Deyəmmərəm daha dizdə girim var,
Sığındığım dərgahım var, pirim var,
Gedərgiyəm, ürəyimdə sirrim var,
Saxlamağa könlüm səni istəyir.

Bu dünya oyuncaq, bu dünya hənək,
Gözləyir qıl körpü, odlu dəyənək,
Şiruyənin qəbri üstə bir çələng,
Bağlamağa könlüm səni istəyir.

***2000-ci il.***

## OLAYDI

***Dağdan kəndə gizli qaçıb anamı,***
***Qorxuya saldığım günlər olaydı.***

**Sücaət**

Geri qayıdaydı uşaqlıq çağım,
Evciklər qurduğum günlər olaydı.
Zirvələr başında qartal sayağı,
Vüqarlı durduğum günlər olaydı.

Yadımdan çıxaydı çörəyim, çayım,
Qılınc qayalardan gələydi hayım.
Əlimdə sapandım, belimdə yayım,
Kəkliklər vurduğum günlər olaydı.

Zurnanın səsinə gələydim yurda,
Quzunun beşini verəydim qurda.
Bir qara qaşlının bir dar cığırda,
Adını sorduğum günlər olaydı.

Alıb gülüzlümün xoş sorağını,
Dolanıb gəzəydim hər oylağını.
O nazlı sənəmin boyunbağını,
Əl atıb qırdığım günlər olaydı.

"Sevirəm" dediyim sözümün üstə,
O, sillə çəkəydi gözümün üstə,
Şiruyəyəm, çöküb dizimin üstə,
Boynumu burduğum günlər olaydı.

## BİLMƏZ

Kiçik görünsəm də bir ağır daşam,
Yetən əl atmasın, götürə bilməz.
Arxamca daş-kəsək atanlar çoxdu,
Məqsədi mənzilə yetirə bilməz.

Seçə billəm yaxşı, yaman baxımı,
Hər yetənə tuşlamaram oxumu.
Göyərə bilsə də böhtan toxumu,
Həqiqəti gözdən itirə bilməz.

Ay Şiruyə, qoyma mətləb uzana,
Qanun göstər, düz yolunu azana.
Yalan həqiqəti salar qazana,
Çiynəyər, boğazdan ötürə bilməz.

## QİSMƏTİDİ

Gözəllik, göyçəklik hər bir insana,
Taleyin verdiyi öz qismətidi.
Nə uca boyum var, nə gözəlliyim,
Mənə də verilən söz qismətidi.

Bir can verib alar fələk aparar,
Salar qəza-qədər kələk aparar,
Gülün qoxusunu külək aparar,
Bülbülün çəkdiyi naz qismətidi.

Sərraf Şiruyəyəm, ey parlaq ayım,
Ey könül həsrətim, ürək ax-vayım.
Bir quru baxışa qalıbdı payım,
Qoy baxsın doyunca göz qismətidi.

## MƏN

Bu qədər gəl məni sınağa çəkmə,
Elə yaranmışdan sınaqdayam mən.
Umanım da çoxdur, küsənim də çox,
Axşam da, sabah da qınaqdayam mən.

Özüm duymamışam, ağırmış daşım,
Qüssədə, kədərdə ötüşdü yaşım.
Məndən inciməsin qohum-qardaşım,
Yaxşı ki, yad dildə, dodaqdayam mən.

Sərraf Şiruyəyəm, bəd keçir halım,
Açılmır düyünüm, çoxdur məlalım.
Bir gün eşidəcən, ay qadan alım,
Qapısız, bacasız otaqdayam mən.

## QOCA DÜNYA, SALAMAT QAL

Gəldim sənə, getdim səndən,
Qoca dünya, salamat qal.
Yolçu oldum ötdüm səndən,
Qoca dünya, salamat qal.

Sevincindən söz açmadım,
Kədərindən uzaşmadım.
Hikmətindən baş açmadım,
Qoca dünya, salamat qal.

Şiruyəyəm, sözüm qalır,
Ocağımda gözüm qalır,
Oğlum qalır, qızım qalır,
Qoca dünya, salamat qal.

# MÜNDƏRİCAT

Ovsun (Tofiq Yusif)......................................................3

***Bürüsə də gülü alaq,***
***Qoxusuyla səs salacaq.***

Görüm.......................................................................16
Gətirər.......................................................................16
Bilməz .......................................................................17
Deyil.........................................................................18
Qoçaqlıqdı.................................................................18
Deməlidi....................................................................19
Doğru........................................................................20
Bu dünya ..................................................................20
İnsan .........................................................................21
Görmüşəm.................................................................22
Zülümdü ...................................................................22
Bilməyib...................................................................23
Var............................................................................24
Gülmüşəm .................................................................24
Oğluyuq.....................................................................25
Olunca mən ...............................................................26
Bilməz .......................................................................26
Bu dünya ..................................................................27
Alır ...........................................................................28
Nə var ki....................................................................28
Xeyri nə.....................................................................29
Yazmıram..................................................................30
Toxunar .....................................................................31
İnsan .........................................................................31

Deyərəm ....................................................................32
Var .........................................................................33
Hikmətdi, hikmət..........................................................34
Atalar.......................................................................34
Var .........................................................................35
İmiş.........................................................................36
Pərvanəsidir...............................................................37
Kəsi.........................................................................38
Bu dünya ...................................................................39
Xalıdır, xalı ................................................................40
Çıxmalıydı..................................................................41
İndi .........................................................................42

***Mat qalmışam, yoxdu canda hənirti,***
***Heç göyərmir umduğumuz göyərti.***

Nə birlik......................................................................44
Nə vecinə....................................................................45
Kimi..........................................................................45
Uzaqdı ki, uzaqdı .........................................................46
Axmaqlıq olar...............................................................47
Deyək ........................................................................47
Bala...........................................................................48
Bu yurdda ...................................................................49
Vallah ........................................................................50
Olmur ........................................................................50
Yıxdı məni...................................................................51
İtirdik.........................................................................52
Salıbdı........................................................................53
Hayıf..........................................................................53
Ay bala .......................................................................54

Nə yaman artıb ....55
Dostu ....56
Çalacaq ....57
Bilinmir ....58
Dönüb indi ....58
Nə qalıb ....59
Korladı ....60
Allah ....61
Eyləyib ....61
Ha sula-sula ....62
Düşübdü ....63
Keçmir ....64
Olubdu ....65
Olmur ....66

***Çay var, kükrəsə də suyu içilməz,***
***Sısqa var, damlası baldan seçilməz.***

Olar ....68
Olar ....68
Çəkilmir ....69
Axtar ....70
Getmə ....70
Getsin ....71
Əyilməz ....72
Olmaz ....72
Olar ....73
Olar ....74
Əlinə ....74
Kimi ....75
Nə var ....76

İnsanı ..........76
Olmaya ..........77
Qurban..........78
Çıxmasın..........78
Nə var ki ..........79
Yenə ..........80
Göstərər ..........80
Olmaz ..........81
Var..........82
Ola ..........82
Qoruyun..........83
Var ..........84
Əldən gedər ..........84
Verər..........85
Çatar ..........86
Yoxdu..........87
Görməyib..........87
Dostu olar ..........88
Hayıf oldu..........89
Olacaq..........90
Saxla..........90
Getdi..........91
Eylər ..........92
Oğul..........92
Gedər ..........93
Etmədimi ..........94
Öldürdü..........95
Qalarmış ..........96
Təriflər..........96
Söylənərmiş..........97
Qoy dəysin ..........98

Yoxdur........................................................................98
Görmədim....................................................................99
Dostunu ....................................................................100
Dəyməz......................................................................100
Ummaq əbəsdi...........................................................101
Demə ........................................................................102
Deyib ........................................................................103
Ömür var ki ..............................................................103
Qoymaz ....................................................................104
Ola-olmaya................................................................105
Olar...........................................................................106
Həyatdan...................................................................106
Gələr .........................................................................107
Olmaz .......................................................................108
Korladı......................................................................108
Qorxma.....................................................................109
Bilməz ......................................................................110
Gülərlər.....................................................................110
Güclənər ...................................................................111
Pozulmaz ..................................................................112
Yerdən ......................................................................112
Qoymasan.................................................................113
Minnətdarıq, minnətdar...........................................113
Yox-yox....................................................................114

***Qoşalaşıb həsrətimin düyünü,***
***Biri Qarabağdı, biri də Göyçə.***

Biləydim ...................................................................116
Mən getməliyəm.......................................................116
Vətəndir ...................................................................117

Göyçə ........................................................................118
A dağların küləyi.........................................................118
İtirmişəm ....................................................................119
Dolansın ......................................................................120
Niyə düşsün .................................................................121
Günüdü........................................................................121
İstəyir könlüm .............................................................122
Mənim .........................................................................123
Soruşursan məkanımı, yurdumu...................................123
Qaldı ............................................................................124
Biri Qarabağdı, biri də Göyçə ......................................125
Qurbanam ....................................................................126
Kəlbəcər ......................................................................126
Mənə oğul demə, mənə mən demə...............................127
Varmı............................................................................128
Yatmayın ......................................................................129
Gərəkdir bizə................................................................130
Ulu Göyçə ....................................................................131
Nə gözəldi ....................................................................132
Anam, a Kəlbəcər, anam, a Göyçə ...............................133
Bu dağların qoynunda ..................................................134
Göyçə ..........................................................................135
Mən azadlıq istəyirəm..................................................136
Azərbaycan...................................................................137
Azərbaycan ağlayır.......................................................138
Göyçə mənim ...............................................................139
Dəlidağın qoynuna bax, qoynuna.................................140
Dağların........................................................................140
Bu yerlərdə ...................................................................141
Keçmisənmi..................................................................142
Qalıbmı.........................................................................143

Bu dağlardadı ....................................................144
Qala .................................................................145
Döndərib...........................................................146
Dağlar ..............................................................147
Gətirmişəm mən ................................................148
Bu gün ..............................................................148
Dağlar ..............................................................149
Olammaz ...........................................................150
Bu yerdə ...........................................................151
Allah .................................................................152
Laçında gördüm ................................................153
Deməsin ............................................................154

***Ömrə, günə bel bağlama, bir ötəri taxtdı bu,***
***İnanmırsan dön geriyə, taxtı Süleymanı gör.***

Əliyə .................................................................156
Hüseynimə ........................................................156
Məhəmməd ........................................................157
Gör ....................................................................158
Məni ..................................................................159
Yenə səndən diləyim var ..................................160
Sığınmışam ........................................................161
İstərəm ..............................................................161
Əlidir .................................................................162
Allahdan mərhəmət umur, utanmır ...................163
Bağışla ..............................................................164
Allah .................................................................165
Düş ....................................................................166
Eşqidir ...............................................................167

Nə gözəl........................................................................168

***Bizi bu töhmətlə ellər ağlamaz,***
***Mən səni ağlayım, sən məni ağla.***

Olsun ............................................................................170
Eylədim .........................................................................170
O gözlər ala ..................................................................171
Dodaqlar.......................................................................172
Mənimkidi ....................................................................172
Var.................................................................................173
Qalır...............................................................................174
Tapmışam ......................................................................174
Nə tez gəlmisən .............................................................175
Alandımı.......................................................................176
Bəxtinə .........................................................................177
Ərimaz...........................................................................177
Ay yarıdımı ..................................................................178
Qayıt, gülüm, qayıt on beş yaşına ................................179
Gözəldi .........................................................................180
Ay Allah ........................................................................181
Demişdim .......................................................................181
Cinayətdi .......................................................................182
Olmaz .............................................................................183
Dedilər............................................................................183
Məhəbbətim qocalmır ki, qocalmır ..............................184
Gümana bax, gümana...................................................185
Baldı ...............................................................................185
Qız ..................................................................................186
Yuxuma girmə...............................................................187
Bəs demə ........................................................................188

Mən səni ağlayım, sən məni ağla ..................................190
Nə yazım ..........................................................................191
Bilməz ..............................................................................192
Bu gələn............................................................................192
Çirkini...............................................................................193
Baxım ...............................................................................194
Gəl ...................................................................................194
O nara ..............................................................................195
Əridir ...............................................................................196
Gəl dedi ............................................................................196
Deyil .................................................................................197
Gəl, gəl .............................................................................198
Gələrəm ............................................................................199
Gəlmişəm .........................................................................200

***Bir dərdə təsəlli tapılmayanda,***
***İnsan özü ömür-gündən bezərmiş.***

Hələ mən ..........................................................................202
Qorxuram .........................................................................203
Uduzdum ..........................................................................204
Ağladar məni ....................................................................204
Dostuyam .........................................................................205
Yetirin məni .....................................................................206
Bacıdı ...............................................................................206
Qadasın alım.....................................................................207
Çətindir.............................................................................208
Hayıfım gəlir ....................................................................208
Tofiq Yusifə .....................................................................209
Dərd olar, dərd olar .........................................................210
Küsüm ..............................................................................210

Ummuşam ............................................................211
Ala bilməzsən........................................................212
Getdi ....................................................................213
Qurbanın olum ......................................................213
Gedirəm................................................................214
Qismət, ya qismət..................................................215
Bu dünyaya mən....................................................215
Boyana..................................................................216
Dünyadı bu ...........................................................217
Olmur ...................................................................218
Bir də ...................................................................218
Ay döyə-döyə ........................................................219
Yavaş-yavaş ..........................................................220
Deyiləm ................................................................220
Oldu .....................................................................221
Gətir .....................................................................222
Dilqəmi .................................................................223
Düşüb ...................................................................224
Şair .......................................................................224
Mən.......................................................................225
Susma ürək, susma, ürək .......................................226
Səpələnmə ............................................................227
Üzərmiş ................................................................227
Ay yarım qalıb.......................................................228
Alanıymış .............................................................229
Əyilənəm ..............................................................230
Qardaşlarım ..........................................................232
Deyə-deyə.............................................................233
Ağladar səni ..........................................................234
Qoy yazsın cocuq ..................................................235
Ay Allah ...............................................................235

Analar ....................................................................236
Sənə nə fayda ........................................................237
Bilsəm......................................................................238
Küsərmi ...................................................................238
Neyləyə billəm ......................................................239
Atıldı........................................................................240
Mən..........................................................................241
Getdi ........................................................................242
Mən..........................................................................242
Ata ...........................................................................243
Dərdi var.................................................................244
Bir sən oldun .........................................................244
İnsan ........................................................................245
Gərək .......................................................................246
Məni .........................................................................246
Düyünə düşür .........................................................247
Qaytar, illər, məni geriyə qaytar .........................248
Ayrılır ......................................................................249
Qalandı ....................................................................250
Görüş var ki ............................................................251
Allah ........................................................................252
Get öp ......................................................................253
Gətir.........................................................................254
Kişi kimi..................................................................255
Könlüm səni istəyir ................................................256
Olaydı ......................................................................257
Bilməz .....................................................................258
Qismətidi ................................................................258
Mən..........................................................................259
Qoca dünya, salamat qal .......................................260

**Sərraf Şiruyə**
***(Hacıyev Şiruyə Həsən oğlu)***

**Susma, ürək... (şeirlər)**
**Bakı, "SkyG", 2015**

*Kompyuter dizaynı:* ***Araz Yaquboğlu***
*Texniki redaktor:* ***Aqşin Hacızadə***
*Bədii redaktor:* ***Arif Məmmədli***
*Korrektor:* ***Mütəllim Həsənov***
*Operator:* ***Murad Ağayev***

Yığılmağa verilmişdir**: 05.07.2015**
Çapa imzalanmışdır**: 18.11.2015**
Şərti çap vərəqi: **17.** Sifariş **№ 11**
Kağız formatı **60x84** 1/16. Tiraj: **500.**

Kitab "SkyG" NPM-də hazır diapozitivlərdən çap olunmuşdur.
Ünvan: Bakı, Ü.Hacıbəyov, 21
e-mail: skyg@yahoo.com